# Xalq qəzeti

Xalqın qəzeti!

№ 213 (30907) 4 oktyabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


## Prezident İlham Əliyev: Türk dünyası bizim ailəmizdir!

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi sosial şəbəkə səhifələrində 3 Oktyabr Türk Dövlətlərinin Əməkdaşlıq Günü ilə bağlı paylaşım edib.**




Paylaşımda deyilir:

"3 Oktyabr Türk Dövlətlərinin Əməkdaşlıq Günüdür.

Məhz bu gün 2009-cu ildə qədim Azərbaycan torpağı olan Naxçıvanda Türk Dövlətləri Təşkilatının əsası qoyulmuşdur.

Bu əlamətdar gün münasibətilə Türk dünyasını səmimi-qəlbdən təbrik edirəm.

Türk dünyası bizim ailəmizdir!

Ötən 16 il ərzində təşkilatımız güclənmiş, dünya miqyasında böyük nüfuz qazanmış, sıralarımız genişlənmişdir.

Türk Dövlətləri Təşkilatı ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsinə, Türk xalqları arasında həmrəyliyin daha da möhkəmlənməsinə böyük töhfə vermişdir.

Azərbaycan Türk dünyasının birliyinin gücləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək. Qardaşlığımız əbədidir!".

# Türk Dövlətləri Təşkilatı:
# Naxçıvandan başlamış 16 illik qardaşlıq




## Diplomatiyamızın Kopenhagen uğuru

*Avropa Azərbaycanın sülh gündəliyini alqışlayır*



**Müasir beynəlxalq münasibətlər sisteminin çoxşaxəli dinamikasında hər diplomatik təmas, hər yüksək səviyyəli görüş ölkələrin qlobal geosiyasi konfiqurasiyadakı çəkisini, nüfuzunu və strateji əhəmiyyətini müəyyən edən mühüm indikator rolunu oynayır. Bu kontekstdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kopenhagenə səfəri və orada keçirdiyi görüşlər silsiləsi Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin yeni mərhələyə yüksəldiyini təsdiq edən mühüm əhəmiyyətə malik tarixi hadisədir.**

*(ardı 3-cü səhifədə)*

## Avropanın təhlükəsizlik problemi varmı?



*Azərbaycan "Qoca qitə"nin enerji ilə təminatına öz töhfəsini verir, amma hibrid təhdidlər həllini gözləyir*

**Kopenhagendə keçirilən ASB zirvəsi qitənin təhlükəsizliyi məsələsini gündəmin mərkəzinə gətirib. Enerji təhlükəsizliyi sahəsində Azərbaycanın Avropa ölkələrinə verdiyi töhfələr artıq geniş qəbul olunur, amma enerji təchizatı zəmanəti ilə bərabər, hərbi və hibrid təhdidlərdən qorunma məsələsi yeni strateji dialoqu tələb edir.**

Enerji təminatı ilə təhlükəsizlik arasındakı təzad sadə görünə bilər: qaz və neft boruları işə düşdükcə Avropa üçün problem azalır. Lakin reallıq daha mürəkkəbdir. Enerji axını həm də siyasi, hərbi və informasiya meydanında oynanan bir strategiyadır. Avropanın diversifikasiya strategiyasının nəticəsi olaraq Azərbaycan yalnız əlavə qaz və neft mənbəyi deyil.

*(ardı 3-cü səhifədə)*

## CƏBRAYIL – azadlığına qovuşmuş ilk Qarabağ şəhərimiz




Səhifə ⇨ 11

## "Odlar yurdu"nun "Gündoğar ölkə" ilə ortaq maraqlar axtarışı



Səhifə ⇨ 4

## Şimal–Cənub Dəhlizinin qlobal önəmi



Səhifə ⇨ 4

## Azərbaycan "Transxəzər yaşıl enerji dəhlizi" müzakirələrində




Səhifə ⇨ 9

## Ermənistan parlamentinin çağırışı: gerçək sülh və siyasi kollaps



Səhifə ⇨ 5

# Almaniya Federativ Respublikasının Prezidenti Zati-aliləri cənab Frank-Valter Ştaynmayerə

**Hörmətli cənab Prezident!**

3 Oktyabr – Alman Birliyi Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Almaniya bizim üçün vacib tərəfdaş ölkədir və biz ikitərəfli əlaqələrimizin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Sizin aprel ayında Azərbaycana səfəriniz geniş gündəliyə malik əməkdaşlığımızın inkişafına yeni təkan verdi.

İnanıram ki, Azərbaycan ilə Almaniya arasında dostluq münasibətlərinin inkişafı, bir sıra sahələr üzrə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın davam etdirilməsi və yeni məzmunla zənginləşməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Almaniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2025-ci il**

# İraq Respublikasının Prezidenti Zati-aliləri cənab Əbdüllətif Camal Rəşidə

**Hörmətli cənab Prezident!**

İraq Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu yaxınlarda Nyu-Yorkda Sizinlə görüşümüzü, apardığımız fikir mübadiləsini yüksək qiymətləndirirəm. Əminəm ki, Azərbaycan-İraq münasibətlərini möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı faydalı əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İraq xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2025-ci il**

# Koreya Respublikasının Prezidenti Zati-aliləri cənab Li Cemyönə

**Hörmətli cənab Prezident!**

Koreya Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Koreya arasında əlaqələrin uğurla inkişafı məmnunluq doğurur. Bu gün bir sıra sahələrdə, xüsusilə də iqtisadi-ticari, sənaye, yüksək texnologiyalar, rəqəmsal transformasiya, elm, təhsil və digər sahələrdə əməkdaşlığımızın dərinləşməsi üçün yaxşı imkanlar vardır.

İnanıram ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan–Koreya əlaqələrinin möhkəmləndirilməsi, qarşılıqlı fəaliyyətimizin genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Koreya Respublikasına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2025-ci il**

# Baş prokuror vətəndaşları dinləyib



**Baş prokuror Kamran Əliyev Bakı şəhəri Səbail Rayon Prokurorluğunun inzibati binasında Səbail rayonu və digər bölgələrdən olan 48 vətəndaşı qəbul edib.**

Vətəndaşların müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair olub.

Qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***XQ***

# Dövlət Gömrük Komitəsinin sədri vətəndaşlarla görüşüb



**Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov Naftalan Şəhər Heydər Əliyev Mərkəzində Naftalan və Gəncə şəhərləri, Goranboy, Tərtər və Göygöl rayonlarından olan vətəndaşlarla görüşüb.**

Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən görüşdə Naftalan və Gəncə şəhərləri, Goranboy, Tərtər və Göygöl rayonlarının sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Görüş zamanı qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

***XQ***

# Heydər Əliyev Fondunun göytəpəlilərə hədiyyəsi





**Cəlilabad rayonunun Göytəpə şəhərində yeni məktəb binası istifadəyə verilib.**

Göytəpə şəhərində yerləşən Vasif Hüseynov adına 2 nömrəli tam orta məktəb üçün yeni binanın inşasına Heydər Əliyev Fondu tərəfindən 2024-cü ilin oktyabr ayında başlanılmışdı. Qısa müddətdə tikinti işləri başa çatdırılıb, müasir tələblərə cavab verən təhsil ocağı inşa olunub.

Üçmərtəbəli, iki korpusdan ibarət məktəb binası 625 şagird yerlikdir. Burada müasir standartlara uyğun sinif otaqları, fizika, kimya və biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb otaqları, texnologiya kabinetləri, müəllimlər otağı, texniki otaqlar, qarderob, kitabxana, yeməkxana, akt, idman və gimnastika zalları, açıq ministadion – idman meydançası fəaliyyət göstərəcək.

Yeni məktəb binasının istifadəyə verilməsi ən çox müəllim heyətini və şagirdləri sevindirib.

Məktəbin şagirdi Aybəniz Əkbərova sevincini belə ifadə edib: "Mənim üçün ən sevincli günlərdən biridir. Çünki artıq yeni, geniş və rahat dərs otaqlarında oxuyacağıq".

Lənkəran-Astara Regional Təhsil İdarəsinin müdir müavini Rəhim Rəhimov qeyd edib ki, istifadəyə verilən bu təhsil ocağı bölgənin ən müasir məktəblərindən biri olacaq. "Əminik ki, bu məktəb həm müəllimlərin səmərəli fəaliyyətinə, həm də şagirdlərin yüksək bilik və bacarıqlara yiyələnməsinə böyük təkan verəcək", - deyə o vurğulayıb.

***XQ***

# Şəki polisi III MDB oyunlarının keşiyində





**Ölkəmizdə keçirilən III MDB oyunları ilə əlaqədar Şəkidə də təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi məqsədilə DİN-in əməkdaşları tərəfindən gücləndirilmiş xidmət təşkil olunub. Rayon ərazisində və oyunların keçirildiyi məkanlarda xidmətə əlavə canlı qüvvə cəlb edilib.**

Polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları ictimai asayişin qorunması, hər hansı hüquqazidd əməllərin qarşısının vaxtında alınması, eləcə də köməyə ehtiyacı olan şəxslərə operativ yardım göstərilməsi istiqamətində fasiləsiz rejimdə fəaliyyət göstərirlər.

***XQ***

# Türkiyə Naxçıvan Sazişinin 16-cı ildönümünü qürurla qeyd edir

**Ortaq dəyərlərimizin və inteqrasiya iradəmizin təzahürü olan Türk Dövlətləri Təşkilatı regionda və onun hüdudlarından kənarda sülhə, rifaha və sabitliyə xidmət göstərməyə davam edəcək.**




Bu ifadələr Türkiyənin Xarici İşlər Nazirliyinin 3 Oktyabr - Türk Dövlətlərinin Əməkdaşlıq Günü münasibətilə açıqlamasında yer alıb.

Açıqlamada deyilir: "3 Oktyabr - Türk Dövlətlərinin Əməkdaşlıq Gününü və Türk Dövlətləri Təşkilatının qurucu sənədi olan Naxçıvan Sazişinin imzalanmasının 16-cı ildönümünü qürurla qeyd edirik".

*Xuntaçıların məhkəməsi*

# Təqsirləndirilən ermənilərin məhkəməsi davam etdiriləcək

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesi gələn həftə davam etdiriləcək.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) məhkəmə iclası oktyabrın 6-na təyin olunub.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

***XQ***

# Diplomatiyamızın Kopenhagen uğuru

(əvvəli 1-ci səhifədə)



Kopenhagen danışıqlarını səciyyələndirən reallıq, görüşlərin istisnasız olaraq qarşı tərəflərin müraciətləri əsasında baş tutması faktı müasir Azərbaycan diplomatiyasının nail olduğu zirvələrin və dövlət başçısının şəxsi nüfuzunun parlaq təzahürüdür. Lakin Kopenhagen danışıqlarının dərin qatlarına vardıqda, həmin diplomatik uğurun müəyyənedici sütunu üzə çıxır: Azərbaycanın müəllifi olduğu yeni sülh gündəliyinin və Vaşinqtonda əldə olunmuş tarixi nəticələrin Avropanın aparıcı gücləri və institutları tərəfindən birmənalı şəkildə qəbul edilməsi, təqdir olunması və dəstəklənməsi.

Niderlanddan Fransaya, Ukraynadan İtaliyaya, Moldovadan Avropa İttifaqının ali rəhbərliyinə qədər bütün görüşlərin leytmotivini təşkil edən yekdil təbriklər Cənubi Qafqazda yeni reallıqların beynəlxalq siyasətin qəbul etdiyi praktiki gerçəklik olduğunun təkzibedilməz sübutuna çevrildi. Prezident İlham Əliyevin liderliyi ilə Kopenhagen səfəri Azərbaycanın həm hərbi-siyasi, həm də diplomatik və konseptual müstəvidə qalib gəldiyini, regionun gələcək memarlığını müəyyən edən aparıcı liderə çevrildiyini bütün dünyaya bəyan edən strateji manifest oldu.

Beynəlxalq diplomatiyanın yazılmamış qanunlarına görə, görüş təşəbbüsü ilə çıxış edən tərəf, adətən dialoqa daha çox maraq göstərən və ya müəyyən məsələlərin həllində digər tərəfin mövqeyinə ehtiyac duyan tərəf hesab olunur. Onilliklər boyunca formalaşmış stereotiplərə əsasən, kiçik və ya ortahəcmli dövlətlər böyük güclərlə və ya nüfuzlu beynəlxalq təşkilatlarla təmaslar qurmağa can atırdılar. Lakin Prezident İlham Əliyevin Kopenhagen səfərinin təşəbbüskarlarının məhz Avropa dairələri olması, bu klassik modelin Azərbaycan timsalında tamamilə dəyişdiyini göstərir.

Bu, təsadüfi və ya anlıq jest deyil, son illər ərzində Azərbaycanın apardığı məqsədyönlü, prinsipial və suveren siyasətin məntiqi nəticəsidir. Həmin transformasiyanın təməlində bir neçə fundamental amil dayanır. Birincisi, 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfər və 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsidir. Bu hadisələr təkcə Cənubi Qafqazda yeni geosiyasi reallıq yaratmadı, eyni zamanda, bütün dünyaya Azərbaycanın milli maraqlarını müdafiə etmək üçün siyasi iradəyə, iqtisadi gücə və müasir hərbi qüdrətə malik olduğunu nümayiş etdirdi. Avropa paytaxtları anladılar ki, Cənubi Qafqazda uzunmüddətli sülh, sabitlik və inkişaf haqqında düşünərkən regionun aparıcı dövləti olan Azərbaycanın mövqeyini nəzərə almamaq qeyri-mümkündür.

Artıq təzyiq, ikili standartlar və qondarma dəyərlər pərdəsi arxasında gizlənən maraqlar siyasəti keçmişdə qalmışdır. Yeni reallıq qalib Azərbaycanla bərabərhüquqlu tərəfdaş kimi dialoq qurmaq zərurətini diktə edir. Kopenhagendə ünvanlanan görüş müraciətləri məhz bu yeni reallığın Avropa siyasi elitası tərəfindən dərk edilməsinin və qəbul olunmasının praktiki təsdiqidir.

İkincisi, Prezident İlham Əliyevin şəxsi liderlik keyfiyyətləri və beynəlxalq aləmdə formalaşdırdığı müstəsna nüfuzdur. İyirmi ildən artıq dövlət başçısı kimi fəaliyyəti dövründə Azərbaycan lideri uzaqgörən strateq, müdrik siyasətçi və sözü ilə əməli vəhdət təşkil edən etibarlı tərəfdaş olduğunu təsdiqləyib. Onun beynəlxalq tribunalardakı dərin məzmunlu, arqumentlərə söykənən və milli maraqları qətiyyətlə müdafiə edən çıxışları, xüsusilə Münxen Təhlükəsizlik Konfransı kimi intellektual duellərdə nümayiş etdirdiyi yüksək hazırlıq və prinsipiallıq dünya liderləri arasında ona böyük hörmət qazandırmışdır. Avropalı siyasətçilər və diplomatlar bilirlər ki, Prezident İlham Əliyev regiondakı vəziyyəti, qlobal prosesləri və onların qarşılıqlı təsirini dərindən bilən, mürəkkəb geosiyasi vəziyyətdə soyuqqanlı qərarlar qəbul etməyi bacaran və verdiyi vədlərə sadiq qalan liderdir. Məhz bu səbəbdən, onlar Cənubi Qafqazın gələcək memarlığı, enerji təhlükəsizliyi, nəqliyyat dəhlizlərinin inkişafı və digər strateji məsələlərlə bağlı onun şəxsi fikirlərini, proqnozlarını və baxışlarını birbaşa dinləməkdə maraqlıdırlar. Qarşı tərəfin müraciəti əsasında baş tutan görüşlər Avropanın Azərbaycana və onun Liderinə olan ehtiyacının göstəricisidir. Bu, Prezidentin təhlil və proqnozlarının, onun strateji baxışlarının Avropanın gələcək siyasətinin formalaşması üçün nə qədər dəyərli olduğunu anlamaqdır. Bu, Azərbaycan Liderinin Avropa üçün etibarlı və əvəzolunmaz tərəfdaşa çevrilməsinin diplomatik etirafıdır.

Üçüncü və heç də az əhəmiyyət kəsb etməyən amil Azərbaycanın artan strateji dəyəri və formalaşdırdığı müsbət beynəlxalq imicdir. Müasir dünyada ölkənin nüfuzu həm də onun iqtisadi dayanıqlılığı, etibarlı tərəfdaş olması, tranzit potensialı və proqnozlaşdırılan xarici siyasəti ilə ölçülür. Azərbaycan bütün bu sahələrdə ən yüksək səviyyədə təsdiq olunmuşdur. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu danılmazdır. Cənub Qaz Dəhlizi və onun tərkib hissəsi olan TAP kəməri vasitəsilə Azərbaycan qazının Avropa bazarlarına çatdırılması, qitənin enerji mənbələrinin şaxələndirilməsi siyasətində həlledici rol oynamışdır.

Rusiyadan enerji asılılığını azaltmağa çalışan Avropa üçün Azərbaycan etibarlı və sabit enerji təchizatçısı kimi müstəsna əhəmiyyət kəsb edir. Bundan əlavə, Azərbaycanın "yaşıl enerji"yə keçid sahəsindəki nəhəng potensialı və Avropaya bərpaolunan enerji ixracı ilə bağlı irəli sürdüyü təşəbbüslər ölkəmizi qitənin gələcək enerji memarlığının da əsas memarlarından edir. Enerji amilindən başqa, Azərbaycanın Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi, xüsusilə Orta Dəhlizin inkişafındakı aparıcı rolu ölkənin strateji dəyərini qat-qat artırır. Mürəkkəbləşən geosiyasi vəziyyət fonunda Asiya ilə Avropa arasında ən təhlükəsiz və səmərəli ticarət yoluna çevrilən Orta Dəhlizin ürəyi məhz Azərbaycandır. Bu isə o deməkdir ki, Avropanın iqtisadiyyatı və təchizat zəncirlərinin təhlükəsizliyi birbaşa Azərbaycandakı sabitlikdən və ölkənin tranzit siyasətindən asılıdır. Bütün bunlar sabitliyin və proqnozlaşdırılan siyasətin hökm sürdüyü, multikulturalizm və tolerantlıq ənənələrinin dövlət siyasəti səviyyəsində dəstəkləndiyi Azərbaycanın müsbət imicini daha da möhkəmləndirir. Məhz bu kompleks amillər toplusu Avropanı Azərbaycana xüsusi dəyər verməyə və onunla dialoqa can atmağa sövq edir. Kopenhagenə olan dəvət bu strateji zərurətin və pozitiv münasibətin ən bariz nümunəsidir.

Kopenhagen səfərində baş tutan görüşlərin məzmunu və formatı da Azərbaycanın yeni diplomatik statusunu təsdiqləyir. Artıq Azərbaycan dinləyən, hansısa təklifləri və ya təzyiqləri qəbul edən tərəf deyil. Azərbaycan mövqeyini, regionun gələcəyi ilə bağlı baxışlarını, sülh gündəliyini və əməkdaşlıq təkliflərini avropalı tərəfdaşlarına çatdıran aparıcı tərəfdir. Görüşlərdə müzakirə olunan məsələlərin əhatə dairəsinin genişliyi – regional təhlükəsizlikdən tutmuş enerji və nəqliyyat layihələrinə, ikitərəfli əlaqələrdən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa qədər – Azərbaycanın təsir dairəsinin nə qədər genişləndiyini göstərir.

Prezident İlham Əliyevin səsləndirdiyi hər fikir, irəli sürdüyü hər təklif diqqətlə dinlənilir, təhlil edilir və Avropanın Cənubi Qafqazla bağlı gələcək strategiyasının formalaşmasında nəzərə alınır. Bu, suverenliyin və milli ləyaqətin diplomatik müstəvidə təntənəsidir. Azərbaycan artıq heç kimin diktəsi ilə hərəkət etmir, milli maraqlarına uyğun siyasət yürüdür və bu siyasəti beynəlxalq tərəfdaşlarına hörmətlə, lakin qətiyyətlə təqdim edir. Avropanın bu yeni reallığı qəbul etməsi və dialoqu məhz bu çərçivədə qurmağa çalışması, Kopenhagen görüşlərinin ən mühüm nəticələrindən sayılmalıdır.

Prezident İlham Əliyevin Kopenhagenə səfəri və burada qarşı tərəfin təşəbbüsü ilə keçirilən görüşlər Azərbaycanın xarici siyasət salnaməsinə qızıl hərflərlə yazılacaq tarixi hadisədir. Həmin səfər Azərbaycanın son iyirmi iki ildə keçdiyi möhtəşəm inkişaf yolunun, Prezidentin həyata keçirdiyi müdrik və uzaqgörən siyasətin məntiqi yekununu və daha yüksək mərhələnin başlanğıcını simvolizə edir. Kopenhagen görüşləri təkzibedilməz şəkildə sübut etdi ki, Prezident İlham Əliyev təkcə Azərbaycan xalqının deyil, eyni zamanda, beynəlxalq miqyasda böyük hörmət və nüfuza malik olan, fikirləri dinlənilən qlobal liderdir.

Ölkəmizə göstərilən xüsusi dəyər və pozitiv münasibət onun Avropanın gələcəyi üçün daşıdığı strateji əhəmiyyətin etirafıdır. Artıq Azərbaycanla məsləhətləşmədən Cənubi Qafqazda hər hansı uzunmüddətli layihənin reallaşması qeyri-mümkündür. Bu, milli qürur və iftixar mənbəyi olmaqla yanaşı, həm də gələcək üçün böyük məsuliyyət deməkdir. Kopenhagen səfəri ilə açılan yeni diplomatik üfüq Azərbaycanın suveren liderliyi və strateji zərurətə çevrilməsi sayəsində regionun və dünyanın gələcəyinin formalaşmasında daha fəal rol oynayacağından xəbər verir. Bu, güclü Azərbaycanın və onun müdrik Liderinin beynəlxalq aləmdəki növbəti triumfudur.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# Avropanın təhlükəsizlik problemi varmı?



(əvvəli 1-ci səhifədə)



O, Avropanın enerji portfelində mövcudluğun yeni risk profilini formalaşdıran strateji tərəfdaşdır. Məhz bu rol ikiqat məna daşıyır: bir tərəfdən iqtisadi-siyasi investisiya, digər tərəfdən isə müdafiə öhdəliyinə bərabər dərəcədə çevrilən yeni geosiyasi məsuliyyət. Borular və terminallar fiziki infrastrukturdur, amma onların təhlükəsizliyi siyasi iradə, hüquqi zəmanətlər və hərbi-hibrid müdafiə qatları ilə ölçülür.

Niyə yalnız infrastrukturun "möhkəmliyi" kifayət etməz? Çünki qarşıda duran yeni təhlükələr çoxşaxəlidir: kiberhücumlar infrastrukturun idarəetmə sistemlərini sıradan çıxara, informasiya manipulyasiyaları sosial panika yaradaraq təchizatı poza, hibrid əməliyyatlar isə hüquqi və diplomatik sferada blokadalar yarada bilər. Rəqib dövlətlər və qeyri-dövlət aktorları iqtisadi asılılıqdan istifadə edərək siyasi təzyiq göstərmək və ya enerji axınını şantaj vasitəsinə çevirmək imkanına malikdirlər. Buna görə də enerji təhlükəsizliyi, eyni zamanda siyasət, müdafiə və hüququn paralel şəkildə işlədiyi çoxqatlı bir sistem olmalıdır.

ASB zirvəsinin əsas sualı bu idi: təchizatdan müdafiəyə necə keçmək lazımdır?

Cavab olaraq qeyd etməliyik ki, burada üç komponentin sintezi olmalıdır: preventiv diplomatiya, çoxsəviyyəli müdafiə və hüquqi-maliyyə mexanizmləri. Preventiv diplomatiya - Avropa tərəfdaşları ilə bağlanan təhlükəsizlik klauzalarını, təcili reaksiya mexanizmlərini və zərər-hesablaşma institutlarını daxil edir. Çoxsəviyyəli müdafiə dedikdə isə fiziki qorunma, kiber-müdafiə, hava məkanının qorunması və məlumat mübadiləsi nəzərdə tutulur. Hüquqi-maliyyə mexanizmləri isə enerji axınının kəsilməsi halında kompensasiya və sığorta sistemləri ilə bağlıdır. Yəni enerji təminatının kəsilməsi beynəlxalq hüquqi və iqtisadi proseslər vasitəsilə həll ediləcək məsələdir.

Maraqlıdır, Azərbaycan bu keçidi hansı prioritetlərlə etməlidir?

Prioritetlər üç pillədə düşünülməlidir. Birinci pillə riskin qiymətləndirilməsi və zəif nöqtələrin aşkar edilməsi: hansı boru seqmentləri, hansı komanda – mərkəzlər, hansı terminal obyektləri hibrid məqsədlər üçün daha əlverişlidir? İkinci pillə müdafiə qabiliyyətinin çoxşaxələndirilməsidir: fiziki qorunma + kiber-həllər + hava məkanı monitorinqi. Üçüncü pillə Avropa tərəfdaşları ilə hüquqi və diplomatik zəmanətlərin avtomatlaşdırılmasıdır: təcili yardım prosedurları, investisiya müdafiəsi və sanksiya mexanizmləri.

Əvvəlcə hibrid hücum risklərindən başlamaq istərdik. Enerji infrastrukturuna qarşı hücumlar çox vaxt gözlə görünməyən yollarla edilir. Məsələn, boru xətlərinə birbaşa zərbə endirilmədən də böyük fəsad yaratmaq olar. SCADA kimi idarəetmə sistemlərinə edilən kiber hücum borulardan axını dayandıra bilər. Yəni fiziki obyekt sağlam qalsa da, enerji təchizatı kəsilə bilər. Digər tərəfdən, sosial media üzərindən aparılan təbliğat və dezinformasiya kampaniyaları cəmiyyət arasında narahatlıq və panika yarada, bazarda süni qiymət dəyişikliklərinə səbəb ola bilər. Belə vəziyyətdə enerji təkcə iqtisadi deyil, siyasi təzyiq alətinə çevrilir. Ona görə də müdafiə tədbirləri yalnız sərhəd patrulu və ya boruların fiziki qorunması ilə məhdudlaşa bilməz. Qorunma həm də informasiya müstəvisini, kiber təhlükəsizliyi və iqtisadi sabitliyi əhatə etməlidir. Yəni enerji təhlükəsizliyi kompleks yanaşma tələb edir: həm hərbi, həm kiber, həm də informasiya sahəsində paralel addımlar atılmalıdır.

İkinci pillə Azərbaycanın müdafiə qabiliyyətinin çoxşaxələndirilməsi ilə bağlıdır. Müdafiənin çoxşaxələndirilməsi həm də müxtəlif texnologiyaların birləşdirilməsini nəzərdə tutur: dronların müşahidə imkanları, süni intellekt əsaslı risk təhlilləri, fövqəladə hallarda sürətli cavab qüvvələri və informasiya blokadasının qarşısını alan kommunikasiya kanalları.

Üçüncü pillə Azərbaycanın enerji təhlükəsizliyinin beynəlxalq zəmanətlərlə möhkəmləndirilməsini nəzərdə tutur. Enerji infrastrukturu yalnız hüquqi və diplomatik çərçivələr olmadan dayanıqlı qala bilməz. Məhz bu aspekt enerji diplomatiyasının mahiyyətini dəyişir: Azərbaycanın Avropa ilə enerji əməkdaşlığı artıq strateji təhlükəsizlik mübadiləsinə çevrilir. Məsələn, Avropa ilə enerji müqavilələrində fövqəladə hallar üzrə maddələrin daxil edilməsi Azərbaycanın mövqeyini gücləndirir. Texniki problem və ya kiberhücum baş verdiyi anda Avropa tərəfi dərhal koordinasiyaya cəlb olunur, texniki dəstək təmin edilir və alternativ marşrutlar işə düşür. Buradan çıxan siyasi mesaj aydındır: Azərbaycan yalnız enerji tədarükçüsü deyil, regional sabitliyin təminatçısıdır.

Hüquqi zəmanətlər və sığorta mexanizmləri investisiya mühitini stabilləşdirir. Avropalı şirkətlər Azərbaycanda qaz terminalına investisiya qoyur və hər hansı hücum zamanı sığorta fondu investisiyanın itkisini qarşılayır, arbitraj sistemi isə sürətli mübahisə həlli təmin edir. Bu xüsusiyyət isə strateji perspektivdə iki amili göstərir: birincisi, Azərbaycanın enerji infrastrukturuna qarşı yönələn hücumlar iqtisadi risk daşıyır; ikincisi, Avropa tərəfi bu riskləri aktiv şəkildə bölüşməyə hazırdır.

Daha dərin siyasi məna isə avtomatik sanksiya mexanizmlərindədir. Hücum zamanı Avropanın dərhal sanksiyaları işə salması yalnız hüquqi tədbir deyil, həm də siyasi mesajdır: Azərbaycanın enerji təhlükəsizliyi yalnız daxili resurslarla qorunmur, regional və qlobal aktorlar tərəfindən dəstəklənir və bu dəstək strateji tərəfdaşlığın birbaşa göstəricisidir.

Beləliklə, Azərbaycan enerji diplomatiyasını təhlükəsizlik diplomatiyası ilə sinxronlaşdıraraq yeni strateji status qazanır. Belə yanaşma enerji layihələrini Avropa ilə regional stabilliyin "qarantı"na çevirir. Məsələn, TANAP və Avropaya qaz tədarükü, yalnız enerji axını deyil, həm də geosiyasi mesajdır: hər hansı üçüncü tərəf Azərbaycanın infrastrukturasına müdaxilə etməyə cəsarət etməməlidir, çünki Avropa ilə koordinasiya artıq avtomatlaşdırılmış müdafiə sisteminə çevrilib.

Nəticədə, hüquqi və diplomatik zəmanətlər Azərbaycanın enerji təhlükəsizliyini hərbi və kiber sahələrdə gücləndirməklə yanaşı, onun Avropa ilə strateji tərəfdaşlıq rolunu möhkəmləndirir və regional təsirini artırır. Avropanın məsuliyyəti daha dərin səviyyədə müdafiə zəmanətləri və texniki transferlərlə davam etməlidir. Praktik olaraq bu, bir tərəfdən Avropa ölkələrinin Azərbaycanın kiber və fiziki müdafiə qabiliyyətinə texniki yardım göstərməsi, digər tərəfdən isə hüquqi instrumentlərlə Bakı üçün "təhlükəsizlik sığortası" funksiyasını yerinə yetirməsidir.

Enerji təminatı ilə təhlükəsizlik arasındakı təzad dövlətlərin xarici siyasət prioritetlərini, müdafiə planlarını və iqtisadi müqavilələrini yenidən formalaşdırmaq zərurəti yaradır. Azərbaycan üçün isə bu, strateji bir mərhələnin başlanğıcıdır: enerji resurslarının verilişi ilə bağlı məsuliyyəti hərbi və diplomatik sahələrdə müdafiə siyasətinə çevirmək tələb olunur.

Son olaraq qeyd edək ki, strateji qərarlar konkret addımlara, protokollara və koordinasiya sistemlərinə inteqrasiya edilməlidir. Enerji siyasətində atılan strateji addımlar Azərbaycanın tədarükçü funksiyasını genişləndirərək, Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş və regional sabitliyin təminatçısı rolunu gücləndirir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# “Odlar yurdu”nun “Gündoğar ölkə” ilə ortaq maraqlar axtarışı

## *Asiya–Sakit okean regionunda nüfuzun artması Bakı üçün əlavə diplomatik kapital deməkdir*

**Qlobal siyasi müstəvidə diqqətin əsasən Qərb–Şərq ziddiyyətlərinə, böyük güclərin rəqabətinə yönəldiyi bir vaxtda Bakı mühüm bir diplomatik platformanı işə salır – Uzaq Şərqin texnoloji və iqtisadi nəhəngi Yaponiya ilə əlaqələrin dərinləşdirilməsi. Bu, Azərbaycanın xarici siyasət doktrinasında strateji diversifikasiya xəttinin konkret ifadəsidir.**

Oktyabrın 2-də Bakıda Azərbaycanla Yaponiya arasında keçirilən növbəti siyasi məsləhətləşmələrdə ölkəmizi xarici işlər nazirinin müavini Elnur Məmmədov, Yaponiya tərəfini isə Avropa bürosunun baş direktorunun müavini və Mərkəzi Asiya, Qafqaz və GUAM üzrə xüsusi nümayəndə Masaki İşikava təmsil edib. Görüş iki tərəfin regionun yeni geopolitik reallıqları və qlobal ticarət dinamikası fonunda maraqlarını yenidən kəsişdirdiyi taktiki xəritə rolunu oynadı.

Tokionun Cənubi Qafqaz və Mərkəzi Asiyaya diqqəti son illər artmaqdadır. Bunun açıq göstəricilərindən biri Yaponiya XİN-in region üzrə xüsusi nümayəndə təyin etməsi və yüksəksəviyyəli əlaqələndirmə səyləridir. Digər tərəfdən, sentyabrın 26-da Tokioda Yaponiya ilə Azərbaycan Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə Dövlət Komissiyasının və Yaponiya–Azərbaycan İqtisadiyyat Komitəsinin 12-ci Birgə İclası keçirilib. Tədbirdə hər iki ölkənin müxtəlif dövlət qurumlarından və özəl sektor təşkilatlarından nümayəndələr iştirak edib. Bu, həm də Yaponiyanın Qərb–Rusiya–Çin üçbucağında neytral, iqtisadi və texnoloji bağlantılar vasitəsilə daha çox oyunçu roluna can atdığını göstərir. Azərbaycan üçün bu əlaqə sıradan iqtisadi əməkdaşlıqdan daha yüksək məqsəd daşıyır: xarici siyasətin şaxələndirilməsi. Bakı Avropa, Yaxın Şərq və Türkiyə hədəfləri ilə paralel olaraq Asiya–Sakit okean dairəsinə çıxışını gücləndirir. Enerji marşrutları, nəqliyyat dəhlizləri və ticarət əlaqələri bu strategiyanın aparıcı xəttini təşkil edir.

Yaponiyanın enerji tələbatı uzun müddət idxala bağlı olub. Son illər nüvə enerjisi və bərpaolunan mənbələrə dönüş olsa da, ölkə üçün sabit enerji mənbələrinin əhəmiyyəti hələ də aktivdir. Azərbaycan isə Xəzər resursları, qaz terminal potensialı və yenilikçi enerji layihələri ilə Tokioya alternativ təklif edə bilər. Eyni zamanda, Azərbaycan “SOCAR Green” və yerli “yaşıl enerji” təşəbbüslərini beynəlxalq tərəfdaşlarla genişləndirir. Görüşlərdə enerjidən danışılması real imkanların siyasi platforma olaraq müzakirəyə gətirildiyini sübut edir. Bundan əlavə, Tokionun uzunmüddətli enerji təhlükəsizliyi strategiyasında müxtəlif mənşəli mənbələrin olması vacibdir. Azərbaycan isə Cənub Qaz Dəhlizi və digər tranzit imkanları ilə Avropa–Asiya enerji axınlarında maraqlı tərəf ola bilər.



Bəli, Bakının qarşısına qoyduğu vacib hədəf Yaponiya investisiyalarını qeyri-neft sektorlarına yönəltməkdir. Son aylar Azərbaycanla Yaponiya arasında müxtəlif sahələrdə memorandumların imzalanması və dövlət komissiyalarının görüşləri müşahidə olunur. Məsələn, dövlətlərarası iqtisadi əməkdaşlıq üzrə komissiyanın iclası, SOCAR və yapon şirkətləri arasında texniki əməkdaşlıqların gündəmə gəlməsi fəal tərəfdaşlıqdan xəbər verir. Görüş zamanı logistikadan tutmuş yüksək texnologiyaya, təhsil və turizmə qədər sahələr prioritet olaraq müzakirə edilib ki, bu da Bakının iqtisadi strukturunu şaxələndirmək strategiyasına tam uyğundur.

İxrac-idxal rəqəmlərinə görə, Yaponiyaya bizim məhsulların idxalı kiçikhəcmli olsa da, siyasi iradə və məntiqi infrastruktur bu vəziyyəti dəyişdirə bilər: 2024-cü ildə bu ölkəyə Azərbaycan məhsullarının idxalı təxminən 15.1 milyon ABŞ dolları səviyyəsində qeydə alınıb. Bu həcmi artırmaq üçün konkret investisiya proqramları və ticarət təşviq mexanizmləri tələb olunur.

Bakı Asiya ilə Avropa arasında “Orta Dəhliz” (Middle Corridor) konsepsiyasını fəal şəkildə təbliğ edir. Bu marşrut Şərqdən Qərbə ticarət yolunu qısaldaraq, dondurulmuş və ya riskli marşrutlara alternativ yarada bilər. Yaponiya üçün daşınma müddətini və xərcləri optimallaşdıran belə alternativlər ticarət marşrutlarının seçilməsində maraqlı amildir. Aşağı performanslı şimal marşrutlarına alternativ kimi Orta Dəhlizin potensialı Tokionun tədarük zəncirlərində diversifikasiyanı təmin edə bilər. Bununla belə, hələ də infrastrukturun modernləşdirilməsi və rəqabət qabiliyyətinin artırılması tələb olunur.

Siyasi planda Azərbaycan Yaponiya ilə münasibətləri möhkəmləndirməklə bir neçə strateji hədəfə çatmaq niyyətindədir: regional balanslaşdırma – Qərb, Rusiya və regional aktorlar arasında diplomatik manevr üçün əlavə tərəfdaşlar; normallaşma prosesinə dolayı dəstək – Yaponiya humanitar və infrastruktur layihələri vasitəsilə sülh prosesinə müsbət töhfə verə bilər; beynəlxalq legitimləşmə – Asiya–Sakit okean regionunda nüfuzun artması Bakı üçün əlavə diplomatik kapital deməkdir. Yaponiya isə öz növbəsində, regionda təhlükəsizlik və iqtisadi fəaliyyətini müstəqil kanallarla genişləndirmək üçün Cənubi Qafqaza diplomatik giriş qazanır.

Oktyabrın 2-də keçirilən məsləhətləşmələr ideya və niyyətlərin formal protokoldan çıxaraq konkret fəaliyyətə çevrilməsini nümayiş etdirdi. Yaponiya ilə əlaqələrin genişləndirilməsi Bakıya həm iqtisadi, həm də siyasi baxımdan yeni imkanlar açır. Bunlar enerji bazarlarında şaxələnmə, Asiya bazarlarına çıxış və nəqliyyat-logistika təşəbbüslərində əhəmiyyətli roldur. Tokio üçün isə Cənubi Qafqaz yeni ticarət və geosiyasi məkan deməkdir. Yaponiya həm enerji təhlükəsizliyini diversifikasiya edə, həm də Asiya–Avropa məkanında yeni tərəfdaşlıqlar qura bilər.

Bu mərhələdə vacib məsələ odur ki, Bakı–Tokio dialoqu yalnız yüksəksəviyyəli rəsmiləşdirmə ilə məhdudlaşmasın; konkret investisiya paketləri, layihə təqvimləri və icra mexanizmləri formalaşsın.

### Ekspert rəyi

**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**



Yaponiya iqtisadi cəhətdən qlobal səhnədə önəmli ölkələrdən biridir və Azərbaycanla münasibətlər həmişə dostyana xarakter daşıyıb. Bu, uzun müddət vizasız rejimdə də özünü göstərib. Buna görə iki ölkə arasındakı əlaqələr daim inkişaf edən dinamika nümayiş etdirir. Bu kontekstdən çıxış edərək, Yaponiya həm iqtisadi, həm də digər sahələrdə əməkdaşlığı daha da genişləndirməkdə maraqlıdır.

“Gündoğan ölkə” sərmayə qoyuluşu və texnologiya sahəsində öndəgedən ölkələrdəndir. Enerji və investisiya sahələrindəki imkanlar sayəsində əməkdaşlığı gücləndirmək mümkündür. Yaponiya həm də enerjiyə böyük tələbatı olan ölkədir. Bu baxımdan da əməkdaşlıq yollarının müzakirəsi və uyğun mexanizmlərin hazırlanması əhəmiyyətlidir.

İqtisadi əməkdaşlıq geniş spektrlidir və növbəti mərhələdə perspektivin reallaşması üçün ciddi addımlar atılacaq. Azərbaycan yerləşdiyi region baxımından strateji əhəmiyyət daşıyan ölkədir. Burada dünyanın aparıcı ölkələri fəaliyyət göstərir və Azərbaycan da həmin dövlətlərlə çoxşaxəli əməkdaşlığı gücləndirməyə çalışır.

Bu istiqamətdə aparılan görüşlər və danışıqlar, həmçinin konkret əməkdaşlıq təşəbbüsləri əlaqələrin real şəkildə qurulduğunu göstərir. Azərbaycan həm kənd təsərrüfatı və ərzaq məhsulları sahəsində, həm də regional bazarlara çıxış imkanları baxımından strateji mövqeyə malikdir. Eyni zamanda, xarici sərmayənin cəlb edilməsi də əsas prioritetlərdəndir. Prezident İlham Əliyev tərəfindən qeyri-neft sektoruna sərmayənin cəlb edilməsi və yeni dövrün strateji hədəfləri xüsusi olaraq vurğulanır. Buna görə də bölgə ölkələri ilə sərmayə, texnologiya və innovasiyaların transferi sahəsində əməkdaşlığın daha da güclənəcəyi gözlənilir.

***Tacir SADIQOV***
***XQ***

# Şimal–Cənub Dəhlizinin qlobal önəmi

**Son illər dünya iqtisadiyyatında və qlobal nəqliyyat sistemində baş verən dəyişikliklər beynəlxalq marşrutlara marağı artırıb. Bunun səbəblərindən biri Qərbin Rusiya və İran kimi ölkələrə tətbiq etdiyi sanksiyalardır. Məhz belə bir geosiyasi və iqtisadi şəraitdə Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyəti önə keçib.**




Bu dəhliz Rusiya, İran, Azərbaycan və Hindistan arasında yerləşən, Asiyadan Avropaya malların daha sürətli, təhlükəsiz və sanksiyalardankənar daşınmasını təmin etməyə yönəlmiş nəhəng layihədir. Layihənin əsas məqsədi Rusiyanı Hindistanın limanlarına və daha geniş mənada, Cənubi Asiya, Fars körfəzi və Afrika bazarlarına bağlamaqdır. Bu nəqliyyat arteriyası həm də Süveyş kanalına alternativ olmaqla, yükdaşımaları köklü şəkildə dəyişmək potensialına malikdir.

Dəhliz çərçivəsində mühüm infrastruktur elementlərindən biri olan Rəşt–Astara dəmir yolu hissəsinin çəkilməsi davam etdirilir. Bu günlərdə İran hökuməti Rusiyaya bu xəttin tikintisi üçün 34 kilometrlik torpaq sahəsi ayıracaq. İranın yollar və şəhərsalma naziri Fərzənə Sadekin sözlərinə görə, artıq 162 kilometrlik marşrutun yarısından çoxunun torpaq sahələri satın alınıb, ilin sonuna qədər prosesin tamamlanması planlaşdırılır.

Rusiya və İran arasında imzalanan hökumətlərarası sazişlər əsasında, Moskva bu layihənin tikintisinə 1,3 milyard avro kredit ayırıb. Eyni zamanda, iki ölkə dəhlizin planlaşdırılması, tikintisi və logistika xidmətlərinin təşkili sahəsində birgə maliyyələşdirmə modelini seçiblər.

Rəşt–Astara dəmir yolu təkcə İran və Rusiya üçün deyil, həm də Azərbaycan üçün geoiqtisadi baxımdan əhəmiyyətə malikdir. Bu xəttin tikilib başa çatdırılması ilə Xəzər dənizindən keçən Qərb qolu üzrə yük axını genişlənəcək və multimodal daşımaların effektivliyi artacaq. Layihədə Azərbaycan tranzit ölkə sayılır. Coğrafi mövqeyinə görə Şərq–Qərb və Şimal–Cənub nəqliyyat arteriyalarının kəsişməsində yerləşən Azərbaycan regionda logistik qovşağa çevrilmək imkanı qazanır. Rəsmi məlumatlara görə, layihə tam gücü ilə işlədikdə, Azərbaycanın tranzit gəlirləri ilkin mərhələdə 3 milyard dollar təşkil edə bilər. Eyni zamanda, layihə yeni iş yerlərinin yaradılmasına, infrastrukturun genişləndirilməsinə və dövlət büdcəsinə əlavə gəlirlərin daxil olmasına səbəb olacaq.

Azərbaycan layihənin təhlükəsiz və davamlı fəaliyyəti üçün etibarlı tərəfdaş kimi çıxış edir. Xüsusilə Rusiyanın Qara dənizdə və Baltik regionunda üzləşdiyi təhlükələr, Ukraynanın pilotsuz katerlərinin hücumları, Finlandiya körfəzində mümkün blokada riski və Kalininqradın təcridi Cənuba yönəlmiş alternativ dəhlizlərin aktuallığını artırıb. Bu kontekstdə Azərbaycan ərazisindən keçən Şimal-Cənub dəhlizi iqtisadi və strateji baxımdan alternativ rol oynayır. Bu səbəbdən Bakı layihənin reallaşması istiqamətində böyük işlər görüb. Mövzu ilə bağlı **İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru Aqil Əsədov** XQ-yə bildirdi ki, Prezident İlham Əliyevin 11 fevral 2025-ci il tarixli Fərmanı ilə Azərbaycan və Rusiya arasında “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizi üzrə əməkdaşlıq sazişi təsdiqlənib: “Bu, nəqliyyat sektorunun inkişafına dövlət dəstəyinin davamı kimi qiymətləndirilir.

Son illərdə qəbul edilən “2024–2026-cı illər üçün Fəaliyyət Planı” və “2025–2030-cu illər üçün Dövlət Proqramı” da daxil olmaqla, bu sahəyə yönəlik mühüm sənədlər ölkənin tranzit-logistika potensialını artırmağa xidmət edir. Prezidentin illər əvvəl vurğuladığı kimi, nəqliyyat sek-



toru neftdən sonra strateji sahədir və artıq Azərbaycan regionda və Avropada mühüm tranzit mərkəzinə çevrilməkdədir. 2005-ci ildən layihəyə qoşulan Azərbaycan üçün Şimal-Cənub dəhlizi Qərbi Avropa ilə Asiyanı birləşdirən əsas nəqliyyat arteriyalarındandır. 2023-cü ildə bu dəhlizlə 9,3 milyon ton yük daşınıb. Dəhlizin inkişafı ilə yol və körpü infrastrukturu yenilənib, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və rəqəmsallaşma istiqamətində addımlar atılır.

Gələcəkdə dəhlizin illik ötürücülük qabiliyyətinin 15 milyon tona çatdırılması planlaşdırılır. Prezident İlham Əliyevin “Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında” 7 dekabr 2015-ci il tarixli Sərəncamına uyğun olaraq Astara (Azərbaycan) – Astara (İran) dəmir yolu xəttinin Astaraçay üzərindəki körpüyə qədər 8,3 kilometr yeni yol tikilib. Astaraçay üzərində dəmiryol körpüsü inşa olunub, İran İslam Respublikası ərazisində yaradılmış yük terminalına qədər 1,4 kilometr yol çəkilib. Bütövlükdə, dəhlizin tam gücü ilə fəaliyyətə başlaması gələcəkdə Azərbaycanın tranzit gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq”.

İqtisadçı-alim onu qeyd etdi ki, ilkin hesablamalara görə, ölkəmiz Şimal–Cənub dəhlizi ilə tranzit yüklərin daşınmasından ildə 2,5–3 milyard dollara yaxın vəsait əldə edəcək: “Nəzərə alsaq ki, digər istiqamətlərdə, xüsusilə, Trans–Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi (Orta Dəhliz) ilə də daşımaların davamlı artırılması istiqamətində ardıcıl layihələr icra edilməkdədir, onda tam əminliklə qeyd etmək olar ki, yaxın gələcəkdə beynəlxalq daşımalardan əldə olunan vəsait dövlət büdcəsinin əsas gəlir mənbələrindən birinə çevriləcək, neft sektorundan sonra nəqliyyatın ölkə üçün vacib sahə olduğu rəqəmlərdə öz təsdiqini tapacaq”.

**Siyasi şərhçi Ülviyyə Zülfiqar** qeyd etdi ki, Azərbaycan və Ermənistan arasında keçən ay paraflanan sülh sazişi bölgədə uzun illər davam edən qarşıdurmaya son qoyulması baxımından tarixi əhəmiyyət daşıyır:

– Münaqişə nəticəsində 30 ilə yaxın regiondakı nəqliyyat və iqtisadi əlaqələrin iflic vəziyyətə düşdüyünü nəzərə alaraq deyə bilərik ki, əldə olunan razılaşma Avrasiya məkanında sabitliyin gücləndirilməsi baxımından böyük önəm kəsb edir. Dünya Bankının məlumatına görə, yalnız Cənubi Qafqazda nəqliyyat-logistika imkanlarının açılması regional ÜDM-i orta hesabla 2,5 faiz artıra bilər.

Şərq–Qərb və Şimal–Cənub dəhlizləri Azərbaycanın geostrateji mövqeyinin əhəmiyyətini bir daha göstərir. Hazırda Bakı–Tbilisi–Qars dəmir yolu ilə ildə təxminən 6 milyon ton yük daşınır və bu göstəricinin 2030-cu ilə qədər iki dəfə artacağı proq-



nozlaşdırılır. Şimal–Cənub dəhlizi çərçivəsində isə Azərbaycan ərazisindən keçən hissənin illik potensialı 15–20 milyon ton arasında qiymətləndirilir ki, bu da ölkəmizi həm Avropa ilə Asiya, həm də Rusiya ilə Fars körfəzi ölkələri arasında vacib tranzit mərkəzinə çevirir.

Müsahibimizin şərhinə onu da əlavə edək ki, layihə nəinki yüklərin daha sürətli və sanksiyalardankənar daşınmasını təmin edəcək, həm də regional inteqrasiyanın gücləndirilməsinə, ticarət əlaqələrinin şaxələndirilməsinə və Avrasiya iqtisadi məkanında yeni enerji, ticarət və informasiya yollarının açılmasına imkan verəcək.

Beləliklə, Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi təkcə infrastruktur layihəsi deyil, həm də qlobal geosiyasi və iqtisadi münasibətlər sistemində yeni güc balansının formalaşmasına təsir edən strateji bir təşəbbüsdür. Bu dəhliz Rusiya, İran, Azərbaycan və Hindistan üçün iqtisadi qazanclar, geosiyasi mövqelərin gücləndirilməsi və sanksiyalara alternativ ticarət yolları baxımından əvəzolunmaz imkanlar yaradır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Ermənistan parlamentinin çağırışı: gerçək sülh və siyasi kollaps

## *Qurumun bəyanatı və konstitusiya dəyişikliyi üçün zərurət məntiqi*

**Məlum olduğu kimi, Ermənistan parlamenti oktyabrın 2-də hakim "Vətəndaş sazişi" partiyası üzvlərinin təşəbbüsü ilə irəli sürülmüş "Ermənistan və Azərbaycan arasında sülhün qurulması haqqında" bəyanat layihəsini müzakirəyə çıxarıb və sənəd qəbul olunub.**

Əvvəlcə bəyanatda əksini tapmış məqamlar barədə söz açaraq deyək ki, sənədin ən mühüm cəhəti orada hər iki ölkə ictimaiyyətinə, siyasət, elm və mədəni dairələrinə keçmiş münaqişəni simvolizə edən, yaxud onu yenidən gündəmə gətirmək və alovlandırmaq məqsədi daşıyan ritorikadan çəkinmək çağırışının yer almasıdır. Çağırışın məqsədi yaradılmış sülhün davamlılığını və etibarlılığını təminat altına almaqdır ki, Cənubi Qafqaz rifaha qovuşsun. Həqiqətən, təsirli və özündə səmimiyyət çalarlarını daşıyan fikirlərdir. Amma...

Həqiqətən, istənilən qeyri-müəyyənlik şübhəli məqamlar doğurur. Ona görə sülhün əsas komponenti mütləq olmalıdır. Ən böyük komponent isə rifahdır. Başqa sözlə desək, Azərbaycan və Ermənistan arasında məhz xalqların rifahını hədəf seçmiş əməkdaşlıq qurulmalıdır. Elə bir əməkdaşlıq ki, Cənubi Qafqazı vahid iqtisadi orqanizm halına gətirsin. Elə bir orqanizm ki, özünüqoruma instinkti formalaşdırsın. Belə bir instiktin mövcudluğu potensial destruktiv meyilləri beşiyindəcə boğacaq, barış mühitini müqavimət qabiliyyətli sistem halına gətirəcək.

Məsələn, Avropa İttifaqı ölkələrini götürək. Mahiyyətcə, qitə bir-birinə zəncirvari bağlı iqtisadi düzənə malik olduğundan, loru dildə desək, kimsə domino daşlarından birini götürə bilmir. Axı hər şey dağıla bilər. Nəticədə heç kəs Avropa ölkələrinin artıq tarixə çevrilmiş ədavətlərini xatırlamır. Regionumuz da oxşar struktura sahiblənməlidir. Bu prizmadan yanaşsaq, bəyanatdakı fikirlər xeyli əhəmiyyətlidir: "Milli Assambleya, həmçinin vurğulayır ki, Ermənistan və Azərbaycan arasında sülhün qərarlaşması iqtisadi rifah və inkişaf üçün yeni imkanlar açır. Barışın institusional şəkildə təsisi Ermənistanın həyati maraqlarına xidmət edir. Qurulmuş sülhü daha da möhkəmləndirmək üçün isə səylər göstərilməlidir".

* * *

Deyə bilmərik, Ermənistanda diqqətə çatdırdığımız, daha doğrusu, bəyanatda əksini tapan məqamları düşünənlərin sayı nə qədərdir. Amma hər bir halda, ölkə parlamentinin addımını müsbət qiymətləndirmək mümkündür. Sənədin keçmiş münaqişəni simvolizə etməyin, yaxud onu yenidən gündəmə gətirməyin və alovlandırmağın yolverilməzliyi məntiqinə gəlincə, məsələ son dərəcə önəmlidir. Axı Ermənistanda neçə-neçə elm xadimi var ki, məhz "Artsax" mövzusunda müdafiə edib elmlər namizədi və ya elmlər doktoru adı alıb. Eyni tendensiya ölkənin mədəni mühitinə də hakimdir. Saxta "artsaxşünaslar", hətta siyasət arenasında da təmsil olunmaqdadırlar. Heç şübhəsiz, hay hakim komandasının tərkibində də onlardan var.

Ümumən, "Dağlıq Qarabağ" Ermənistanın ictimai, mədəni və elmi həyatına, kifayət qədər, daxil olmuş ifadədir. Amma erməni Milli Assambleyasının bəyanatının keçmiş münaqişənin simvolizə edən ritorikadan çəkinmək çağırışının fonunda daha vacib məqam var ki, ona ən sonda nəzər salacağıq. Hələlik isə "Vətəndaş sazişi"nin parlamentin müzakirəsinə çıxardığı bəyanatda daha nələrin yer aldığından söz açaq.

Beləliklə, sənəddə, eyni zamanda, bildirilib ki, bu il avqustun 8-də Vaşinqtonda Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi paraflanıb. "Əslində, Ermənistan və Azərbaycan arasında sülh qurulub. "Vətəndaş sazişi" hesab edir ki, Milli Assambleya bu faktı rəsmi şəkildə tanımalı və bəyanat qəbul etməklə, sülhü dəstəkləməli, bütün maraqlı tərəfləri onu möhkəmləndirməyə və inkişaf etdirməyə çağırmalıdır", – deyə hakim partiyanın parlament çoxluğunun rəhbəri, deputat Hayk Konjoryan bildirib.

Konjoryan qeyd edib ki, bəyanat layihəsi Ermənistan parlamentinin Vaşinqtonda Prezident İlham Əliyevin, ABŞ Prezidenti Donald Trampın və Ermənistanın Baş naziri Nikol Paşinyanın imzaladıqları Birgə Bəyannaməyə dəstək məramına söykənir. Onun sözlərinə görə, ali qanunverici orqan sözügedən sənədlə Ermənistan və Azərbaycan arasında kommunikasiyaların açılmasının dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və yurisdiksiyasına hörmət əsasında həyata keçiriləcəyini, regionda və qonşuluqda sülhün, sabitliyin və rifahın təşviqini qiymətləndirir: "Bu kimi səylərə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Ermənistan ərazisindən maneəsiz kommunikasiya daxil olacaq, bunun qarşılığında isə Ermənistan beynəlxalq və daxili kommunikasiya baxımından faydalar əldə edəcək".

Bəyanatda isə o da vurğulanır ki, Ermənistan ABŞ və qarşılıqlı müəyyənləşdirilmiş digər tərəflərlə əməkdaşlıq edəcək və öz ərazisində "Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu" (TRIPP) adlı bağlantı layihəsinə uyğun birgə çərçivə müəyyənləşdirəcək. Bakı və İrəvan arasında sülhün yaradılmasına əhəmiyyətli töhfəsinə görə Prezident Trampa təşəkkürün ifadəsini tapdığı sənəddə insanların dözülməz iztirablarına səbəb olmuş münaqişədən sonra Ermənistan və Azərbaycan xalqlarının mehriban qonşuluq münasibətləri qurması üçün şəraitin yarandığı mesajı da verilir.



* * *

Gələk digər məqama. Deməli, Ermənistan parlamentinin detallarını açıqladığımız bəyanatının müzakirəsində qurumun 107 deputatından 66-sı iştirak edib. Sənəd onlardan 2-nin bitərəf qalması, 64-nün isə lehinə səs verməsi ilə qəbul olunub. Bitərəflərin kimlər olduğu açıqlanmır. Nəzərə alsaq ki, layihəni hakim "Vətəndaş sazişi" partiyası irəli sürüb, onu müsbət qiymətləndirənlərin mütləq çoxunun məhz bu qurumu təmsil etdikləri birmənalıdır.

O da məlumdur ki, Ermənistan parlamentinin iki müxalifət fraksiyasının heç biri səsverməyə qatılmayıb. Söhbət tərkibi daşnaklardan ibarət "Şərəfim var" fraksiyasından və ölkənin üçüncü prezidenti Serj Sarkisyanın tərəfdarlarından ibarət "Ermənistan" blokundan gedir. İkinci fraksiyanın deputatları sənədin həqiqi sülhlə əlaqəsinin olmadığını və respublikanın həyati maraqları üçün zəruri sayılan siyasi, hüquqi və təhlükəsizlik tələblərinə cavab vermədiyini iddia ediblər. Digər müxaliflər isə bildiriblər ki, parlamentin məlum bəyanatı yalançı sənəddir, geosiyasi avantürizmin məhsuludur, birtərəfli güzəştlər aşılayır və milli maraqları ticarət və qeyri-müəyyən gələcək barədə vədlərə qurban verən boş ümidlər toplusudur.

Əlbəttə, Ermənistanda indiyədək də əks düşərgə nümayəndələrinin iqtidar partiyasının təşəbbüslərinə indiki kimi sərt münasibətlərinin şahidi olmuşuq. Digər tərəfdən, hakim komandanın təmsilçilərinin onları müxalifət saymadıqlarını da bilirik. Məsələn, bu günlərdə Ermənistan parlamentinin sədri Alen Simonyan demişdi ki, rəhbərlik etdiyi qurumda müxalifət yox, işi yalnız hər şeyin əleyhinə getmək olan təbəqə var. O, həmçinin parlamentin növbəti tərkibində real müxalifətin yer alacağına ümid bəslədiyini də dilə gətirmişdi.

A.Simonyanın mesajı müstəsna önəm daşıyır. Təsadüfi deyil ki, erməni Milli Assambleyasının hazırkı tərkibi qurumun haqqında söz açdığımız bəyanatla açıqladığı mütərəqqi məramın əhəmiyyətini heçə endirir. Təsəvvür edin, regionda sülh kimi həyati mövzunun müzakirəsinə parlamentin, demək olar, yarısı qatılmır. Bu, adi qarşılana bilməz. İstər-istəməz, sənədin legitimliyi şübhə altına düşür. Bəs vəziyyətdən çıxış yolu varmı?

Suala birmənalı cavab tapmaq mümkünsüzdür. Hesab edirik ki, hər şey böyük ölçüdə baş nazir Paşinyan iqtidarının qətiyyətindən və erməni xalqının iradəsindən asılıdır. Görünən isə budur ki, erməni hakim komandası parlamentin təsiri ilə həm də xalqın iradəsinin formalaşmasına səy göstərir. Sənədin vacibliyini əsaslandıran növbəti məqam da elə budur.

Bəli, Ermənistan parlamentinin bəyanatı, eyni zamanda, erməni cəmiyyətinə mesajdır. O cəmiyyətə ki, orada revanşist və şovinist qüvvələr var. O cəmiyyətə ki, tərkibində Milli Assambleyanın sənədini, bir növ, boykot edən müxalif kəsiminin tərəfdarlarını da birləşdirir. Başqa sözlə desək, xalq sülh və barış tərəfdarları ilə revanşistlər arasında seçim etməlidir. Seçim isə gələn il nəzərdə tutulur. Söhbət, 2026-cı ilin yayında ölkə parlamentinə keçiriləcək seçkilərdən gedir.

Deməli, indiki bəyanat həm də müəyyən mənada indikatordur. Ona reaksiyalara nəzərən erməni cəmiyyətinin sülh və ya müharibə istədiyini müəyyənləşdirmək olar. Ancaq bu yanaşma da nisbidir. Çünki əksər təbliğat vasitələrinin Rusiyanın təsirində olduğu Ermənistanda media elə təqdimatlar yayır ki, bir anlıq bütövlükdə erməni xalqının barışdan tam uzaq olduğuna dair təsəvvür formalaşır. Ancaq Paşinyanın geniş sosial şəbəkə auditoriyasından gələn siqnallar tamamilə fərqli mənzərənin mövcudluğundan xəbər verir.

Göründüyü kimi, vəziyyət xeyli mürəkkəbdir. Mürəkkəbliyi şərtləndirən daha bir məqam da var. Sonda həmin məqamdan söz açmaq üçün məlum bəyanatın keçmiş münaqişəyə aid simvolikaların qabardılmasının yolverilməzliyinə dair çağırışına qayıdaq. Əvvəldə "Dağlıq Qarabağ" ifadəsinin özünün də onilliklər ərzində davam etmiş konflikti yenidən gündəmə gətirmək və alovlandırmaq təmayülünü vurğuladıq. Əslində, ölkəmizin rəhbərliyinin də məqsədi budur ki, Ermənistan Azərbaycanla münaqişə məntiqindən tam uzaq dursun. Rəsmi Bakının Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirləri tərəfindən paraflanmış sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü konstitusiya dəyişikliyi şərti də bundan qaynaqlanır.

Bir halda ki, münaqişə simvolikasından uzaq durulmalıdır, ən böyük simvolika Ermənistanın İstiqlaliyyət Bəyannaməsindədir. Ölkənin Əsas Qanunu isə həmin bəyannaməyə istinad edir. Deməli, istinadın ümumxalq səsverməsi – referendum yolu ilə aradan qalxması vacibdir və bu, erməni Milli Assambleyasının bəyanatının ruhuna uyğundur. Yaxşı olar ki, baş nazir Paşinyan və tərəfdarları problemin köklü həllinə qol çırmasınlar.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Uğursuz "uğur düsturu"

## *Koçaryanın seçki "strategiyası" iflasa məhkumdur*

**Gələn il iyunun 7-də Ermənistanda keçirilməsi nəzərdə tutulan parlament seçkiləri yaxınlaşdıqca, siyasi qüvvələrin daha da fəallaşması diqqəti cəlb edir. Seçkilərə cəmi 8 ay vaxt qalıb, zaman isə sürətlə keçir. Faktiki olaraq seçkiqabağı mübarizənin qeyri-aşkar şəkildə başladığını demək mümkündür. Bu kampaniyada həm hakim siyasi qüvvə, həm də müxalifət iştirak edir.**

Ölkənin ictimai-siyasi mühitində müşahidə olunan gərginlik seçki marafonunun qızğın keçəcəyindən xəbər verir. Siyasi qüvvələrin birləşmə meyilləri, yeni seçki bloklarının yaradılması və partiyaların yerli strukturlarının fəallaşması seçkiöncəsi dinamikanı daha da artırır. Yaşanan iqtisadi problemlər və sosial narazılıqlar müxalifətin əsas arqumentinə çevrilərək kampaniyanın gedişini müəyyən edə bilər.

Ölkəyə 20 il başçılıq etmiş şərti olaraq "Qarabağ klanı" adlandırılan düşərgə də prosesə ciddi hazırlaşır. Klanın "xaç atası" – Hayastanın keçmiş prezidenti Robert Koçaryan bu günlərdə Moskvaya səfər edib və orada Kremlin Ermənistan üzrə əlaqələndiricisi, Rusiya Prezident Administrasiyası rəhbərinin müavini Sergey Kiriyenko ilə görüşüb. Bu barədə ölkənin "Hraparak" qəzeti öz mənbələrinə istinadla məlumat yayıb. Qeyd edilir ki, Koçaryan və Kiriyenko respublikanın daxili siyasi problemlərini, o cümlədən seçkilərlə bağlı məsələləri" müzakirə ediblər. Qəzetin yazdığına görə, Koçaryan Kiriyenkoya seçkilərlə bağlı özünün "uğur düsturu"nu təqdim edib. "Uğur düsturu" müxalifətin konsolidasiyasına nail olmağı və hakimiyyətlə mümkün qədər geniş cəbhədə mübarizə aparmağı özündə ehtiva edir ki, bunun üçün də ciddi maliyyə xərcləri tələb olunur.

Nəşr iddia edir ki, Kiriyenko üzərinə hər hansı konkret öhdəlik götürməyib. Qəzet Koçaryanın Moskva ziyarətinin təfərrüatları barədə müxalif "Hayastan" blokunun deputatı Aqnessa Xamoyandan öyrənməyə çalışsa da, o, eks-prezidentin səfərlərindən xəbərsiz olduğunu bildirib.

Beləliklə, Nikol Paşinyan iqtidarının avqustun 8-də Vaşinqtonda Azərbaycanla sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında saziş layihəsini paraflaması və regionda davamlı sülhün bərqərar olmasına diqqət yetirməsi R.Koçaryanı, necə deyərlər, maskasını yerə atmağa və erməni siyasi olimpinin zirvəsinə qayıtmaq xəyallarında kimə arxalandığını açıq şəkildə ortaya qoymağa vadar edib. Ancaq Moskvada Koçaryana soyuq münasibət göstərilib. Bu səfər və göstərilən münasibət bütövlükdə Ermənistandakı revanşistlərin siyasi mənasızlığına və dəyərsizliyinə növbəti sübutdur.



Onun "uğur düsturu" adlandırdığı planın mahiyyətində, əslində, yenilik yoxdur. Burada müxalif qüvvələri bir araya gətirmək, hakimiyyətə qarşı geniş cəbhə formalaşdırmaq və bu prosesdə maliyyə imkanlarından istifadə etmək nəzərdə tutulur ki, həmin üsullar əvvəllər dəfələrlə sınaqdan keçirilib. Hər dəfə də uğursuz olub. Diqqətçəkən məqam ondan ibarətdir ki, bu "düstur"un əsası yenə də köhnə üsullara, kölgə anlaşmalarına, şəxsi əlaqələrə və pərdəarxası sövdələşmələrə dayanır.

Koçaryanın seçki öncəsi fəallaşması keçmişdə olduğu kimi, şəxsi maraqları və hakimiyyət hərisliyi ilə bağlıdır. O, ölkənin real problemlərini, xalqın sosial-iqtisadi çətinliklərini bir kənara qoyaraq yalnız siyasi revanş barədə düşünür. Onun bütün fəaliyyəti son illər cəmiyyətin inamını itirmiş köhnə elitaya ikinci nəfəs vermək cəhdindən başqa bir şey deyil. Bu isə həm ölkə daxilində, həm də xaricdə Ermənistanın bir dövlət kimi imicinə kölgə salır.

* * *

Paşinyan hökumətinin yekun sülh sazişinin imzalanmasına yönəlik addımlar atdığı, bölgədə dayanıqlı sabitliyin bərqərar olması üçün çalışdığı bir vaxtda Koçaryanın siyasi ritorikasında yenə də gərginlik, qarşıdurma və keçmişin revanşist əhvali-ruhiyyəsi ön plana çıxır. Bu, əslində, onun gələcəyə yox, keçmişə baxdığını göstərir. Yeni nəsil seçicilər isə artıq müharibə ritorikasından yorulublar və daha çox iqtisadi rifaha, təhlükəsizliyə və sabitliyə üstünlük verirlər. Koçaryanın bu uğursuz cəhdləri isə onu siyasi səhnədə daha da təcrid edir. Hətta onun seçkiqabağı təşəbbüsləri də geniş ictimai dəstək qazana bilmir. Çünki erməni cəmiyyəti Koçaryan hakimiyyəti dövründə Qarabağ məsələsinin, korrupsiyanın, oliqarxik idarəçiliyin, azad media üzərində təzyiq və seçki saxtakarlıqlarının Ermənistanın əsas problemləri olduğunu yaxşı xatırlayır.

Üstəlik, Koçaryanın qayıdış planları Ermənistanın milli maraqlarına deyil, şəxsi ambisiyalarına xidmət edir. Bu, onun hələ də özünü cəmiyyətin ehtiyacları ilə eyni xəttə qoya bilmədiyini göstərir. Onun bugünkü fəaliyyəti də keçmişdən miras qalmış köhnə "klan idarəçiliyi" modelinin yenidən dirçəldilməsi cəhdidir ki, bu da seçicilərin böyük əksəriyyəti tərəfindən qəbul edilmir. Beləliklə, Koçaryanın parlament seçkiləri ərəfəsində apardığı "kölgə diplomatiyası" və gizli görüşləri əslində, onun siyasi zəifliyini və cəmiyyət arasında nüfuzunun azalmasını nümayiş etdirir. O, bu gün nə qədər çalışsa da, keçmişin yükü və ictimai etimadsızlıq onun qarşısında əsas maneə kimi dayanır. Ermənistan seçicisi artıq köhnə üsulların təkrarını istəmir və dəyişən dövrün çağırışları qarşısında Koçaryan kimi köhnə fiqurlar üçün siyasi gələcək qapıları tədricən bağlanır.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi

**Rizvan HÜSEYNOV,**
**siyasi şərhçi**



Ermənistanda parlament seçkiləri yaxınlaşdıqca, keçmişin qalığı olan fiqurlar yenidən aktivləşirlər. Bu fiqurlar arasında ən çox gözəçarpan, sözsüz ki, Robert Koçaryandır. Erməni xalqı onu siyasi səhnədən süpürüb atsa da, bu adam yenə də xam xəyallarla geri qayıtmağı arzulayır. İndiki şəraitdə bu cəhd daha çox keçmişdən qalma ambisiyaların, şəxsi intiqam hissinin təzahürü kimi görünür. Çünki Koçaryan cəmiyyətə yeni proqram, konkret sosial-iqtisadi konsepsiya təqdim etmək əvəzinə, hələ də köhnə, mənasız "birləşmə" şüarına arxalanır. Onun seçkiqabağı planı faktiki olaraq yalnız hakimiyyətə qarşı narazılıq dalğasından yararlanmaq, müxalif qüvvələri bir masa arxasında toplamaqdan ibarətdir. Bu isə ictimaiyyətdə maraq doğurmur, çünki seçicilər təkcə kiminsə devrilməsini deyil, gələcək inkişaf üçün real təkliflər eşitmək istəyir.

Ermənistanın indiki seçicisi 20-25 il əvvəlki elektorat deyil. Orta nəsil Koçaryan dövrünün sərt idarəçiliyini, mətbuatın boğulmasını, seçki saxtakarlıqlarını yaxşı xatırlayır. Buna görə də onun populist çıxışları artıq əvvəlki kimi təsirli səslənmir. Reallıq ondan ibarətdir ki, keçmişin lideri bugünkü siyasi şərtlərə uyğunlaşa bilmir və yeni dövrün çağırışlarını anlamır. Digər tərəfdən, Koçaryanın son həftələrdə apardığı qapalı danışıqlar, pərdəarxası razılaşma cəhdləri onun yenə də köhnə üsullardan əl çəkmədiyini göstərir. O, siyasi mübarizəni açıq debat meydanında deyil, kölgə anlaşmaları ilə qazanmağa çalışır. Lakin bu yanaşma artıq zamanın ruhuna ziddir və cəmiyyətin gözündə etimadsızlıq yaradır.

Paşinyan hökumətinin sülh təşəbbüslərinə yönəlik addımlar atdığı bir vaxtda Koçaryanın sərgilədiyi ritorika revanşist ovqatı gücləndirir. Bu isə həm regionda sabitliyə, həm də ölkənin daxili konsolidasiyasına zərbə vurur. Seçici üçün bu, keçmişə dönüşün rəmzidir və seçki mübarizəsində Koçaryana əlavə mənfi xal qazandırır. Nəticə etibarilə Koçaryan hakimiyyətə dönüş arzusu ilə siyasi arenaya qayıtmağa cəhd etsə də, onun bugünkü imici və strategiyası seçicilərin gözləntilərinə cavab vermir. O, özündə nə ideya yeniliyi, nə də dövlət idarəçiliyinə yeni nəfəs gətirə biləcək konsepsiya təqdim edir. Bu səbəbdən də onun revanş oyunu başlayandan əvvəl iflasa məhkum görünür.

# Prezident İlham Əliyevin yeni konseptual tezisləri



## II MƏQALƏ

### Qalibiyyət fəlsəfəsi: üstün olmaqla təcavüzkarlığın fərqi

Hərb meydanında qalib gəlmək (və ya üstün olmaq) sözün geniş, həqiqi mənasında hələ müharibəni udmaq demək deyildir. Bunun üçün, ümumiyyətlə, "müharibə paradiqmasını", qarşı tərəfə aqressivliyi hərbi üstünlükdən sonra "udmaq" lazım gəlir. Dünya təcrübəsi göstərir ki, ikinci mərhələ adlandırdığımız bu məqam reallaşmayanda gec və ya tez tərəflər yenidən hərb meydanına qayıdırlar. Bunun dünya miqyasında bariz sübutu I Dünya müharibəsindən sonra II Dünya müharibəsinin olması və indi isə müxtəlif kontekstlərdə III Dünya müharibəsindən bəhs edilməsidir. Əgər I Dünya müharibəsində hərbi üstünlüyü olanlar müharibə paradiqmasını beyinlərindən təmizləsə və aqressivlikdən imtina etsəydilər, II Dünya müharibəsi olmazdı.

Deməli, silahların susması hələ əsl mənada müharibəni paradiqma səviyyəsində "udmaq" demək deyildir. İkinci mərhələ bu anlamda çox əhəmiyyətlidir – hərbi üstünlüyü olan tərəf qələbədən sonra özünü necə aparacaq! Bu məqamda "hərbi üstünlük", yəni döyüş meydanında silahla qalib gəlməklə, ümumiyyətlə, "aqressiv olmaq, dava-dalaşa davam etmək hissinə qapılmaq" arasında məna və məqsəd fərqinin fəlsəfəsi aktuallaşır.

### Silahlar susandan sonra: paradiqmal uğur

Burada "paradiqmal" termini siyasi liderin hərbi savaşdan sonra qarşı tərəfə olan siyasətində mərkəzi yeri tutan, onun nüvəsini təşkil edən dəyərlərin kompleksini ifadə edir. Onu şərti olaraq "sülhsevərlik" və "təcavüzkarlıq" kimi iki qrupa ayırmaq mümkündür. Yəni hərbi toqquşmadan üstün çıxmış tərəfin qarşı tərəfə müharibədən sonrakı dönəmdə siyasətinin başlıca qayəsini sülhyaratmağın, yaxud təcavüzə təcavüz fəlsəfəsi ilə yanaşmağın təşkil etməsindən çox şey asılıdır. Bu anlamda ikinci məqam strateji kontekstdə bütövlükdə dövlətin müharibə paradiqmasının təsiri altında qalıb-qalmamaq məsələsini müəyyən edir. Əgər hərbi cəhətdən üstün olan dövlət müharibə paradiqmasında qalacaqsa, onda stratejidə bütövlükdə "müharibəyə" uduzmuşdur və deməli, "müharibəni uduzmuşdur"! Sülh, təhlükəsizlik, əməkdaşlıq paradiqmasını seçən hərbi qalib isə stratejidə həm bütövlükdə savaşı, həm də müharibəni udmuş olur. Bu yerdə "savaş" anlayışının məzmununa diqqət etmək lazımdır.

Vurğuladığımız kontekstdə "savaş" dövlətin, xalqın, cəmiyyətin və onun liderinin "ideya davasını" ifadə edir. Yəni lider başda olmaqla toplum və onun dövləti hansı ideya və ya ideal uğrunda hərb meydanına atılmışdır?

Öncəki məqalədə vurğuladığımız "Azərbaycan Vətən müharibəsinə yeni tam pozitiv anlam vermişdir" tezisinin intellektual və nəzəri idrakı potensialının gücü bu suala cavabdan qaynaqlanır. Azərbaycan lideri müharibədən öncəki dönəmdə (müharibədən öncəki dönəm savaşdan öncəki dönəm deyildir, əksinə onun tərkib hissəsidir), ideya və məfkurədə qarşı tərəfə qalib gəlmişdi! Hərb meydanı həmin qalibiyyətin müharibə meydanında təsdiqi və ya əyaniləşməsi oldu.

Yığcam və ümumi şəkildə sonuncu tezisi belə formula edə bilərik: İlham Əliyev müharibədən öncə təcavüzkarlığa paradiqmal, yəni ideya və məfkurə səviyyəsində qalib gəlmişdi! Azərbaycan liderinin məqsədi müharibəni udmaqla qarşı tərəfə daha çox ziyan vurmaq və bu mənada müharibə paradiqmasında qalaraq aqressiv mövqe tutmaq deyildi, sülhü qazanmaq idi! Buradan Prezident İlham Əliyevin yeni tarixi tezisinə məntiqi keçid vardır.

### Hərbi üstünlüyü sülhə çevirmək məharəti

Prezident İlham Əliyev bu məqamı aşağıdakı kimi lakonik ifadə etmişdir: "Biz həm müharibəni udduq, həm də sülhü qazandıq". Qəbul edək ki, həm məntiq, həm də məzmunca möhtəşəm müddəadır (kəlamdır)! Son 200 illik tarixdə müharibə ilə sülhü bu formada kimsə müqayisə etməmişdir (bilmədiyim fakt ola bilər).

Ancaq əsas məsələ heyrəti ifadə etmək deyildir, Prezidentin kəlamının fəlsəfi və siyasi-nəzəri dərkidir. Çünki bu kəlam müasir Azərbaycan dövlətçiliyi tarixində mükəmməl ruhsal, siyasi, mənəvi-əxlaqi və məntiqi məqamı ifadə edir! Yüzillərlə zülmünə tuş gəlmiş düşməni, hərb meydanında darmadağın edərək bütövlükdə müharibədə udmaqla, ona da sülh qazandırmaq şansını tanımaq adi davranış deyildir!

Prezident İlham Əliyev bu barədə dəfələrlə çox müxtəlif tədbirlərdə və fərqli siyasi kontekstlərdə bəhs etmişdir. BMT-nin yüksək tribunasından isə onu konseptual kəlam səviyyəsində bəyan etmək ayrıca siyasi liderlik məharətidir! Bununla Prezident İlham Əliyev dünyanın ən güclüləri kimi özlərini təqdim edən dövlətlər də daxil olmaqla, hər kəsə mesaj vermişdir.

Birincisi, Azərbaycanın hərb meydanında qalib olmasının bütün Avrasiya üçün tarixi hadisə olaraq qəbul edilməsi təsadüfi deyildir. Çünki bu olay öncədən bütün ideya və hərbi incəliklərinə qədər paradiqmal işlənmiş prosesin reallaşmasıdır. Burada "paradiqmallıq"da yeni məna çaları unudulmamalıdır, yəni Azərbaycan rəhbərliyi ümumi paradiqmal səviyyədə qələbə fəlsəfəsini hazırlamışdı və onun konkret detalları müharibə gedişində aydın olacaqdı. Bu da müəyyən risk daşıyırdı.

Deməli, paradiqmal hazırlanmaq öncədən risklər və qeyri-müəyyənliklər də daxil olmaqla prosesin maksimum tam dinamikasının modelini formalaşdırmaq deməkdir. Bu hazırlıq sayəsində Azərbaycan Prezidenti müharibənin gedişində çevik və uğurlu qərarlar qəbul edə bilmişdir. Nəticədə ən az itki ilə böyük qələbə əldə edildi!

Bu bağlılıqda Prezident İlham Əliyevin 2024-cü ilin fevralında prezident seçkisi ilə bağlı təşkil edilmiş Andiçmə mərasimindəki nitqində bəyan etdiyi aşağıdakı fikirlər çox əlamətdardır: "Hər bir addımımızın məntiqi mənası var idi, hər bir addım əvvəlki addımın məntiqi davamı idi, istər Laçın-Xankəndi yolu ilə əlaqədar, istər antiterror əməliyyatının keçirilməsi ilə əlaqədar. Mən digər addımları da qeyd etməliyəm, o cümlədən Azərbaycan və Ermənistan şərti sərhədində baş vermiş hadisələr, hesab edirəm ki, bax bugünkü reallığın əldə edilməsi üçün çox önəmli rol oynamışdı. Ola bilər, o vaxt bəziləri obyektiv səbəblərə görə bunu tam dərk edə bilmirdi, ancaq bu gün keçmişə baxdıqda hər kəs görür ki, bir dənə də olsun addımımız situativ xarakter daşımırdı, avantüra xarakteri daşımırdı və mənasız deyildi. Biz, ümumiyyətlə, heç vaxt mənasız addımlar atmırıq, atmamışıq və atmayacağıq. Bu gün hansı addımlar atılırsa, o addımların hədəfə doğru getmək üçün böyük mənası var".

İkincisi, öncədən dəqiq ideya və məfkurə müəyyənliyi hərbi üstünlükdən qətiyyətlə sülhyaratma prosesinə keçid etmək imkanı yaratmışdır. Bu mərhələdə Azərbaycanın sülhsevərliyini təsdiq edən faktor Ermənistanla münasibətlərin normallaşması üçün müəyyən edilmiş beş baza prinsipin mahiyyəti ilə bağlıdır. Belə ki, həmin prinsiplər BMT-nin Nizamnaməsində müstəqil dövlətlərin münasibətlərinin hüquqi tənzimlənməsinə aid olan şərtlərə tamamilə uyğundur. Qarşılaşdığı haqsızlıq, ədalətsizlik, müxtəlif fobiyalara baxmayaraq, Azərbaycan rəhbərliyi ədaləti ədalətsizlik yolu ilə bərpa etmədi. Ulu öndərin məşhur tövsiyəsi olan "ədaləti ədalətsizliklə təmin etmək olmaz" kəlamına əməl olundu!

Üçüncüsü, Azərbaycan lideri ən çətin anlarda belə mövqeyini zərrə qədər də dəyişmədi. Avropa İttifaqının və xüsusilə Fransanın, bütövlükdə Qərbin aparıcı dövlətlərinin əngəl kimi qarşımıza çıxardığı bütün hiyləgər maneələri İlham Əliyev tərəddüd etmədən aşdı. Sübut etdi ki, sülhə nail olmaq, birincisi, Azərbaycanın dövləti məqsədidir, ikincisi, bunun üçün Bakının özünün aydın, sivil və hüquqi paradiqması mövcuddur. Yəni sülhyaratmaq Azərbaycan üçün prinsipial dövlət mövqeyidir. Ondan kənara çıxmaq mümkün deyildir. Azərbaycanı haqlı edən əsas amil isə BMT-nin beynəlxalq hüquqa əsaslanan prinsipləri çərçivəsində sülhə nail olmaq istəyi ilə bağlı idi. Vaşinqton razılaşmasının kökündə bu reallıq dayanır. Azərbaycan Ermənistanı və havadarlarını sülhə məcbur etdi!

İlham Əliyev bu nailiyyəti də incə diplomatik məharəti ilə BMT-də ifadə etmişdir. Dövlət başçısı aşağıdakı tezisi xüsusi vurğulamışdır: "Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur".

Beynəlxalq hüququn mütləq üstünlüyü Azərbaycanın hərbi üstünlüyü üzərində bərqərar olan faktdır. Bu, maraqlı tərzdə müharibəni udmaqla sülhü necə qazanmağın fəlsəfəsində mühüm yer tutur. Onun üzərində ayrıca dayanmağa böyük ehtiyac vardır. Lakin bundan öncə, beynəlxalq hüququn mütləq üstünlüyünə nail olmaqda xüsusi yeri və rolu olan başqa bir tezisi təhlil etmək gərəkdir. Həmin müddəanı da Prezident İlham Əliyev BMT-də bəyan etmişdir.

### "İşğala son qoyduq və bərpa işlərinə başladıq"

İlham Əliyev BMT-dəki nitqində mesaj verdi ki, Azərbaycan rəhbərliyi və dövləti işğala son qoymaqla arxayınlaşmadı. Əksinə, qarşıda duran yeni vəzifələrin uğurla yerinə yetirilməsi üçün sistemli və davamlı addımlarını atmaqdadır. Andiçmə mərasimindəki nitqi zamanı dövlət başçısı vurğulamışdı: "Təbii ki, yeni dövrə qədəm qoyarkən böyük ümidlərlə yaşayırıq. Əminəm ki, bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və biz, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun". Vətən müharibəsindən dərhal sonra Qarabağda bərpa işlərinə başlamaq bu baxımdan çox vacib məqamdır. Bununla Azərbaycan dövləti dünyaya nəyi demişdir?

Hər şeydən öncə, Qarabağa əsl sahiblərinin qayıtdığının mesajı verilmişdir. Ermənistan 30 ildən çox müddətdə həmin yerləri dağıtmış və təbiəti də vəhşicəsinə çirkləndirmişdir. Çünki Qarabağ Ermənistan deyil. Azərbaycan isə hərbi qələbəni sürətlə bərpa işlərindəki uğurlarla daha da zənginləşdirdi və humanitarlaşdırdı. Bərpa işlərinin xüsusi vurğulanması bu səbəblərdən böyük siyasi və geosiyasi anlama malikdir.

Digər məsələ Azərbaycanın müharibəni udmasından hansı nəticə çıxarması ilə bağlıdır. Bakı qələbədən sonra əsas olaraq azad etdiyi doğma torpaqlarında quruculuq işlərinə üstünlük verməklə sülhsevərlik və beynəlxalq hüquqa üstünlük verdiyini ifadə etmişdir. Hərbi qələbədən sonra birbaşa bərpa işlərinə başlamaq geniş anlamda sülhə və əməkdaşlığa istiqamətlənmək deməkdir.

Nəhayət, işğala son qoymaqla bərpa işlərinə başlamağın fəlsəfəsində azad edilmiş ərazinin beynəlxalq miqyasda təşviqi kontekstində mühüm yer tutur. Prezident İlham Əliyev bir çox dövlət rəhbərlərini Qarabağa dəvət etməklə müharibədən bərpaya keçidin əhəmiyyətini, mənasını və konkret nəticələrini təqdim etmişdir. Hazırda Qarabağda dalbadal müxtəlif əhəmiyyətli beynəlxalq tədbirlərin keçirilməsi bu fəaliyyətin məntiqi nəticəsidir. İndi müxtəlif ölkələri təmsil edən on minlərlə insan təsdiq edə bilir ki, Azərbaycan rəhbərliyi Qarabağda quruculuq işlərini yüksək sürətlə aparır və həmin ərazi ermənilərin yaratdıqları xarabalıqlardan cənnətə çevrilir.

Deməli, işğala son qoymağın dövlətçiliyə, cəmiyyətin inkişafına və insan kapitalına böyük faydasını dünya ictimaiyyəti Qarabağın timsalında aydın görmüşdür. Bu da dolayısı ilə sülhü, hüququ, tarixi ədaləti və müstəqil olmağı təşviq edən güclü vasitədir! Azərbaycan Prezidenti bu həqiqəti BMT-də bəyan etmişdir!

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Son vaxtlar Avropa İttifaqının (Aİ) maliyyə və inzibati sistemində vergi və gömrük fırıldaqları müşahidə olunmaqdadır. Bu cür qanunsuz əməllər iqtisadi itkilərlə nəticələnməklə yanaşı, dövlətlərin vətəndaş qarşısında etibarını, hüquqi sistemin dayanıqlılığını ciddi sınağa çəkir. Aİ-nin baş prokuroru Laura Kövesi deyib ki, bu cinayətlər hazırda ittifaq daxilində ən gəlirli fəaliyyətlərdən birinə çevrilib və onların qarşısının alınması siyasi-sosial prioritetdir: "Əgər Avropa genişmiqyaslı qanunsuzluq qarşısında sərt tədbirlər görməsə, dövlətlərarası həmrəylik və iqtisadi sabitlik ciddi şəkildə zədələnəcək. Avropa hər il təqribən vergi və gömrük fırıldaqları səbəbindən 50 milyard avro itirir".**

# Avropa üçün gizli təhlükə: XXI əsrin "vergi cəngavərləri"

## *Hər il milyardlarla avro fırıldaqçı şəbəkələrin qara dəliklərində yoxa çıxır*

50 milyard avro Aİ-nin illik büdcəsinin əhəmiyyətli hissəsinə bərabər məbləğdir. Şübhəsiz, bu itki təhsil, səhiyyə, infrastruktur kimi əsas sahələrə ayrılan maliyyənin azalmasına səbəb olur. Kövesinin çıxış etdiyi məkan da diqqət çəkir. Onun narahatlığını Afinanın Pire limanında dilə gətirməsi buranın Avropanın son illər üzləşdiyi genişmiqyaslı fırıldaqlardan birinə ev sahibliyi etdiyini bir daha təsdiqləyir. Baş prokuror jurnalistlər qarşısında açıq şəkildə bildirib: "Biz bu nəhəng fırıldaqların arxasında duran cinayətkarlara güclü mesaj göndəririk: oyunun qaydaları dəyişib, artıq sizin üçün təhlükəsiz liman yoxdur! Biz avropalılar kimi birgə mübarizə aparmalıyıq". Kövesinin bəyanatı cinayətkar şəbəkələrlə mübarizədə yeni mərhələnin başlanğıcına işarədir.



Aİ Baş Prokurorluğunun (EPPO) son illər həyata keçirdiyi istintaqlardan ən səs-küylüsü "Calypso" əməliyyatı olub. Əməliyyat Çindən Avropaya gətirilən malların dəyərinin saxtalaşdırılması və gömrük vergilərindən yayınma sxemlərinin ifşası ilə yadda qalıb. İstintaq göstərib ki, cinayətkar şəbəkələr malların qiymətini bilərəkdən aşağı salır, yaxud məhsulun kateqoriyasını dəyişdirərək gömrük rüsumlarını minimuma endirir. Mallar Pire limanından Avropanın müxtəlif ölkələrinə yönəldilir, sənədlər saxtalaşdırılır, bəzən daşımadan sonra məhv edilir. Bu sxem dövlət strukturlarının daxilindəki korrupsiya ilə bağlıdır. Araşdırmalar nəticəsində iki gömrük əməkdaşının bu şəbəkələrə yardım etdiyi sübuta yetirilib. "Calypso" əməliyyatı çərçivəsində 101-dən çox axtarış keçirilib, onlarla şübhəli saxlanılıb, milyonlarla avro dəyərində pul, bahalı əşyalar, daşınmaz əmlak və nəqliyyat vasitələri müsadirə olunub. Pire limanında 2 435 konteynerin ələ keçirilməsi Aİ tarixində ən böyük müsadirə kimi yadda qalıb. Bu konteynerlərin ümumi dəyəri təxminən 250 milyon avrodur. İstintaqın gəldiyi ilkin nəticələrə görə, 2017-ci ildən etibarən təxminən 800 milyon avro dəyərində vergi və gömrük rüsumu itirilib. Maraqlıdır ki, müsadirə edilən mallar arasında minlərlə elektrikli velosiped, skuter və müxtəlif elektron məhsullar da var. Bu isə bir daha göstərir ki, cinayətkar şəbəkələr bahalı olmayan məhsulları da saxtalaşdırılmış sənədlərlə bazara çıxarmağı üstün tuturlar. Məsələ yalnız gömrük fırıldaqları ilə yekunlaşmır. EPPO-nun son illər apardığı istintaqlar Pire limanında korrupsiyanın hələ də tam aradan qalxmadığını üzə çıxarıb. 2009–2018-ci illərdə ölkəni dərin borc böhranına sürükləmiş səbəblərdən biri məhz sistemli korrupsiya idi. İndi də kənd təsərrüfatı subsidiyalarının mənimsənilməsi, dövlət vəsaitlərinin saxta layihələrə yönəldilməsi kimi hallar ortaya çıxır. EPPO-nun açıqladığı bəzi işlər mərkəz-sağ hökumətin reytinqinə mənfi təsir göstərib. Çünki ictimaiyyət korrupsiya xəbərlərinə son dərəcə həssas yanaşır və bu cür halları dövlətin zəifliyi kimi qəbul edir. Aİ Baş prokuroru Kövesi Yunanıstana səfəri zamanı deyib ki, EPPO-nun effektiv fəaliyyəti üçün daha çox resurs və prokuror lazımdır. O, həmçinin Yunanıstan qanunvericiliyində siyasətçiləri cinayət təqibindən qoruyan maddələrin dəyişdirilməsini tələb edib və toxunulmazlıq qanunlarının istintaqlara mane olduğunu bildirib. Hazırda EPPO iki işi Yunanıstan parlamentinə göndərib, çünki yalnız parlament nazirlər barədə araşdırma apara bilər. İşlərdən biri 2023-cü ildə baş vermiş dəhşətli dəmir yolu qəzası ilə bağlı, digəri isə fermerlərin 2019-cu ildən bəri Avropa İttifaqından otlaq sahələri üçün subsidiya vəsaitlərini mənimsəməsi şübhələri ilə əlaqəlidir.

Avropanın üzləşdiyi bu vəziyyət bir neçə təhlükəni açıq göstərir. Əvvəla, hər il milyardlarla avronun itirilməsi dövlətlərin sosial layihələrini zəiflədir. İkincisi, bu hallar qanuni fəaliyyət göstərən sahibkarlar üçün ədalətsiz rəqabət mühiti yaradır, çünki onlar vergi və gömrük ödəyərkən cinayətkar şəbəkələr daha ucuz qiymətlərlə bazara daxil olurlar. Üçüncüsü, korrupsiya və fırıldaqlar dövlətə inamı sarsıdır, populizmin güclənməsinə zəmin yaradır. Siyasi toxunulmazlıq mexanizmləri istintaqı zəiflədir və hüquqi dövlət prinsipini sual altına alır. Bütün bunlar göstərir ki, Avropa qarşısında dərin islahatlar çağırışı durur. Gömrük və vergi qanunlarının sərtləşdirilməsi, siyasətçilərin toxunulmazlıq hüququnun məhdudlaşdırılması, EPPO və digər prokurorluqların resurslarının artırılması vacibdir. Həmçinin beynəlxalq əməkdaşlıq olmadan bu şəbəkələrə qarşı mübarizə mümkün deyil. "Calypso" əməliyyatında Avropa Fırıldaqçılıqla Mübarizə İdarəsi (OLAF) və Avropa Polis Xidmətinin (Europol) iştirakı buna yaxşı nümunədir.

Sonda onu da qeyd edək ki, Baş prokuror Kövesinin "oyunun qaydaları dəyişib" mesajı həm də dövlətlərə ünvanlanmış çağırışdır. Qanunların gücləndirilməsi, resursların artırılması, ictimai nəzarətin genişləndirilməsi olmadan mübarizənin uğurla nəticələnməsi mümkün deyil. Əks halda, zərərin miqyası daha da böyüyəcək.

***Nəzrin ELDARQIZI***
***XQ***

### Ekspert rəyi



**Xəyal BƏŞİROV,**
**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin sədri**

Avropa hər il vergi və gömrük fırıldaqları səbəbindən təxminən 50 milyard avro itirir. Bu, xüsusilə Çinlə Avropa arasındakı ticarətdə öz əksini tapır. Çin bütün dünyaya, xüsusilə Avropa İttifaqı ölkələrinə ən çox mal ixrac edən dövlətdir. Məsələn, 2024-cü ildə Çinlə Aİ arasında ticarət dövriyyəsi təxminən 750 milyard avro olub. Dövriyyənin 520 milyard avrosu Çindən Avropaya mal ixracını təşkil edib, qalan hissəsi isə Avropadan Çinə daşınan malların payına düşüb. Buradan görünür ki, Çin Avropaya daha çox mal ixrac edir və bu, ticarətin əhəmiyyətli hissəsini təşkil edir.

Son illər Avropada idxal olunan malların dəyərinin düzgün qeyd olunmasına və vergilərin, gömrük ödənişlərinin dəqiq hesablanmasına yönəlmiş əməliyyatlar həyata keçirilib. Bu tədbirlər əsasən ticarət proseslərinin şəffaflığını təmin etmək məqsədi daşıyır. "Calypso" əməliyyatı da bu kontekstdə reallaşdırılıb. Avropa ölkələri idxal olunan mallara nəzarəti gücləndirir, kateqoriyaların düzgün müəyyənləşdirilməsinə diqqət yetirir və bəzi hallarda ticarət həcmini daha effektiv idarə etməyə çalışırlar.

Qeyd etmək lazımdır ki, illik 50 milyard avroluq vergi və gömrük fərqləri yalnız Çinə aid deyil, amma onun ticarət həcmi bu rəqəmlərdə mühüm rol oynayır. Bu məlumatlar təsadüfi deyil. Gələcəkdə Avropa idxal olunan mallara və ticarət proseslərinə daha ciddi nəzarət edəcək və bu istiqamətdə əlavə addımlar atacaq. Çin iqtisadiyyatı isə sürətlə inkişaf edir və bu, həm Avropa, həm də digər iqtisadi tərəfdaşlar üçün maraqlı perspektivlər yaradır. Bu baxımdan, gələcəkdə Qərb ölkələrinin itkilərin qarşısını almaq məqsədilə daha sistemli və effektiv addımlar atacağı gözlənilir.

*Konstitusiya islahatları – 2016*

# Siyasi sistemin möhkəmləndirilməsi və vitse-prezidentlik institutu

## *Keçilmiş 9 illik yolun nəticələrinə tarixi baxış*

- Konstitusiya islahatları nəticəsində siyasi sistemin möhkəmləndirilməsi, yaradılmış vitse-prezidentlik institutu ən gərgin və həlledici tarixi mərhələdə siyasi sistemin dayanıqlılığına əvəzolunmaz töhfə verdi;

- 2016-cı il Konstitusiya islahatları qlobal və regional gərginliklər dalğasının vura biləcəyi zərbələrin qarşısını almaq üçün siyasi sistemi möhkəmləndirmək zərurətindən meydana çıxmışdı;

- Qlobal təkanların regiona təsirlərinin 1) ölkələrin daxilində sabitliyin pozulması, 2) regional münaqişələrin oyadılması vasitəsilə olacağı proqnozlaşdırılırdı. Son 10 ilin prosesləri proqnozların doğruluğunu sübut etdi;

- İki və ya çoxqütblü dünya regional münaqişələrin yenidən alovlanmasına zəmin yaratdı, 2019-2024-cü illərdə dünyada dövlət çevrilişlərinin sayı və intensivliyi artaraq, 1945-ci ildən sonra dövlət çevrilişlərinin ən intensiv olduğu 1960-1970-ci illərin səviyyəsinə yaxınlaşdı.

* * *



2016-cı ilin Konstitusiya islahatlarından 9 il keçib. 9 il tam yuvarlaq tarix olmasa da, təsir dairəsi etibarilə geniş və mahiyyətcə dərin bir tarixi mərhələni əhatə edir: 2016-cı ilin Aprel döyüşlərindən 2025-ci il Vaşinqton sammiti və Minsk qrupunun ləğvinə qədər.

Bu 9 il ərzində Azərbaycan öz tarixinin ən gərgin dövrlərindən keçdi:

• pandemiya təhlükəsini dəf etdi;

• İkinci Qarabağ müharibəsini qələbə ilə başa çatdırdı;

• antiterror əməliyyatını tamamladı;

• regionda geosiyasi şərtləri dəyişdirdi;

• beynəlxalq arenaya yeni statusla çıxdı.

Nəhayət, Vaşinqton sammitində sənədlərin imzalanması və Minsk qrupunun ləğvi ilə bütöv bir tarixi dövr yekunlaşmış oldu.

Bu 9 ilin təhdidlərinin aradan qaldırılmasında və imkanların maksimum dərəcədə istifadə edilməsində Konstitusiya islahatı nəticəsində siyasi sistemə edilmiş dəyişikliklərin rolu çox böyükdür. Buna görə də keçmiş 9 ili əldə olunan nəticələrə əsaslanaraq qiymətləndirmək doğru olardı.

**Qlobal və regional sarsıntılara hazırlıq: siyasi sistemin möhkəmləndirilməsi**

2016-cı ilin aprel ayında Azərbaycan 1994-cü ildən, Horadiz əməliyyatından 22 il sonra, ilk dəfə Ermənistan işğalçı ordusuna qarşı döyüşə daxil oldu və:

• düşmənin zəif və güclü tərəflərini real döyüş şəraitində müəyyən etdi;

• düşməni məğlub edərək psixoloji üstünlük qazandı və bu Ermənistanın daxilində siyasi böhrana səbəb oldu.

2016-cı ildən etibarən Cənubi Qafqaz bütövlükdə genişmiqyaslı hərbi və siyasi dəyişikliklər mərhələsinə daxil oldu və 9 illik "təhlükəli turbulent" dövrünü 2025-ci il avqust ayının 8-də Vaşinqton sammitində sülh müqaviləsini paraflamaqla və Tramp marşrutu – Zəngəzur dəhlizinə dair razılaşma ilə tamamladı.

Bu tarixi dövr həm qlobal, həm də regional səviyyədə sarsıntılarla "zəngin" idi. Dünya dərin dəyişikliklər mərhələsində idi.

2008-2011-ci illərdə qlobal səviyyəli iqtisadi-maliyyə böhranı zamanı dünya arenasına yeni qlobal gücün – Çinin çıxması xəbərdarlıq siqnalı oldu.

Bürqütblü dünyanın lider dövlətinin borclanmadan yaranmış böhranı bütün dünyanı sarsıtmış, birqütblü dünyanın sona çatmasının birinci şokedici təzahürü kimi meydana çıxmışdı.

Bundan sonra hər şey domino effekti prinsipi üzrə davam etməyə başladı:

• Çin "Bir kəmər, bir yol" təşəbbüsü ilə qlobal iqtisadi güc mərkəzi statusunu elan etdi;

• 2014-cü ildə Krım Rusiyaya birləşdirildi;

• Almaniya NATO və ABŞ-dan uzaqlaşaraq Rusiya ilə strateji yaxınlaşmaya getdi;

• 2016-cı ilin iyununda Böyük Britaniyanın Avropa İttifaqından çıxması Avropanın parçalanmasına dair potensial ziddiyyətlərini üzə çıxardı;

• 2016-cı ilin noyabrında ABŞ-da sərt və realist iqtisadi siyasət tərəfdarı olan Donald Tramp prezident seçildi.

Beləliklə, bütün daşlar yerindən tərpəndi. İkiqütblü dünyanın ağrıları görünməyə başladı... hələlik tarif müharibələri şəklində.

**"Birqütblü dünya"nın fəsadları və "iki və ya çoxqütblü dünya"nın təhlükələri: 1960-70-ci illərin dövlət çevrilişləri və 2020-25-ci illərlə statistik müqayisə**

Dünya "iki və ya çoxqütblülüy"ə doğru irəlilədi. Odur ki, artıq bir dəfə yaşadığımız ikiqütblülüyün tarixindən öyrənəcəyimiz və müqayisə etməli olduğumuz çox şey var. Son bir neçə ildə, elə 2025-ci ildə də strateji coğrafi əhəmiyyətə malik ölkələrdə həm də geosiyasi səbəblərdən daxili sabitliyin pozulması halları artmaqdadır: 2022-ci ilin yanvarında Qazaxıstanda, 2025-ci ilin iyununda Ermənistanda dövlət çevrilişinə cəhdlər, Serbiyada hakimiyyətin dəyişdirilməsinə cəhd, Slovakiyada kütləvi etirazların, bu ilin yanvarında Monqolustanda etirazların geosiyasi səbəblərdən qaynaqlandığı görünürdü. BMT-nin Baş katibi A.Quterreş 2021-ci ildə çevrilişlərin artmasına 3 səbəb göstərmişdi: dövlətlər arasında güclü geosiyasi parçalanma; pandemiyanın ölkələrə mənfi iqtisadi və sosial təsirləri; nəhayət, BMT TŞ-nin çevrilişlərə cavab olaraq ciddi reksiya verə bilməməsi. Göründüyü kimi, birinci səbəb olaraq geosiyasi qarşıdurma göstərilir. İkiqütblü və ya çoxqütblü dünyada kiçik və ortamiqyaslı dövlətlərdə çevrilişlərə cəhdlərin intensivləşməsi fərqli güc mərkəzlərinin bir-biri ilə geostrateji, xammal və ixracat bazarları uğrunda mübarizədə üçüncü dövlətlərin hakimiyyətlərinə təzyiqlərinin nəticəsidir. Birqütblü dünyada kiçik və orta dövlətlər lider güc mərkəzi ilə münasibətləri qura bildiyi halda, çoxqütblü dünya düzənində bütün qütblərlə eyni dərəcədə yaxşı əlaqələr qurmaq üçün resurslar kifayət etmədiyi üçün narazı qalan güc mərkəzlərindən təzyiqlərə start verilir.

Jonathan M.Powell və Clayton L.Thynenin araşdırmalarına görə, 1950-1990-cı illər ikiqütblülük dövrü dünyada intensiv münaqişələr və o zamana xas qanlı dövlət çevrilişləri ilə xarakterizə olunub. Hesablamalara görə, qeyd olunan 40 ildə dünya təxminən 457 (yaxud başqa hesablamaya görə 492) dövlət çevrilişi və çevriliş cəhdinə şahid olmuşdu. Bu hər il 10-15 çevriliş və buna cəhd deməkdir.

ABŞ və SSRİ-nin "olum, ya qalım" savaşına girdiyi 1960-1970-ci illəri əhatə edən 20 il isə dövlət çevrilişləri (həmçinin cəhdlər) və qlobal təsirli regional müharibələrin kulminasiya dövrü oldu. Bu dövrdə orta hesablama ilə ildə 20 çevriliş və çevrilişə cəhd olub. İkiqütblü dünyanın hərbi-siyasi güc qütbü olan SSRİ-nin zəifləməsi nəticəsində dövlət çevrilişləri və çevrilişə cəhdlərin sayı azalmağa başladı. 2008-2017-ci illərdə təxminən 28 çevriliş cəhdi baş verdi ki, bu da son 60 ilin ən aşağı göstəricisidir.

Lakin digər göstəricilər artmağa başladı. Birqütblü dünyada birtərəfli qaydada Küveyt, İraq, keçmiş Yuqoslaviya, Əfqanistana hərbi müdaxilələrin artması müşahidə olundu.

Ölkədaxili dəyişikliklər isə seçkilərə etiraz, vaxtından əvvəl seçkilər və aksiyalar, çəhrayı inqilablar vasitəsilə həyata keçirilirdi. Bu isə birqütblü dünyanın qüsurlarıdır.

Dünya yenidən ikiqütblülük dövrünə daxil olduqca, regional müharibələrin, dövlət çevrilişlərinin və buna cəhdlərin sayının artması müşahidə olunmaqdadır. Məsələn, University of Illinois Cline Center Coup d'État Project-ə görə, 2021-ci ildən etibarən dünyada hər il 14-16 çevriliş, çevriliş cəhdi və ya dövlət çevrilişi planı qeyd olunur. Bu rəqəm 2008-2017-ci illərlə müqayisədə çox olsa da, 1960-70-ci illərin səviyyəsinə çatmayıb. Lakin 2025-ci il hələ bitməsə də, artım tendensiyası görünür.

2020-2024-cü illərdə dövlət çevrilişləri və cəhdləri bütün regionlarda müşahidə olunsa da, ən çox, ikiqütblü dünyanın resurslar uğrunda mübarizə apardığı Afrika qitəsində qeydə alınıb.

1960-70-ci illərdə Afrikadan başqa, dövlət çevrilişləri və çevrilişə cəhdlərinin ən çox baş verdiyi qitə Latın Amerikası idi. Əgər həmin dövrdə bütün çevrilişlərin 38%-i Afrikanın payına düşürdüsə, Latın Amerikasında bu 30% təşkil edirdi.

Kənardan müdaxilələr nəticəsində ölkədaxili sabitliyin pozulmasının tarixi alqoritmlərinin təhlili göstərir ki, dünyanın ikiqütblü olduğu dövründə xammal ehtiyatları və strateji coğrafi əhəmiyyətə malik kiçik və ortamiqyaslı ölkələrin xüsusilə ehtiyatlı olması, preventiv tədbirlər üçün ciddi səbəblər var.

**Təhlükələrin qabaqcadan müəyyən edilməsi və neytrallaşdırılması**

Böyük geosiyasi savaşlara, regional konfliktlərə və daxil sabitliyin qorunmasına hazırlıq üç istiqaməti əhatə edir:

• iqtisadi və maliyyə gücünün təmin edilməsi, ehtiyatların (rezervlərin) yaradılması;

• ordunun və xüsusi xidmətlərin yüksək hazırlıq səviyyəsi;

• siyasi sistemin möhkəmləndirilməsi və onun ekstremal vəziyyətlərdə dayanıqlı vəziyyətə gətirilməsi.

Əslində isə kontekstdən asılı olaraq, siyasi sistemin möhkəmləndirilməsini prioritet hesab etmək olar. Çünki hər şey siyasi iradədən başlayır.

Təhlükələrlə və yeni imkanlarla zəngin olan tarixin bu mərhələsi, ilk növbədə, ölkə daxilində siyasi hakimiyyətin möhkəmləndirilməsini tələb edir. Çünki böyük proseslərin başlanğıcı - daxili qüvvələrin səfərbərliyindən başlayır.

Azərbaycan rəhbərliyi qlobal nizamın dəyişikliklərini vaxtında təhlil edərək "siyasi sədaqət və peşəkarlığ"ın sintezindən ibarət sistemə keçidi sürətləndirdi.

Azərbaycanda 2016-cı ildə keçirilmiş konstitusion və idarəetmə islahatları geosiyasi və strateji transformasiyalara cavab olaraq hazırlanmışdı.

Artıq bu gün, geriyə baxanda, demək olar ki, 2016-cı ilin konstitusiya islahatları Azərbaycanı genişmiqyaslı Vətən müharibəsinə və qlobal dəyişikliklərə hazırlayan, daxili siyasətə müdaxilələrin qarşısını alan strateji addım olmuşdur.

Bu islahatlar ölkənin siyasi arxitekturasını köklü şəkildə dəyişdi.

**Aprel döyüşlərindən referenduma və Vətən müharibəsinə doğru: təsadüf, yoxsa planlı ardıcıllıq?**

2016-cı ilin aprelində Ermənistanın təxribatları və Azərbaycan ordusunun uğurlu əks-hücumu - Cənubi Qafqazda qlobal dəyişikliklərin ilk siqnalı oldu. Bundan əvvəl Azərbaycan sadəcə erməni ordusunun atəşinə cavab atəşi verirdi. Lakin bu dəfə əks-hücuma keçdi. Həmin ilin sentyabrında konstitusiya islahatları üzrə referendum keçirildi:

• prezidentin səlahiyyətləri genişləndi;

• hakimiyyətin müxtəlif sahələri üzərində nəzarət gücləndirildi;

• vitse-prezident institutu yaradıldı.

O dövrdə bunu dərk etmək çətin olsa da, artıq 2016-cı ilin aprelindəki döyüşlərlə konstitusiya islahatları arasındakı strateji əlaqə aydın görünür:

• əks-hücumla hərbi-siyasi gücün yoxlanması;

• Ermənistanda siyasi vəziyyətin dəyişməsi;

• Azərbaycanda siyasi sistemin möhkəmləndirilməsi;

• və nəhayət, daha böyük hərbi konfliktə və ərazilərin azad olunmasına hazırlıq.

Qlobal dəyişikliklərin Cənubi Qafqaza iki formada təsir edəcəyi gözlənilirdi: birincisi, ölkələrdə siyasi sabitliyin pozulması; ikincisi, konfliktlərin yenidən alovlanması.

2018-ci ildə Ermənistanda növbədənkənar seçkilər və daha sonra Gürcüstana siyasi müdaxilələr göstərdi ki, birqütblü dünya nizamının köhnə alqoritmləri işləməyə başlayıb. Yalnız 2017-ci ildə, 1 il ərzində Gürcüstana ABŞ-ın vitse-prezidenti Mayk Pens, dövlət katibi Reks Tillerson və senator Con Makkeyn səfər etmişdi. Angela Merkel 2018-ci ildə Gürcüstana səfərində Rusiyanın sərhəd xəttinə qədər yaxınlaşmışdı.

Cənubi Qafqazda ikiqütblü mübarizə qızğın fazaya daxil oldu. Azərbaycanın ardınca Gürcüstan da Konstitusiyasını yenilədi və öz reallıqlarına uyğun olaraq tamamilə parlament respublikasına çevrildi. 2023-2025-ci illərdə Gürcüstanda Qərbə inteqrasiya tərəfdarları etiraz aksiyaları keçirdi.

Digər Cənubi Qafqaz ölkəsi - Ermənistanda isə 2018-ci ildən başlayaraq 7 ildir ki, pro-qərb qüvvələrlə pro-rus qüvvələri arasında mübarizə davam edir.

Bu səbəbdən ordu hazırlığı ilə yanaşı, hakimiyyətin gücləndirilməsi fonunda daxildə siyasi konsolidasiya ən vacib çağırışlardan biri olmuşdu.

Prezidentin səlahiyyətlərinin genişləndirilməsi - gələcəkdə genişmiqyaslı müharibəyə hazırlıq üçün hüquqi və siyasi bazanı təmin etdi:

• qərarların operativ qəbulunu asanlaşdırdı;

• parlament və digər institutlar üzərində nəzarəti gücləndirdi.

**Vitse-prezident institutunun yaradılması:**

• müharibə və fövqəladə vəziyyət zamanı dayanıqlı idarəetməni təmin etdi;

• Birinci vitse-prezident postuna Mehriban Əliyevanın təyinatı ekstremal vəziyyətdə yeni siyasi müdafiə xətti yaratdı;

• siyasi sistemin və hakimiyyətin dayanıqlılığını möhkəmləndirdi;

• siyasi sistemin potensial təhlükə yarada biləcək bütün sahələri nəzarət altına aldı;

• siyasi sistemə xaricdən müdaxilə planlarını apriori uğursuz etdi, onların uğursuzluq faktoruna çevrildi;

• müharibə zamanlarına xas olan siyasi riskləri minimuma endirdi.

**Siyasi islahatların nəticələri**

**Vitse-prezident institutu: siyasi müdafiənin əsas xətti və şəxsiyyətin həlledici rolu**

Əsas nəticə odur ki, ölkəmiz qlobal fırtınalar mərhələsinin bizim regiondakı təlatümlərindən uğurla keçdi və qalib çıxdı. Müharibədə iştirak edən Ali Baş Komandanın siyasi təhlükəsizliyinin təmin edilməsi, döyüşən ordunun gücü və peşəkarlığı qədər vacibdir.

Ordu - hərbi təhlükəsizliyi təmin edirsə, etibarlı siyasi komanda - siyasi təhlükəsizliyin qarantıdır.

Müharibə vəziyyətində olan ölkə üçün arxa cəbhədə siyasi təhlükəsizliyin nə qədər vacib olduğunu təsdiq edən çoxsaylı tarixi nümunələr mövcuddur.

1990-1993-cü illərdə Azərbaycanda siyasi təhlükəsizlik sahəsindəki boşluqlar nəticəsində, hökumətin dayanıqlılığını təmin etmək mümkün deyildi və nəticədə döyüş meydanında problemlər yaranırdı. Siyasi təhlükəsizlik, müvafiq hüquqi və inzibati konfiqurasiyanın yaradılmasını, siyasi sistemdə balansın təmin olunmasını və əlbəttə ki, məhz etibarlı şəxslərin təyinatını tələb edir.

Məsələn, 1756-1763-cü illərdə Yeddiillik müharibə zamanı Rusiyada saray çevrilişi və fikir ayrılıqları nəticəsində şərtlər Rusiyanın əleyhinə, Prussiyanın lehinə dəyişmişdi.

Birinci Dünya müharibəsindən də misal gətirmək olar. Siyasi rəhbərliyin zəifliyi və etibarlı silahdaşların olmaması səbəbindən Rusiyada hakimiyyət böhranı yarandı və nəticədə ölkə müharibədən məğlub çıxdı və inqilaba yuvarlandı.

Azərbaycanda siyasi sistemdə həyata keçirilən islahatlar pandemiyada, 44 günlük müharibə zamanı və sonrakı geosiyasi transformasiyalar dövründə özünü doğrultdu. Nəticədə, hakimiyyət - təşkilati, inzibati və siyasi cəhətdən bütün qəsd planlarından qorunmuş oldu.

Bu istiqamətdə prezidentlik institutunun siyasi təhlükəsizliyini təmin etmək yükü, həmçinin hakimiyyətin dayanıqlılığı və təhlükəsizliyi sahəsində əsas müdafiə xətti - vitse-prezidentlik institutunun, daha dəqiq desək, Birinci vitse-prezidentin üzərinə düşdü.

Bu məsələdə vacib amil – şəxsiyyətdir. Çünki burada həlledici faktor - ekstremal şəraitdə prezidentlik institutunun siyasi müdafiəsini üzərinə götürmüş forposta kimin rəhbərlik etməsidir.

Dövlətin ikinci şəxsi başda olmaqla, əsas hakimiyyət qolları siyasi təhdidlərdən qorumaq missiyasını da daşıyır.

**Əsas sığortalayacı dövlət institutları etibarsız olanda**

Şəxsiyyətin kimliyindən asılı olaraq, fərqli şəraitdə isə vitse-prezident institutu ciddi təhdid mənbəyinə də çevrilə bilər. Məsələn, 1991-ci ildə qlobal geosiyasi dəyişikliklər zamanı, yəni avqust çevrilişində, Mixail Qorbaçova qarşı onun siyasi komandası fəal iştirak etmişdi. Elə vitse-prezident Gennadi Yanayevin siyasi çətiri altında hüquq-mühafizə orqanları belə cəhdə getmişdi.

Digər tərəfdən, əgər 1993-cü ildə Rusiyada antikonstitusion qüvvələr Boris Yeltsinin arxasında vitse-prezident postunu tutan Aleksandr Rutskoyun durduğuna əmin olsaydılar, 3-4 oktyabr hadisələri baş verməzdi. Yəni siyasi-hüquqi çətir olmadan istənilən ölkədə destabilizasiya yaratmaq ideyası mənasızdır, məntiqsizdir və məğlubiyyətə məhkumdur. Çevrilişə cəhd edənlər isə mövcud siyasi boşluqlardan ruhlanaraq Rusiyanı uçurumun kənarına gətirdilər.

Başqa nümunə – Kamala Harrisin Joe Baydenin praymerizdə və seçki kampaniyasının başlanğıc mərhələsində uğursuzluğa məruz qalmasında maraqlı olması, komanda daxilində parçalanmaya səbəb oldu və demokratlara ictimai etimadı ciddi şəkildə zəiflətdi.

Buna görə də dövlətin ikinci postunun əsas missiyalarından biri - ekstremal vəziyyətlərdə bütövlükdə siyasi sistemi və silahdaşı olduğu ali hakimiyyəti sığorta etməkdir.

**Əsas sığortalayıcı dövlət institutları etibarlı olanda**

Beləliklə, həlledici məsələ ən etibarlı və eyni zamanda siyasi nüfuza malik şəxsin seçilməsi və təyinatıdır. Tariximizin ən həssas dövründə, başqa seçimə yol vermək mümkün deyildi və nəticədə yalnız doğru qərarlar qəbul edildi.

Mehriban Əliyevanı Birinci vitse-prezident təyin etməklə Prezident mövcud administrativ gücünü əlavə, daha bir mühüm administrativ dayaq nöqtəsi ilə təmin etdi. İndi, 9 ildən sonra görünür ki, birinci xanım həm Prezidenti, həm də ölkəni necə çətin mərhələlərdə, hansı potensial təhlükələrdən sığortalamaq üçün, nə qədər böyük riskə gedibmiş.

Gözlənildiyi kimi, birinci vitse-prezident, islahatların və xarici hücumların zərbələrini üzərinə götürərək prezidentlik institutunun siyasi təhlükəsizliyinin sığortaedici faktoru oldu. Artıq nəticələrə əsasən, demək olar ki, bu missiya ən çətin sınaqlardan uğurla çıxdı və düşünülmüş nəticələrin əldə edilməsində mühüm rol oynadı.

Əgər vitse–prezidentliyin siyasi tarixdə necə qalacağına dair sual olarsa, ona belə cavab vermək lazımdır: Vitse-prezidentlik institutunun tarixi rolu Azərbaycanın siyasi tarixinin ən həlledici dövründə siyasi sistemin gücləndirməsi, dayanıqlılığının artırılması və siyasi təhlükəsizliyə verdiyi töhfə ilə qeyd olunacaq.

Müharibə hər bir ölkənin tarixində siyasi təhdidlərə qarşı ən həssas, kövrək olduğu, hər kateqoriyadan olan düşmən elementlərin siyasi institutlara qarşı hərəkətə keçmək üçün həvəsləndiyi bir dövrdür.

Həssas dövrün təhlükələrini uğurla aşmaq, hər hansı arzuolunmaz hadisənin baş verməməsi, heç də onu planlayanların olmaması demək deyil, əksinə, onların əvvəlcədən qarşısı alınmış və islahatlar vasitəsilə istənilən cəhdin mənasız olduğu sübut edilmişdi.



Vitse-prezidentlik institutu yeni siyasi sistemdəki rolu ilə daxili sabitliyi pozmaq, ölkənin beynəlxalq və hərbi gücünü zəiflətmək cəhdlərini qabaqcadan mümkünsüz etdi. Siyasi sistemdə hakimiyyəti zəiflətmək üçün hüquqi və inzibati boşluq qalmadı.

Prezidentlik institutunun ayrılıqda gücləndirilməsi, eyni zamanda daha bir müdafiə xəttinin yaradılması antikonstitusion cəhdlərin əvvəlcədən uğursuz olacağına şübhə yeri qoymadı. Siyasi sistemin konfiqurasiyası elə quruldu ki, ekstremal vəziyyətlərdə belə dövlət institutlarından istifadə etməklə istənilən antikonstitusion planları legitimləşdirmək cəhdi mümkünsüz oldu.

2016-cı ildə həyata keçirilən Konstitusiya və idarəetmə islahatlarının əsas nəticəsi odur ki, ölkə öz tarixinin ən həlledici dövrünə – pandemiya, Vətən müharibəsi və geosiyasi transformasiyalar, daxili işlərə xaricdən müdaxilələrin intensivləşdiyi dövrə möhkəmləndirilmiş siyasi sistem, güclü komanda ilə daxil oldu, onu uğurla başa çatdırdı və missiyasını davam etdirməkdədir.

***İbrahim MƏMMƏDOV,***
***tarix üzrə fəlsəfə doktoru***

*Konstitusiya və Suverenlik İli - 2025*

# Müstəqil məhkəmə hakimiyyəti suverenliyin sütunlarından biridir

**Milli Konstitusiyamız müstəqilliyimizin hüquqi təminatı, dövlət quruculuğunun hüquqi bazası, suverenliyimiz isə dövlətimizin qüdrətinin rəmzidir. Konstitusiya dövlət hakimiyyətinin təşkili, vətəndaşların hüquq və azadlıqları, məhkəmə hakimiyyətinin müstəqilliyi prinsiplərini təsbit etməklə yanaşı, həm də suverenliyin daxili təminat mexanizmini səciyyələndirir.**

1921, 1927, 1937 və 1978-ci illərdə Azərbaycanda da sovet siyasi sisteminin və dövrün ideologiyasına uyğun konstitusiyalar qəbul olunub. Müstəqil Azərbaycanın ilk milli, demokratik Konstitusiyasının hazırlanıb qəbul edilməsi isə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1994-cü ilin iyul ayında Milli Məclisin iclasında Prezident Heydər Əliyevin sədrliyi ilə Konstitusiya layihəsini hazırlayan xüsusi komissiyanın fəaliyyətə başlaması qərara alındı. Komissiyanın birinci iclasında ulu öndər Əsas Qanunun parametrlərini müəyyən edərək dedi: "Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Bir sözlə, biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivil, dünyəvi dövlət qururuq".

Komissiya tərəfindən qısa müddətdə inkişaf etmiş demokratik ölkələrin konstitusion quruculuq təcrübəsi ətraflı öyrənildi, 1995-ci il noyabrın 12-də referendum yolu ilə Azərbaycanın ilk Milli Konstitusiyası qəbul edildi. Əsas Qanun dövlətin demokratik, hüquqi və dünyəvi əsaslar üzərində qurulmasını, hakimiyyət bölgüsü, qanunun aliliyi və insan hüquqlarının təminini təsbit etdi.

İnsan hüquq və azadlıqlarının qorunması, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi dövlət siyasətinin əsasını təşkil edir. Milli Konstitusiyamızda əksini tapan müddəaların üçdəiki hissəsi insan və vətəndaş hüquqlarının qorunması ilə bağlıdır. Ötən dövr ərzində bu ali sənədə 2002, 2009 və 2016-cı illərdə əlavə və dəyişikliklərin edilməsi, Prezident İlham Əliyevin sərəncamı ilə 18 iyun tarixinin ölkəmizdə "İnsan Hüquqları Günü" kimi təsis olunması insan hüquqlarının qorunmasının prioritetliyini əyani təsdiqləyir.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi bu sahədə atılan növbəti addımdır. Konstitusiya və suverenlik dövlətçiliyin əsas sütunlarıdır. Onların qorunması Azərbaycanın gələcəyi üçün konseptual əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin dediyi kimi, "müstəqillik ən böyük sərvətimizdir və əbədi olacaqdır".

2020-ci il sentyabrın 27-də Ermənistanın törətdiyi təxribatlara və hərbi təcavüzünə cavab olaraq başlanan 44 günlük Vətən müharibəsində Prezident İlham Əliyevin Ali Baş Komandan kimi rəhbərliyi, Azərbaycan Ordusunun rəşadəti sayəsində torpaqlarımız işğaldan azad edildi və 2023-cü ilin lokal antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu, üçrəngli Bayrağımız Qarabağda və Şərqi Zəngəzurda dalğalandı.

Prezident İlham Əliyev ölkəmizin bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq, hər il sentyabrın 20-nin "Dövlət Suverenliyi Günü" kimi qeyd edilməsi haqqında 2024-cü il sentyabrın 19-da Sərəncam imzaladı.

Müasir dövrdə sabitlik və inkişaf hüquqi institutların fəaliyyət mexanizmləri ilə sıx bağlıdır. Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması hüquqi dövlət quruculuğu prosesində məhkəmə hakimiyyətinin rolunu daha da aktuallaşdırır. Suverenlik ərazi bütövlüyünün müdafiəsi və beynəlxalq müstəvidə tanınma ilə yanaşı, həm də qanunun aliliyinə əsaslanan məhkəmə hakimiyyəti vasitəsilə reallaşır.

Hər bir demokratik dövlətdə olduğu kimi, Azərbaycanda da insan hüquq və azadlıqlarının müdafiəsində təməl rolunu məhkəmələr oynayır. Müstəqil və şəffaf məhkəmə sistemi demokratik islahatların, hüquqi dövlət quruculuğunun barometri




sayılır. Ölkəmizdə məhkəmə hakimiyyəti vətəndaşların hüquq və azadlıqlarını real mexanizmlərlə müdafiə edərək suverenliyin daxili dayaqlarını gücləndirir.

Heydər Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları nəticəsində hüquq sistemi demokratik prinsiplər əsasında yenidən quruldu, mütərəqqi qanunlar qəbul edildi, üçpilləli məhkəmə sistemi və insan hüquqlarının müdafiəsi üçün effektiv mexanizmlər formalaşdırıldı.

Ulu Öndərin hüquqi dövlət quruculuğu strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin 2006, 2010 və 2019-cu illərdə imzaladığı fərmanlar məhkəmə-hüquq sisteminin yeni mərhələyə keçməsini təmin etdi. Bu islahatlar vahid məhkəmə təcrübəsinin əlçatanlığını artırdı, peşəkarlığın yüksəldilməsi, innovativ texnologiyaların tətbiqi və ədalət mühakiməsinin çevikliyinin təmin olunması ilə davam etdirilir.

Ölkəmizin Milli Konstitusiyası suverenliyin hüquqi bazasını yaradır, məhkəmə hakimiyyəti isə bu bazanın reallaşdırıcı mexanizmi kimi çıxış edir. Hüquqi suverenliyin qorunması, insan hüquqlarının müdafiəsi və hakimiyyət qolları arasında tarazlığın təmin olunması yalnız müstəqil və səmərəli məhkəmə sistemi vasitəsilə mümkündür.

Prezidentin 3 aprel 2019-cu il tarixli Fərmanı hakimlərin müstəqilliyini gücləndirməyi, məhkəmə hakimiyyətinin nüfuzunu artırmağı və cəmiyyətin etimadını möhkəmləndirməyi hədəfləyir. Fərmanda ədalət, qərəzsizlik, qanunçuluq prinsiplərinə riayət, məhkəmələrə müdaxilənin qarşısının alınması və buna görə məsuliyyətin artırılması, Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etmələri tövsiyə edilir.

Məhkəmə hakimiyyətinin müstəqilliyinin daha səmərəli şəkildə təmin edilməsi məqsədilə beynəlxalq təcrübə, o cümlədən Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) Azərbaycanla bağlı tövsiyələri nəzərə alınmaqla Məhkəmə-Hüquq Şurasının formalaşdırılmasına dair qaydalar təkmilləşdirilib, "Məhkəmə-Hüquq Şurası haqqında" Qanuna dəyişikliklər edilərək Şuranın tərkibində icra hakimiyyəti orqanlarının nümayəndələrinin sayı azaldılmaqla, hakim üzvlərin sayı artırılmış (10 hakim üzv), habelə hüquqşünas alimin və hüquq ictimaiyyətinin nümayəndəsinin təmsil olunması təsbit edilib.

Yeni tərkibdə fəaliyyətə başlayan Məhkəmə-Hüquq Şurası tərəfindən qısa müddət ərzində hakimlərin seçim prosesinin sadələşdirilməsi, onların fəaliyyətinin qiymətləndirilməsi və digər konkret hədəflər müəyyənləşdirilib.

Ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, müraciətlərin operativ şəkildə cavablandırılması və vətəndaş məmnunluğunun artırılması məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsi, Məhkəmə-Hüquq Şurası və ölkəmizdə fəaliyyət göstərən digər məhkəmələrlə əlaqə saxlamaq üçün "Məhkəmə Çağrı Mərkəzi" istifadəyə verilib.

"Konstitusiya və Suverenlik İli" çərçivəsində məhkəmə hakimiyyətinin rolu hüquqi dövlətçilik və demokratik inkişaf prosesində əsas həlqələrindən biri kimi dəyərləndirilə bilər. Məhkəmə hakimiyyəti hüquqi dövlətin möhkəmlənməsində və demokratik inkişafda mühüm rol oynayır. Bu, həm ölkənin gələcək tərəqqisinə, həm milli kimliyin güclənməsinə, həm də hüquqi dövlət statusunun möhkəmlənməsinə ciddi töhfədir. Azərbaycan Prezidentinin məhkəmə-hüquq islahatlarına verdiyi xüsusi diqqət isə hakimləri və bütün hüquq sistemini daha məsuliyyətlə fəaliyyət göstərməyə sövq edir.

***Orxan İSMAYILOV,***
***Bakı Apellyasiya Məhkəməsinin hakimi***

# Müasir dünya və konstitusiyalar

## *ABŞ-ın "azadlıqlar sənədi"ndən "idarəetmə nizamnaməsi"nə enişin fonunda Azərbaycan modeli*

**Hazırda bir çox ölkədə "konstitusiya" anlayışı özünün klassik-liberal mənasından uzaqlaşıb. Konstitusiya təkcə dövlət orqanlarının statusunu və səlahiyyətlərini tənzimləyən mətn deyil, onun "var olma" səbəbi ("raison d'être") siyasi hakimiyyəti məhdudlaşdırmaq, ona nəzarət mexanizmləri qurmaq və insan hüquq və azadlıqlarını qorumaqdır. XVIII əsrdən bəri konstitusiya "azad xalqın əsəri", "azadlığın nişanəsi" kimi dərk olunub. Fransız Elizabet Zollerin qeyd etdiyi kimi, konstitusiya "Tanrının və monarxın bəxşişi yox, tamamilə xalqın əl əməyi və göz nurudur" və "hüquqa itaəti rəhbər tutan siyasi cəmiyyətin qurucu ali hüquqi sənədidir". Amma bu gün bir çox ölkələrdə konstitusiyaların daha çox idarəetmə nizamnaməsinə çevrildiyinin, "azadlıq qalxanı" funksiyasının arxa plana keçdiyini görürük.**

### Konstitusiyanın var olma səbəbi: məhdudiyyət və nəzarət

Konstitusiya dövlətin "qurucu aktı"dır, amma pozitiv hüquq mətninin mexaniki yığımı deyil. Liberal konstitusionalizm ənənəsi (təbii hüquq, hüquqi dövlət, məhdud hakimiyyət, hüquq və azadlıqlar) konstitusiyanı hakimiyyət üzərində məcburedici hüquqi "əyləc" kimi qavrayır. ABŞ klassik əsəri olan "Federalist №51" bunu açıq şəkildə belə ifadə edir: "İnsanlar mələk olmadığı üçün hökumətə, hökuməti idarə edənlər mələk olmadığı üçün isə qarşılıqlı nəzarət və tarazlıqlara ehtiyac var". Türk konstitusionalisti Ömər Anayurdun təbirincə, konstitusiya hüquq və azadlıqların qarantı, siyasi iqtidarın "əyləci", despotizmin "panzəhiri" olmalıdır. Məsələyə bu prizmadan baxdıqda, deyə bilərik ki, konstitusionalizm fəlsəfəsi "mütləq demokratiya" anlayışı"na qarşı çıxaraq "konstitusional demokratiya" və ya "hüquq yolu ilə demokratiya", eləcə də "hüquqi dövlət" anlayışlarını dəstəkləyir, "hakimiyyət bölgüsü" prinsipi də bu məntiqin mərkəzindədir.

### Anlam eroziyası necə baş verir?

Müəlliflərdən Zollerə görə müasir dövrdə bir çox ölkədə baş verən problem ondan ibarətdir ki, konstitusiya get-gedə "idarəetmə nizamnaməsi"nə – yəni dövlət orqanlarının statusu və prosedurlarının toplusuna – çevrilir, lakin "azadlıq qalxanı" funksiyası zəifləyir.

Bir sıra alimin fikrincə, son onilliklərdə konstitusionalizm çox vaxt açıq zorakılıqla deyil, hüquqi prosedurlar vasitəsilə aşınmaya məruz qalmışdır. ABŞ konstitusionalisti Kim Leyn Şeppelenin 2018-ci ildə "University of Chicago Law Review" jurnalında nəşr olunmuş "Avtokrativ leqalizm" ("Autocratic legalism") məqaləsində aşınma və geriləmə prosesi "qanunla demokratiyanı sökmək" kimi təsvir olunur. Onun elmi araşdırmaları əsasən, Şərqi Avropa ölkələrində, xüsusilə Macarıstan, Polşa və Rusiya kimi dövlətlərdə demokratik institutların zəiflədilməsi, hüquqi mexanizmlərdən istifadə edərək avtoritarizmin gücləndirilməsi mövzularına həsr olunub.

"Sui-istifadəçi konstitusionalizm" ("Abusive constitutionalism") məqaləsində amerikalı konstitusionalist David Landau Macarıstan, Venesuela, Misir və s. kimi ölkələrin nümunəsində konstitusiya mətnindən və prosedurlarından istifadə edilərək məhz onun liberal ruhuna zərbə vurulmasını təhlil edir: referendumlar, populist düzəlişlər, məhkəmələrin tərkibinin dəyişdirilməsi və s. ilə hüquqi çərçivə "içəridən" boşaldılır.

"Konstitusiyalı, amma konstitusionalizmsiz rejimlər"ə toxunan keniyalı tanınmış hüquqşünas Hastings Wilfred Opinya Okoth-Ogendoya gəldikdə, müəllif illər əvvəl Afrika təcrübəsindən yola çıxaraq göstərmişdi ki, mətn var, amma onu yaşadan institusional-mədəni təməl yoxdur. Bu fikir bu gün də aktualdır.

### Macarıstan və Polşa təcrübəsi

Macarıstanda 2010-cu ildən bəri yeni Fundamental Qanundan sonra Konstitusiya Məhkəməsinin səlahiyyətlərinin daraldılması haqqında ciddi araşdırmalar aparılır və çoxsaylı kitablar yazılır. Bu ölkədəki acı həqiqət onu göstərir ki, "idarəetmə nizamnaməsi" güclənir, azadlıq qalxanı zəifləyir.

Polşada 2015-ci ildən bu günədək Konstitusiya Məhkəməsinin "funksional iflic vəziyyəti"nə salınması, seçki və ədliyyə idarəçiliyi sahəsində xoşagəlməz dəyişikliklər ölkədə konstitusion geriləmə müşahidə olunduğunu açıq-aşkar göstərir.

### Qarşı-mexanizmlər: azadlıq qalxanını necə bərpa etməli?

Konstitusiyaların aşınması və zəifləməsi qaçılmaz deyil. Bu prosesin qarşısını almaq üçün bəzi nəzəri yanaşmalar və institusional mexanizmlər mövcuddur:

1. Qeyri-konstitusion konstitusiya düzəlişləri doktrinası

İsrailli alim Yaniv Roznainin fikrincə, bəzən düzəlişlər qanuni şəkildə qəbul olunsa belə, onların məzmunu konstitusiyanın mahiyyətini və ruhunu pozursa, həmin düzəliş qeyri-konstitusion hesab edilə bilər. Bu yanaşma, ən azı nəzəri baxımdan, təhlükəli dəyişikliklərə qarşı xəbərdarlıq funksiyası daşıyır.

2. Müdafiəçi (militant) demokratiya

Alman hüquqşünası Karl Löwenşteynin 1937-ci ildən müdafiə etdiyi ideyaya görə demokratiya özünü dağıtmaq istəyən qüvvələrə qarşı özünü müdafiə edə bilən mexanizmlərə sahib olmalıdır. O, nümunə kimi demokratiyanı sarsıdan fəaliyyətlərə qarşı sanksiyalar tətbiq olunmasını xüsusi olaraq vurğulayır. Bununla belə, bu alətlərdən sui-istifadə risklərini də nəzərə almaq vacibdir.

3. Məhkəmə sisteminin düzgün qurulması

Konstitusiya məhkəmələri güclü, amma, eyni zamanda, balanslı olmalıdır. Məhkəmələrin səlahiyyətləri elə tənzimlənməlidir ki, "güclü məhkəmə – zəif hüquq" paradoksu yaranmasın. Bunun üçün hakimlərin təyinatı, iş müddəti, kvorum və plüral balans kimi məsələlər əvvəlcədən düzgün tənzimlənməlidir.

4. Əsas hüquqların prioritetləşdirilməsi

Araşdırmalar göstərir ki, bəzi hüquqlar digər hüquqları qorumaq üçün həlledici rol oynayır. Məsələn, birləşmək hüququ və məlumat azadlığı demokratiyanın yaşaması üçün çox vacibdir. Bu hüquqlara xüsusi təminatlar verilməli və onların icrası üçün güclü mexanizmlər yaradılmalıdır.

### Heydər Əliyev və İlham Əliyevin mütərəqqi konstitusiya modeli

Azərbaycanın müasir konstitusiya təcrübəsi klassik konstitusionalizm prinsiplərinin qorunması və inkişaf etdirilməsi baxımından regionda nümunəvi model hesab edilə bilər. Xüsusilə, bu təcrübənin formalaşmasında Heydər Əliyev və İlham Əliyevin siyasi iradəsi və strateji yanaşması mühüm rol oynamışdır.

1995-ci ildə qəbul edilmiş ilk Milli Konstitusiya Azərbaycanın dövlətçilik tarixində tamamilə yeni bir mərhələnin əsasını qoymuşdur. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu sənəd ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilmişdir. Bu fakt konstitusiyanın məhz xalqın iradəsinə əsaslanan "azadlıqlar sənədi" olduğunu göstərir və müəlliflərdən Zollerin konstitusiya ilə bağlı klassik tərifi ilə tam səsləşir.

Heydər Əliyev Konstitusiya layihəsini təqdim edərkən demişdir: "Bizim Konstitusiyanın ən mühüm əhəmiyyəti ondan ibarət olacaqdır ki, xalqımızın tarixində ilk dəfə tamamilə sərbəst, müstəqil şəkildə yaranmış konstitusiyaya malik olacağıq".

Konstitusiyanın mühüm mütərəqqi tərəflərindən biri də onun üçdəbir hissəsinin insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunmasıdır. Konstitusiyanın 12-ci maddəsinə əsasən insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Konstitusiyada hüquq və azadlıqların beynəlxalq müqavilələrə uyğun tətbiq edilməsi, o cümlədən hüquqların birbaşa qüvvədə olması müddəalarının nəzərdə tutulması Azərbaycan təcrübəsini bir çox ölkələrdən fərqləndirən mütərəqqi cəhətlər sırasındandır. Bu yanaşma konstitusiyanın yalnız normativ mətn deyil, eyni zamanda, insan azadlıqlarının qoruyucusu funksiyasını daşıdığını göstərir.

Daha bir diqqətçəkən məqam hakimiyyət bölgüsü prinsipinin Azərbaycan Konstitusiyasında aydın və balanslı şəkildə təsbit edilməsidir. Əsas Qanunumuzda qanunverici, icra və məhkəmə hakimiyyətləri arasında qarşılıqlı nəzarət mexanizmləri nəzərdə tutulmuş, həmçinin Konstitusiya Məhkəməsinin statusu və səlahiyyətləri müəyyən olunaraq hüquqi nəzarətin ali institusional təminatı təmin edilmiş, habelə ölkəmizdə Ombudsman (İnsan Hüquqları üzrə Müvəkkil) institutu yaradılmışdır. Bütün bunlar "Federalist №51"də Madisonun vurğuladığı klassik ideyaya – "hakimiyyətin özü-özünü məhdudlaşdırması" prinsipinə tam uyğun gəlir.

Qeyd edək ki, ölkəmizdə 2002, 2009, 2016-cı illərdə keçirilən referendumlar vasitəsilə Konstitusiyaya müasir çağırışlara cavab verən dəyişikliklər olunmuşdur.

### Prezident İlham Əliyev dövründə konstitusiya islahatlarının davamı

Ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə konstitusion islahatlar dinamik şəkildə davam etmiş, bu islahatlar çərçivəsində insan hüquqlarının müdafiəsi üçün əlavə mexanizm formalaşdırılmış, hüquq-mühafizə və ədliyyə sisteminin müasirləşdirilməsi ilə vətəndaşların hüquq müdafiəsi gücləndirilmişdir. Dövlət idarəçiliyində çevikliyi artırmaq, effektivlik və şəffaflığı təmin etmək üçün idarəetmə strukturları təkmilləşdirilmişdir. İnsan hüquqları ilə bağlı beynəlxalq konvensiyalara uyğunluq artırılmış, Azərbaycan beynəlxalq insan hüquqları mexanizmlərində fəal iştirak edən dövlətə çevrilmişdir.

Azərbaycan təcrübəsi göstərir ki, konstitusiya yalnız mətn kimi deyil, fəal işləyən bir hüquqi mexanizm kimi mövcud olmalıdır. Heydər Əliyevin yaratdığı möhkəm təməl və İlham Əliyevin davam etdirdiyi inkişaf konsepsiyası nəticəsində Azərbaycan müasir dünyada konstitusionalizmin pozitiv və mütərəqqi bir modeli kimi fərqlənir. Bu model qlobal miqyasda bir çox ölkədə müşahidə olunan konstitusiya eroziyasının qarşısını almaq üçün təcrübə və nümunə rolunu oynaya bilər.

Dediklərimizi yekunlaşdırsaq, belə bir nəticəyə gəlmək olar ki, müasir dövrdə hər bir dövlət formal olaraq yazılı konstitusiyaya malikdir. Lakin ontoloji baxımdan, yəni mahiyyət etibarilə, hər bir dövlətin təəssüf ki, həqiqi mənada konstitusiyası yoxdur. Çünki bir çox ölkələrdə konstitusiyalar klassik konstitusionalizm konsepsiyasından uzaqlaşaraq "azadlıqlar sənədi" olmaqdan daha çox dövlətin statusunu tənzimləyən bir mətn səviyyəsinə enmişdir.

Bu oriyentasiya dəyişikliyi, yəni konstitusiya anlayışının eroziyası, yalnız mətnin yenilənməsi ilə aradan qaldırıla bilməz. Bunun üçün icra arxitekturasının möhkəmləndirilməsi vacibdir. Buraya müstəqil və güclü məhkəmə hakimiyyəti, azad media və məlumat azadlığı, vətəndaş cəmiyyətinin gücləndirilməsi, konstitusiya düzəlişləri üçün yüksək çətinliklər və qoruyucu mexanizmlər, həmçinin nəzarət və tarazlıq sisteminin effektiv işləməsi daxildir. Konstitusiyanın dəyəri onun hökuməti hüquq çərçivəsinə sala bilməsindədir və onu həqiqi mənada "azad xalqın əsəri" kimi yaşadan da məhz bu qabiliyyətdir.

Azərbaycanın təcrübəsi isə bir çox ölkələrdən fərqli olaraq klassik konstitusionalizm prinsiplərinə yaxın bir model kimi qiymətləndirilə bilər. 1995-ci ildə qəbul edilmiş ilk Milli Konstitusiyanın referendum yolu ilə, yəni xalqın birbaşa iradəsi ilə qəbul edilməsi onu "xalqın əsəri" statusuna qaldırmışdır. Bu sənəddə insan və vətəndaş hüquq və azadlıqlarının geniş kataloqu, birbaşa tətbiq edilə bilən hüquqlar, hakimiyyət bölgüsü prinsipi, eləcə də Konstitusiya Məhkəməsinin yaradılması kimi institutlar mütərəqqi addımlar hesab olunur. Bundan başqa, mərhələli şəkildə həyata keçirilən konstitusiya islahatları — Ombudsman institutunun yaradılması, insan hüquqlarının müdafiəsini gücləndirən yeni mexanizmlərin tətbiqi, dövlət idarəçiliyində çevikliyi artıran dəyişikliklər — ölkəmizin bu sahədəki inkişafını göstərir.

Bu baxımdan, Azərbaycan təcrübəsi göstərir ki, konstitusiyanın ruhunu qorumaq üçün yalnız mətnin mövcudluğu deyil, həm də onun arxasında duran canlı institutlar, mədəniyyət və siyasi iradə vacibdir. Bu, müasir dünyada bir çox ölkədə müşahidə olunan anlam eroziyasının qarşısını almaq üçün nümunəvi yanaşma rolunu oynaya bilər.

***Yunis XƏLİLOV,***
***Naxçıvan Dövlət Universitetinin ümumi hüquq kafedrasının müəllimi***

# Azərbaycan “Transxəzər yaşıl enerji dəhlizi” müzakirələrində

**XVI “Kazenergy” Avrasiya Forumu çərçivəsində keçirilən “Yeni enerji nizamı: fövqəl olmayan dövlətlərə önəm” mövzusunda keçirilən müzakirələrdə enerji təhlükəsizliyi, tədarükün etibarlılığı və iqlim hədəflərinin uzlaşdırılması kimi məsələlər gündəmə gətirildi.**

Forum Azərbaycanın da yaşıl enerji siyasətində yeni inteqrasiya imkanlarını ortaya qoydu. Energetika naziri Pərviz Şahbazov çıxışında ölkəmizin bərpa olunan enerji sahəsindəki strateji baxışını təqdim edərək, regional və qlobal əməkdaşlıqların, enerji dəhlizlərinin və şəbəkələrin formalaşdırılmasının Azərbaycanın yaşıl enerji platformasının əsas sütununa çevrildiyini vurğuladı.

Nazir qeyd etdi ki, Azərbaycanın hazırkı genişmiqyaslı təşəbbüsləri 2030-cu ilə qədər daxili enerji sistemində bərpa olunan mənbələrin payını 40 faizə çatdırmağı hədəfləyir. Bununla yanaşı, 2032-ci ilə qədər ölkədə quruda və dəniz şelfində 6 qiqavatlıq külək və günəş enerjisi istehsalı planlaşdırılır. Bu gücün 4 qiqavatı isə “Xəzər–Qara dəniz–Avropa yaşıl enerji dəhlizi” vasitəsilə Avropaya ötürüləcək. Nazir bu konsepsiyanı yalnız enerji ixracı deyil, həm də şəbəkə inteqrasiyası və qlobal tədarük zəncirinin genişlənməsi baxımından strateji addım kimi qiymətləndirdi.

Hazırda “Azərbaycan–Türkiyə–Avropa” və “Azərbaycan–Gürcüstan–Türkiyə–Bolqarıstan” istiqamətlərində yaşıl enerji dəhlizləri üzərində fəal iş aparılır. Bu layihələr Cənubi Qafqazı Türkiyə və Avropa ilə birləşdirərək regionlararası əməkdaşlığın yeni mərhələsinə yol açır. Ən əsası isə bu dəhlizlər Mərkəzi Asiya ilə Avropa arasında enerji körpüsü rolunu oynaya bilər. “Transxəzər yaşıl enerji dəhlizi” konsepsiyası da bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Çünki bu platforma həm iri istehsalçıları, həm də istehlakçı bazarları birləşdirərək enerji təhlükəsizliyi və davamlılığı təmin etməyə yönəlib.

Yaşıl enerji layihələri Azərbaycan üçün çoxşaxəli dividendlər vəd edir. Əvvəla, ixrac yönümlü bərpa olunan enerji valyuta gəlirlərini artıraraq milli iqtisadiyyatı neftdən asılılıqdan uzaqlaşdırır. İkinci olaraq, infrastrukturun yenilənməsi və yeni texnologiyaların tətbiqi ölkəyə sərmayə və minlərlə iş yeri gətirir. Üçüncü mühüm nəticə isə siyasi planda özünü göstərir: Enerji əməkdaşlığı etibarlı tərəfdaşlıqları möhkəmləndirir, Azərbaycanın regional güc mərkəzi kimi mövqeyini gücləndirir. Avropa üçün isə Azərbaycan yaşıl enerji sayəsində alternativ mənbə, etibarlı tədarükçü və iqlim hədəflərinə doğru aparan strateji tərəfdaşdır.

Böyük həcmdə bərpa olunan enerji istehsalı və transsərhəd ötürmələrin həyata keçirilməsi bir sıra texniki və institusional addımlar tələb edir. Şəbəkələrin gücləndirilməsi, enerji saxlama texnologiyalarının tətbiqi, rəqəmsal idarəetmə sistemlərinin yaradılması bu sahədə əsas prioritetlərdir. Bununla yanaşı, beynəlxalq hüquqi normaların uyğunlaşdırılması, uzunmüddətli maliyyələşdirmə mexanizmlərinin qurulması da mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə “power purchase agreements” (enerji alış-satış müqavilələri) və karbon bazarlarının tətbiqi layihələrin iqtisadi cəlbediciliyini artıracaq.

Ən böyük çağırışlar texniki maneələr, maliyyə resurslarının kifayət qədər cəlb edilməməsi və regional tənzimləmələrdə uyğunsuzluqlardır. Lakin beynəlxalq maliyyə institutlarının dəstəyi, dövlətlərarası əməkdaşlıq və innovativ texnologiyalara sərmayə bu problemləri aradan qaldıra bilər. Xüsusən də hidrogen texnologiyaları və enerji saxlama sistemlərinə qoyulan investisiyalar Azərbaycanın ixrac imkanlarını genişləndirəcək.




Azərbaycan artıq Avropaya qədər uzanan yaşıl enerji xəritəsinin strateji mərkəzidir. Planlaşdırılan dəhlizlər və inteqrasiya platformaları ölkəmizi regionlararası əməkdaşlığın ön sırasına çıxarır. Bakı Xəzərin sahillərindən Avropanın enerji bazarlarına uzanan dayanıqlı körpü inşa edir. Bu körpü həm də gələcəyin enerji nizamını formalaşdırır. Azərbaycanın yaşıl enerji missiyası milli maraqlardan daha böyük bir hədəfi – qlobal iqlim mübarizəsini dəstəkləməyi özündə birləşdirir. Bu isə ölkəmizi XXI əsrin enerji xəritəsində əvəzolunmaz oyunçuya çevirir.

**Mövzu ilə bağlı İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzinin Monitorinq və qiymətləndirmə şöbəsində sektor müdiri Gültac Əhmədzadə-Tapdıqzadə bildirdi:**

–Azərbaycanın yaşıl enerji dəhlizlərinin qurulmasında oynadığı aparıcı rol həm region ölkələri, həm də Avropa üçün yeni əməkdaşlıq imkanları açır və ölkəmizi Cənubi Qafqazda strateji enerji körpüsünə çevirir. XVI “Kazenergy” Avrasiya Forumunda Azərbaycanın energetika naziri Pərviz Şahbazovun çıxışı ölkəmizin bərpa olunan enerji mənbələri (BOEM) sahəsində regional enerji gündəliyində artan çəkisini və strateji istiqamətlərini nümayiş etdirib: “Hazırkı mərhələdə yaşıl enerjiyə keçid yalnız iqlim gündəliyinin tərkib hissəsi olaraq deyil, həmçinin, enerji təhlükəsizliyi, iqtisadi şaxələndirmə və beynəlxalq əməkdaşlıq baxımından mühüm faktor kimi qiymətləndirilir.

Azərbaycanın prioritet istiqamətlərindən biri olan “yaşıl enerji məkanı” məqsədinə uyğun olaraq, ökəmizin yalnız günəş və külək enerjisi deyil, digər alternativ enerji mənbələri üzrə potensialının qiymətləndirilməsi, bu sahədə istehsal–istehlak–ixrac zəncirinin mərhələli şəkildə formalaşdırılması istiqamətində işlər aparılmaqdadır. Azərbaycanın BOEM sahəsində qarşıya qoyduğu strateji xəttə əsaslanaraq, 2027-ci ilə qədər enerji şirkətləri ilə əməkdaşlığın birinci mərhələsində 2 qiqavatlıq yeni bərpa olunan enerji layihələrinin reallaşdırılması nəzərdə tutulur ki, bu da elektrik enerjisi istehsalının qoyuluş gücündə BOEM-in payını 33 faizə yüksəldəcək.

Bununla yanaşı, 2032-ci ilə qədər ölkə üzrə quruda və dənizdə, istismara verilməsi planlaşdırılan, ümumilikdə, 6 qiqavatlıq külək və günəş enerjisi gücünün 4 qiqavatı “Xəzər–Qara dəniz–Avropa” yaşıl enerji dəhlizi vasitəsilə mərhələli şəkildə Avropaya ixrac ediləcək. Beləliklə, təxminən, 4,5 milyon ton istixana qazı emissiyasının azalmasına nail olunacaq.

Sektor müdiri “Xəzər–Qara dəniz–Avropa” istiqaməti ilə yanaşı, “Transxəzər yaşıl enerji dəhlizi”, “Azərbaycan–Türkiyə–Avropa” və “Azərbaycan–Gürcüstan–Türkiyə–Bolqarıstan” yaşıl enerji dəhlizlərinin də qarşıdakı dövrdə regional enerji əməkdaşlığının genişləndirilməsi baxımından əhəmiyyətli istiqamətlər kimi qiymətləndirildiyini də bildirdi:

–İnfrastruktur layihələrinin icrası regional enerji şəbəkələrinin balanslaşdırılması, BOEM-in payının artırılması və iqlim hədəflərinə töhfə baxımından mühüm rol oynaya bilər: Son illərdə bərpa olunan enerji layihələrinə milyardlarla manat dəyərində sərmayələr yönəldilib və yeni investisiya qərarlarının qəbul edilməsi prosesi davam edir. Bu dinamika, bir tərəfdən, ölkəyə texnoloji bilik və müasir



idarəetmə təcrübəsinin transferini təmin edir, digər tərəfdən isə məşğulluq, enerji infrastrukturunun modernləşməsi və ixrac imkanlarının genişlənməsi baxımından yeni iqtisadi dividendlər yaradır.

Göründüyü kimi, təmiz enerjinin ixrac potensialının artırılması Azərbaycanın qeyri-neft-qaz sektorunun şaxələndirilməsi strategiyasının mühüm istiqamətlərindən biri kimi qiymətləndirilir. Yaşıl enerji ixracının genişlənməsi ölkənin tədiyyə balansına müsbət təsir göstərməklə yanaşı, xarici bazarlarda etibarlı tərəfdaş imicini möhkəmləndirir. Nəticə etibarilə, Azərbaycan yalnız regional enerji təhlükəsizliyinin təminatçısı deyil, həm də Avropa və Asiyanın yaşıl enerji inteqrasiyasının əsas oyunçularından biri kimi mövqeyini möhkəmləndirir.

***Nurlan ABDALOV***
***XQ***

**Dünən Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin təşkilatçılığı ilə II Milli Rəqabət Forumu keçirilib.**

# Sağlam rəqabət – yüksək inkişaf

## *Tələb və təklifin maneəsiz uyğunluğu*



Millət vəkilləri, dövlət qurumları, biznes assosiasiyaları, özəl sektorun təmsilçiləri və digər maraqlı tərəflərin iştirak etdikləri forumda müasir iqtisadi şəraitdə rəqabət siyasətinin təhlili, təbii inhisarların fəaliyyətinin tənzimlənməsi, bu sahədə mövcud çağırışlar və ictimai maraqların qorunması, eləcə də effektiv və ədalətli bazar münasibətlərinin formalaşdırılması istiqamətində fikir mübadiləsi aparılıb.

Forumda iqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış edərək bildirib ki, Azərbaycanın iqtisadi inkişafında rəqabət qabiliyyətliliyinin güclənməsi, texnologiyaların tətbiqi və beynəlxalq nüfuzun artması mühüm rol oynayır. Hazrda ölkədə iqtisadiyyatın texnoloji modernləşməsinin və rəqabət qabiliyyətinin yüksəlməsinin müşahidə olunduğunu diqqətə çatdıran nazirin sözlərinə görə, bunun nəticəsində həm yerli, həm də xarici investorlar üçün əlverişli şərait formalaşır, Azərbaycan iqtisadiyyatına marağın artması regional inkişaf üçün də yeni imkanlar açır. Rəqabətin bazar iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi olduğunu vurğulayan M.Cabbarov bildirib ki, tələb və təklif yalnız rəqabət mövcud olduqda düzgün formalaşır, innovasiya və məhsuldarlıq isə məhz sağlam rəqabət mühitinin təminatı ilə mümkün olur.

Azərbaycanda təbii inhisarların effektiv və şəffaf tənzimlənməsinin rəqabət mühitinin qorunması və iqtisadiyyatın sağlam inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını bildirən nazirin sözlərinə görə, gündəlik həyat və iqtisadi fəaliyyətin düzgün uzlaşdırılması üçün təbii inhisarların rolu və onların tənzimlənməsi xüsusi əhəmiyyət kəsb edir. Ölkəmizdə beynəlxalq əməkdaşlıq istiqamətində atılan addımların iqtisadi perspektivləri genişləndirdiyini diqqətə çatdıran nazir bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılmış iqtisadi islahatlar nəticəsində sahibkarların rəqabət qabiliyyətinin artması müşahidə olunur.

Qeyri-neft sektorunu ölkənin iqtisadi siyasətinin əsas hərəkətverici qüvvəsi adlandıran nazir daha sonra deyib ki, 2021-2024-cü illərdə bu sahədə hər il orta hesabla 6, 7 faiz artım qeydə alınıb. Qeyd olunub ki, İqtisadiyyatın şaxələndirilməsinin və rəqabət mühitinin gücləndirilməsin bizim əsas hədəfimizdir. Ölkə Prezidenti tərəfindən iqtisadiyyatın şaxələndirilməsinin əsas vəzifə kimi müəyyənləşdirildiyini xatırladan M. Cabbarovun sözlərinə görə, bu yeni məhsul və xidmətlərin istehsalı üçün bilik, bacarıq, insan kapitalı və müasir texnologiyaların mənimsənilməsini tələb edir. Bütün bunların uğurlu olması üçün isə düzgün mühit, yəni rəqabət mühiti vacibdir.

Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov çıxışında qeyd edib ki, qarşıdakı dövrlərdə əsas hədəf ölkədə rəqabət mühitinin gücləndirilməsi, dövlət satınalmalarında çox iştirakçılığın təmin olunması, kiçik və orta sahibkarlığın dəstəklənməsi olacaq. Diqqətə çatdırılıb ki, rəqabət mühitinin təmin olunması həm dayanıqlı iqtisadi inkişafı, həm də sənayeləşmə səviyyəsinin yüksəlməsini şərtləndirir ki, bu da biznes subyektlərinin gəlirliliyinin artmasına və iqtisadi şaxələndirmənin genişlənməsinə şərait yaradacaq.

Bu ilin ötən dövründə ölkədə baş verən rəqabət qanunvericiliyinin pozulması halları barədə məlumat verən E.Bağırovun sözlərinə görə, yanvar-avqust aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən bazar subyektləri tərəfindən haqsız rəqabətə yol verilməsi, eləcə də iqtisadi təmərküzləşmə əməliyyatları üzrə baxılmış müraciətlər 2 dəfəyədək, qanunsuz reklamların yayımı və təbii inhisar subyektlərinin göstərdiyi xidmətlərlə əlaqədar baxılmış müraciətlər isə 20 faizədək artıb.

Qeyd olunub ki, hesabat dövründə qurum əməkdaşları tərəfindən 83 təmərküzləşmə əməliyyatı araşdırılıb ki, bu da rəqabət mühitində fəallığı və davamlı inkişaf dinamikasını nümayiş etdirir: “Bu il ərzində haqsız rəqabətə yol verilməklə rəqabət qanunvericiliyinin pozulması ilə bağlı 54 araşdırmaya başlanılıb və 12 iş qaldırılıb. Görülən tədbirlərin bir məqsədi var: rəqabəti pozan davranışlardan çəkindirmək və rəqabət mədəniyyətinin təşəkkülünə nail olmaq. Məhz bunun nəticəsidir ki, 14 təsərrüfat subyekti aşkar olunmuş pozuntu hallarını könüllü aradan qaldırıb”.

Sonra Milli Məclisin deputatı Azər Əmiraslanov və Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevin çıxışları dinlənilib. Daha sonra agentlik sədrinin müşaviri Cəfər Babayevin və qurumun təbii inhisarlara dövlət nəzarəti şöbəsinin müdiri Şəmsi Rzalının moderatorluğu ilə “Müasir rəqabət çağırışları və dəyişən siyasət: Rəqabət siyasətinin iqtisadi inkişafda rolu” və “Təbii inhisarların tənzimlənməsi: Rəqabət və ictimai maraqlar” adlı panel müzakirələr keçirilib.

Müzakirələrdə rəqabət siyasətinin iqtisadi inkişafda rolu, rəqabət tənzimləmələrinin biznes mühitinə təsirləri, rəqəmsal platformalarda meydana çıxan yeni rəqabət çağırışları, transsərhəd rəqabət pozuntularının qarşısının alınması, Rəqabət Məcəlləsinin bazar iştirakçılarının davranışlarına ilkin təsirləri, təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsinin əsas prinsipləri, enerji, nəqliyyat, telekommunikasiya, su təsərrüfatı və digər strateji sahələrdə təbii inhisar subyektlərinin fəaliyyətində ictimai maraqların qorunması, təbii inhisar subyektlərinin maliyyə dayanıqlılığının təmin edilməsi, eləcə də özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektləri ilə təbii inhisarların qarşılıqlı fəaliyyətinin təşkili kimi mühüm məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Panel müzakirələrinin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Yurdumuzun geotermal enerji potensialı

**Dünya Bankı Azərbaycanın geotermal resurslarının potensialının qiymətləndirilməsinə texniki yardım göstərir. Bunu qurumun Azərbaycan üzrə ölkə meneceri Ştefani Ştalmayster bildirib.**

O, təmsil etdiyi qurumun ölkəmizlə əməkdaşlığı davam etdirməyə hazır olduğunu diqqətə çatdıraraq deyib: “Bu, həmin sahədə konkret istiqamətlərin inkişafı üçün məqsədəuyğunluğundan asılı olaraq həm özəl sektordan, həm də dövlətdən maliyyə cəlb etməklə mümkündür. Hazırda texniki yardım davam edir və əlavə maliyyə vəsaitinin tələb olunub-olunmayacağı hələ müəyyən edilməlidir”.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin törəmə müəssisəsi olan “SOCAR Green” 2030-cu ilə qədər ölkəmizdə ilk geotermal enerji stansiyasını istismara verməyi planlaşdırır. Bu barədə ötən həftə Bakıda keçirilən “Yaşıl Enerji Həftəsi 2025: Azərbaycan və Mərkəzi Asiya” adlı toplantısında “SOCAR Green” şirkətinin günəş və külək enerjisi üzrə mütəxəssisi Elçin Tarquliyev məlumat verib.

Hazırda şirkətin bioenerji sahəsini inkişaf etdirdiyini diqqətə çatdıran mütəxəssis buna 37 meqavatlıq tullantıların



yandırılması zavodunu (tam bioenerji deyil) və bir neçə kiçik layihəni misal çəkib. Bununla belə, təmsil etdiyi şirkətin əsl bioenerji layihəsini – istilik və elektrik enerjisi yaratmaq üçün bir yerdə birləşdirilən çoxsaylı xammalla işləyən elektrik stansiyasını qurmaq niyyətində olduğunu bildirib. Qeyd olunub ki, yerli istehlakçıların çoxluğu səbəbindən belə kiçik layihələr, çox güman ki, dövlət satınalmaları vasitəsilə deyil, B2B (biznes-biznes) modeli ilə həyata keçiriləcək.

“SOCAR Green” hazırda geotermal enerji sahəsində ABŞ-ın “Baker Hughes Co.” və SLB şirkətləri ilə əməkdaşlıq edir. Həmin şirkətlərlə sazişlər isə 2024-cü ilin noyabrında COP29 iqlim konfransı çərçivəsində imzalanıb. Sazişə əsasən “Baker Hughes” Azərbaycan hökuməti ilə ölkənin geotermal potensialının müəyyən edilməsi və qiymətləndirilməsi üzərində işləyir. SLB isə “SOCAR Green” tərəfindən Qarabağ bölgəsində perspektivli geotermal ərazilərin qiymətləndirilməsi üçün məsləhətçi kimi cəlb edilib.

Qeyd edək ki, Qarabağda çoxlu vulkanik fəaliyyət və isti bulaqlar mövcuddur. Həmin bulaqlarda su 100–150 dərəcə selsi ola bilər. Bu o deməkdir ki, ənənəvi buxar enerjisi və ya geoenerji, evlərin, istehsal obyektlərinin birbaşa qızdırılması, müxtəlif mövzular üçün potensial var. Artıq İstisu vadisi, Qaragöl və Zuar isti bulağı geotermal energetikanın inkişafı üçün əhəmiyyətli potensiala malik yerlər kimi müəyyən edilib və geoloji kəşfiyyat işlərin aparılmasına dair proqram hazırlanıb.

***XQ***



# Azərbaycan – Türkiyə statistika əməkdaşlığı

**Türkiyənin paytaxtı Ankara şəhərində keçirilən İslam Əməkdaşlıq Təşkilatının Statistika Komissiyasının 14-cü sessiyası çərçivəsində oktyabrın 3-də Türkiyə Statistika İnstitutunda Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında statistika sahəsində Anlaşma Memorandumu imzalanıb. Memorandumu Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və Türkiyə Statistika İnstitutunun Prezidenti Erhan Çetinkaya imzalayıblar.

Memorandumda nəzərdə tutulmuş işlərin həyata keçirilməsinin rəsmi statistika sahəsində ikitərəfli əlaqələrin daha da intensivləşdirilməsi və gücləndirilməsinə, statistik istehsal prosesində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə və statistikanın bir sıra sahələrində qabaqcıl təcrübənin qarşılıqlı mübadiləsinə töhfə verəcəyi qeyd olunub.

***XQ***

# Azərbaycan Milli Elmlər Akademiyasında təbiət elmləri

**Azərbaycan Milli Elmlər Akademiyasının Kimya Elmləri Bölməsində ötən 80 ildə 4 elmi müəssisə – Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, Murtuza Nağıyev adına Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu, Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu və Polimer Materialları İnstitutu yaranıb. Prezident İlham Əliyevin sərəncamı ilə 28 iyul 2022-ci ildən həmin institutlar Elm və Təhsil Nazirliyinin tabeliyiçiliyinə verilib.**

Lakin AMEA-nın Nizamnaməsinə görə, Kimya Elmləri Bölməsi respublikada kimya sahəsində elmi tədqiqat hesabatlarının hazırlanmasında, müzakirə edilməsində, tövsiyyələrin verilməsində, AMEA-ya seçkilərin keçirilməsində əsas qurum olaraq fəaliyyətini davam etdirir.

Kimya sahəsində elmi tədqiqatlar Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində və digər ali məktəblərdə və elmi müəssisələrdə də aparılır. AMEA-nın 80 illik yubileyi ərəfəsində qeyd edilən 4 elmi müəssisənin son 10 ildə əldə etdiyi əsas nəticələri oxuculara təqdim edirik.

Yusuf Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda son 10 ildə ənənəvi istiqamətlərdə aparılan tədqiqatlarda mühüm nəticələrə nail olunmuşdur.

***Mazutun katalitik krekinq və kokslaşmanın ağır qazoylu ilə qarışığının, vakuum qazoylunun katalitik krekinq prosesinə maqnit sahəsinin təsiri tədqiq edilmiş və göstərilmişdir ki, ənənəvi şəraitdə aparılan proseslə müqayisədə benzin və dizel fraksiyalarının çıxımı 12,5 – 25 faiz artır.***

Vakuum qazoylundan perspektiv tələblərə cavab verən dizel fraksiyası və katalitik krekinq üçün keyfiyyətli xammalın alınması məqsədilə modifikaslya olunmuş yerli alümosilikat katalizatorunun, katalitik riforminq benzininin aromatik karbohidrogenlərinin hidrogenləşməsində Me/seolit/SZ kompozit katalizatorlarının və dizel fraksiyasından ayrılmış naften-parafin konsentratının aerob oksidləşməsində nano γ-$Al_2O_3$ daşıyıcısı üzərinə hopdurulmuş yüksək dispersli Cr,Mn - katalizatorunun yüksək aktivliyi müəəyyən olunmuşdur.

Aminləşdirilmiş epoksipolibutadien nümunələrinin və təbii neft turşuları ilə poliaminlər əsasında alınmış və imidazolinlərlə modifikasiya olunmuş monoalkil (C8-C12) fenolformaldehid oliqomerlərinin konservasiya mayesinin komponenti kimi T-30 markalı turbin yağında yüksək antikorroziya xassəsinə malik olduqları müəyyən edilmişdir.

Fenolun tsikloheksenkarbon turşusunun metil, etil efirləri ilə katalitik tsikloalkilləşmə reaksiyalarında alınmış efir tərkibli tsikloalkilfenollar dizel yanacağına termo və fotostabilizator, antioksidant kimi yoxlanılmış və müəyyən edilmişdir ki, dizel yanacağına 0,004 faiz antioksidant əlavə edildikdə yanacaqda çöküntü əmələ gəlmir, termo-və fotostabilləşdirici qabiliyyəti məlum kimyəvi əlavələr ilə müqayisədə 2 dəfə artmış olur.

Xitin polisaxaridinin yerli xammal növlərindən olan xərçəng zirehi və göbələk tozundan ion mayeləri ilə 80-90oC temperaturda 10–21 faiz çıxımla bir mərhələli ekstraksiya üsulu ilə xitinin ayrılması üçün səmərəli və ekoloji təmiz proses işlənib hazırlanmışdır. Xitinin deasetilləşməsiylə əldə olunan xitozanın modifikasiya məhsulu əsasında qanaxmanı effektiv dayandıran antibakterial preparat hazırlanmışdır.

Təbii neft turşularının amid törəmələri əsasında bitumlara yüksək effektivliyə malik V-2 adgeziya aşqarı yaradılmış və onun Təcrübə-Sənaye Zavodunda (İNKOR MMC ilə birlikdə) istehsalı təşkil olunmuşdur.

"Azofosk" gübrəsinin "AzGranat" MMC-nin Şamaxı rayonunda yerləşən üzüm sahəsində sınaqları keçirilmiş və bu gübrənin bütün göstəricilərinin İsraildən gətirilmiş P, N, K tərkibli gübrədən üstünlüyü müəyyən edilmişdir.

İstehsalı təşkil olunmuş "Xəzər-24" deemulqator-inhibitorunun iştirakı ilə "Abşeron" və "Bahar" yataqlarında çıxarılan neftlərin duzsuzlaşdırılması və susuzlaşdırılması məqsədi ilə aparılan sənaye sınaqları göstərmişdir ki, deemulsasiya olunmuş neftlər göstəricilərinə görə "A" kateqoriyasına olan tələbata tam cavab verir.

"Bakı" ərptəmizləyicinin yeni tərkibli kompozisiyası "Baku Steel Company" MMC-nin oksigen sexində Koreya texnologiyası ilə tikilmiş kompressor qurğularının soyuducularının 50–70°C-də ərpdən təmizlənməsi üçün sənaye sınağından keçirilmiş və göstərilmişdir ki, ərpin tam təmizlənməsi üçün reagentin 1 tonu kifayətdir.

"Binəqədineft" İstehsalat Birliyində "Xəzər-24" deemulqatoru, "Azəri-2017" duzçökmə, "Abşeron" bakterisid və "VFİKS-2017" korroziya inhibitorlarının sənaye sınaqları aparılmış və tətbiq üçün tövsiyyə olunmuşdur. Quyularda və neftçıxarma borularında asfalt, qatran və parafinçökmənin qarşısının alınması məqsədi ilə (Marka "Parkorin-22 A") və dizel distilatı, yüngül fleqma, (Marka B "Parkorin-22") parafinçökmə inhibitor-bakterisidinin istehsalı təşkil olunub və Salyan Oil Limimted şirkətinə təhvil verilmişdir.

İnstitut 29 qrant almış, büdcədənkənar 83 müqavilə əsasında daxil olan vəsaitin həcmi 2,1 milyon manat təşkil etmişdir. Əməkdaşlar 2015–2024-cü illərdə 117 kitab, monoqrafiya, dərslik və dərs vəsaitləri, 12 konfrans materialı tərtib edilmiş və buraxmışlar. Bundan əlavə, 1500-ə yaxın məqalə (745-i xaricdə), o cümlədən, "Scopus" bazasında olan jurnallarda 67 məqalə, "Web of Science" bazasənda olan jurnallarda isə 483 məqalə (bəzi jurnallar hər iki bazaya daxil olduğundan faktiki məqalələrin sayı iki bazada olan məqalələrin say cəmindən az olacaq) çap olunmuşdur. 2 min 450 məruzənin tezisləri respublika və xarici mətbuatda (təqribən, 630-u xarici mətbuatda) çap olunmuşdur. 112 patent 13-ü Avrasiya patentidir. Bu illər ərzində institutun elmi işçilərinin əsərlərinə olan istinadların ümumi sayı 8 min 500-dən çoxdur.

Bir sıra əməkdaş səmərəli elmi fəaliyyətə görə və institutun 90 illik yubileyi ilə əlaqədar müxtəlif fəxri adlara, medallara və mükafatlara, gənc alimlərdən Fəxriyyə Məmmədova və Mehriban Nağıyeva Azərbaycan Respublikası Prezidentinin təsis etdiyi "İlin gənc alimi" mükafatına (2016 və 2023-cü illər) layiq görülmüşlər. Çoxsaylı əməkdaş müxtəlif illərdə keçirilən beynəlxalq konfransların, forumların, müsabiqələrin iştirakşısı olmuş, əldə etdikləri elmi nəticələrə görə Azərbaycan Milli Elmlər Akademiyası, müxtəlif nazirliklər və təşkilatlar tərəfindən diplomlara, fəxri fərmanlara, mükafatlara, təşəkkürnamələrə layiq görülmüşlər.



***Akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunda 2015-2025-cü illərdə elmi-tədqiqat işləri bir neçə istiqamətdə aparılmışdır.***

Respublikada zəngin ehtiyatları olan mineral sərvətlərin (Alunit filizi, Daşkəsən kobalt filizi, Gədəbəy mis filizi və s.) kompleks emalı sahəsində, mövcud texnoloji proseslərin təkmilləşdirilməsi və yeni texnoloji proseslərin hazırlanması istiqamətində səmərəli işlər görülmüş, iqtisadi baxımdan səmərəli və ekoloji cəhətdən zərərsiz, yaşıl kimyanın prinsipləri əsasında alunitin kompleks emalının prinsipial texnoloji sxemi işlənib hazırlanmışdır. Alunit filizini yandırmadan qələvidə aşınma yolu ilə emal etməklə, kənardan heç bir reaktiv almadan elektrodializ üsulundan istifadə edərək alüminium oksid, qələvi, sulfat turşusu, natrium-kalium sulfat gübrələri, vanadium və qalliumun alınmasının optimal şəraiti tapılmışdır.

Üçlü qeyri-üzvi sistemlərdə topoloji izolyator xassəli yeni laylı xalkogenid və xalkohalogenid fazaları aşkar edilərək onların mükəmməl monokristalları yetişdirilmişdir. Antiferromaqnetik topoloji izolyator xassəli $MnBi_2Te_4$ birləşməsi şintez edilmiş, müxtəlif elmi mərkəzlərdə tədqiq olunmuş və alınmış nəticələr birgə məqalə kimi "Nature" jurnalında çap olunmuş, Çində keçirilən beynəlxalq müsabiqədə ("Fronties of Science Award") bərk halın fizikası üzrə son 5 ildə çap olunmuş ən yaxşı məqalə hesab edilmişdir.

Entropiya mühəndisliyi strategiyasına əsaslanmaqla argirodit ailəsi birləşmələrinin bərk məhlullar alınmış və aşkar edilmişdir ki, entropiya faktorunun sinergetik təsiri nəticəsində yüksək temperaturlarda davamlı olan ionkeçirici kubik fazalar otaq temperaturunda stabilləşir. Bu qarışıq ion-elektron keçiriciliyinə malik yeni materialların alınması üçün imkanlar açır.

Lantanoidlərin qallium sulfid tərkibli şüşələri alınmış, onlarda həyəcanlanma zamanı şüalanmanın infraqırmızı sahədən görünən sahəyə keçməsi müşahidə edilmişdir ki, bu da həmin maddələrdən antistoks lüminofor kimi optiki lifli rabitə xətlərində və gecə görmə cihazlarında istifadə edilməsini mümkün edir.

Koordinasion birləşmələr sahəsində polidental hidrazon liqandları əsasında effektiv funqisidlər və xərçəng əleyhinə aktiv olan yeni preparatlar sintez edilmişdir. Göstərilmişdir ki, bu komplekslər müxtəlif ferment zülallarına, o cümlədən AChE, BChE və Gly fermentlərinə qarşı aktiv inhibitor təsirinə malikdirlər. Benzidinin törəmələri əsasında üzvi batareyalar üçün elektrod materialı olan keçid metallarının yeni kompleksləri sintez olunmuşdur.

Metanın nanostrukturlu bifunksional biomimetik katalizator − tetrakis/$Al_2O_3$ iştirakında ekoloji təmiz yaşıl oksidləşdirici olan $H_2O_2$ ilə birbaşa metanola oksidləşdirilməsi nəticəsində 300°C temperaturda 20%-ə yaxın metanol alınır..

Dərman preparatlarının bioloji aktivliyini və nəzarətli ayrılmasını təmin etmək üçün onların immobilizə olunması üçün polimer hidrogellər (matrisalar) sintez edilmiş, doksorubisin antibiotikinin uzun müddətli bioloji aktivliyini saxlamaq məqsədilə daşıyıcının tərkibində 14-18 nm ölçülü gümüş nanohissəcikləri olan poli-N-vinilpirrolidon və qummiarabik əsaslı nanobiokompozitlər sintez olunmuşdur.

Nanoquruluşlu karbon nitridin tərkibində metal olmadan hidrogen molekulunu aktivləşdirmək xassəsi müəyyən edilmiş və onun üzərində fenilasetilenin stirola və etilbenzola, fenolun tsikloheksanona və tsikloheksanola selektiv hidrogenləşməsi prosesləri üçün optimal şərait müəyyən edilmişdir.

İlk dəfə olaraq əsas işçi elementi dəmirporfirin biomimetik katalizatoru olan yarımkeçirici (Si) tərkibli katalaz tipli biomimetik elektrod hazırlanmışdır. Elektrodun yüksək aktivliyi və həssaslığı H202-in məhlulda 10-6 küt. faizə qədər qatılığını təyin etməyə imkan verir.

Suyun elektroliz prosesi üçün yüksək elektrokatalitik aktivliyə malik olan və korroziyaya davamlı nanostrukturlaşdırılmış elektrod materialı kimi nikel-molibden nazik təbəqələri elektrokimyəvi yolla sintez edilmişdir. Elektrokimyəvi yolla anodda oksidləşmiş nanoməsaməli $Al_2O_3$ daxilində n-tip CdS nanotelləri çökdürülmüş və alınan strukturun üzərinə CdTe nazik təbəqəsi çökdürülərək yüksək fotoaktivliyə malik yeni nəsil Günəş çevriciləri üçün n-CdS/p-CdTe heterokeçidləri yaradılmışdır. Günəş elementləri ilə akkumulyatorları bir modulda birləşdirməklə hibrid Günəş çeviricilərinin yaradılması texnologiyası işlənib hazırlanmışdır.

Qeyri-Nyuton neftlərində nizamsız strukturların əmələ gəlməsinə səbəb olan hissəciklərin hidrodinamik qarşılıqlı təsiri, diffuziya kütləsi və istilik ötürülməsi, məsaməli mühitdə qeyri-nyuton neftlərinin hidravlik diffuziya və qeyri-xətti filtrasiyası tənliyinin analitik həlli verilmiş, məsaməli mühitlərdə hidravlik diffuziya və keçiricilik əmsallarının qiymətləndirilməsi üçün yeni ifadələr alınmışdır,

Dispers neft mühitində kütlə köçürmə hadisələri və reoloji xassələr əsasında diffuziya və qravitasiya mexanizmləri, neftdə olan asfalt-qətran və bərk hissəciklərin çökmə və neft avadanlığının səthində hissəciklərin sıx layının yaranma modelləri təklif edilmişdir.

Krekinq və piroliz qazlarının emalı kompleksinin optimal layihələşdirilməsi misalında kimya-texnoloji sistemlərin modelləşdirilməsi və optimal layihələşdirilməsinin yeni metodu (optimal uzlaşdırılmış material və istilik axınlarının təyini) işlənib hazırlanmışdır.

İnstitut tərəfindən Avropa Komissiyasının Horizon 2020 proqramı üzrə ümumi dəyəri 6,5 milyon avro olan Avropanın 8 ölkəsinin 11 tədqiqat mərkəzi və Universiteti ilə birgə qalib gəldiyi və tərəfdaş olduğu "Perspektiv materiallar və nanotexnologiyalar" istiqaməti üzrə "Methane oxidative conversion and hydroformylation to propylene" (814557 №-li C123) qrant layihəsi yerinə yetirilmişdir. Layihə təbii qazdan propilenin alınma texnologiyasının işlənilməsinə və tətbiqinə yönəlmişdir.

Əməkdaşların hazırladıqları, 14-ü xaricdə olmaqla, 100 kitab, monoqrafiya və dərslik, o cümlədən, "Dispers mühitdə daşınma hadisələri" monoqrafiyası nüfuzlu beynəlxalq "Taylor and Francis Group" nəşriyyatında (London, Nyu York, 2019, 434 səh.), 6 kollektiv monoqrafiyaya daxil olan fəsillər Londonda "İnterTech Open" nəşriyyatında çap olunmuşdur.

Şəmkir və Yenikənd SES-lərdə aparılan sistematik elmi tədqiqat işləri nəticəsində hidrotexniki qurğularının (HQ) su mühitində korroziya sürətləri təyin olunmuş, HQ-ların korroziyaya qarşı katod mühafizəsi üsulu təklif edilmişdir.

Bəzi d- və f- elementlərin əsasında alınmış nanoquruluşlu kompozitlərin neftlərin axıcılığına təsiri araşdırılmış, "Balaxanıneft" Neft-qaz çıxarma İdarəsinin (NQÇİ) nefthasiledici quyusundan və "Siyəzənneft" NQÇİ-nin "Ata-çay" neft yığım məntəqəsindən götürülmüş ağır neft nümunələri üzərində aparılan sınaqlar neftin kinematik özlülüyün 65-70%, qatranın miqdarının isə 50% aşağı düşdüyünü sübut etmişdir.

Filiz emalı tullantı sularından yüksək fazilə (90-95%) $Cu^{2+}$ və $Zn^{2+}$ ionlarının çıxarılması üçün modifikasiya olunmuş bentonit filtri hazırlanmış və İran İslam Respublikasının Gilan Almas şirkətində sənaye miqyasında sınaqdan keçirilmişdir. Alınan nəticə təbii bentonit və ənənəvi istifadə olunan aktiv kömürdən 1,5 dəfə yüksəkdir.

Alüminium və nadir elementlərin istehsal bazasını artıran yeni "Alunit şlamı – kaolinit texnologiyası" işlənib hazırlanmışdır. Mövcud texnoloji proseslərdən fərqli olaraq, gillərin dəmirdən təmizlənməsi emalın ilkin mərhələsində aparılır. Alınan alüminiumlu məhsulun alunitin emal məhlullarına əlavə edilməsi tövsiyyə olunur.

İstilik sistemləri və metal səthlərini pas/duz çöküntülərindən təmizləmək üçün tərkib (SAD) təklif edilmişdir. Tərkib üçün respublika patenti alınmışdır. Bunun əsasında biznes plan hazırlanmış və Yüksək Texnologiyalar Parkına təqdim edilmişdir.

İnstitut əməkdaşları 2015-2024-cü illərdə ümumi məbləği 3.700.00,00 AZN + 304.062,00 Avro + 200.000,00 ABŞ dolları olan 34 qrant layihəsi üzrə tədqiqatlar aparmışlar. Onlardan 20-si Beynəlxalq qrantlardır. Təsərrüfat müqavilələri əsasında İnstituta daxil olmuş büdcədən kənar vəsaitin həcmi 775.000,00 AZN olmuşdur.

İnstitutun Rusiya, Almaniya, Fransa, Böyük Britaniya, İspaniya, İtaliya, Belçika, Hollandiya, Tayvan, Türkiyə, Bolqarstan və s. ölkələrin elmi-tədqiqat müəssisələri və Universitetləri ilə elmi əməkdaşlığı davam etmiş, birgə tədqiqatların nəticələri nüfuzlu jurnallarda çap edilmişdir. 7-10 oktyabr 2024-cü ildə Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun ev sahibliyi etdiyi 15 ölkə alimlərinin iştirakı ilə "Enerjinin saxlanması və çevrilməsi üçün materiallar" üzrə VIII Beynəlxalq simpozium yüksək səviyyədə təşkil olunmuş və keçirilmişdir.

***Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunda 2015–2025-ci illərdə tədqiqat işləri üzvi sintezin imkanlarından istifadə etməklə aşağıdakı istiqamətlərdə davam etdirilmişdir.***

Sürtkü yağlarının, yanacaqların və xüsusi mayelərin istismar xassələrini yaxşılaşdıran müxtəlif funksiyalı aşqarların, fizioloji fəal maddələrin, korroziya inhibitorları və səthi-aktiv maddələrin sintezi və alınma texnologiyasının işlənilməsi, müxtəlif təyinatlı yüksək keyfiyyətli sürtkü yağlarının və xüsusi mayelərin yaradılması, onların istehsalı ilə əlaqədar yeni xammal mənbələrinin müəyyənləşdirilməsi və mövcud mənbələrdən səmərəli istifadə olunması istiqamətində davam etdirilmiş və bir sıra mühüm nəticələr əldə edilmişdir.

Sürtkü yağlarının yuyucu-dispersləşdirici xassələrini yaxşılaşdıran, oksidləşmə və korroziyanın qarşısını alan müxtəlif təyinatlı motor yağları, sürtkü yağlarının yaglayıcılıq xassələrini yaxşılaşdıran, yeyilməyə və siyrilməyə qarşı yüksək təsirə malik aşqarlar sintez edilmiş, onların əsasında müxtəlif təyinatlı transmissiya yağları yaradılmışdır.

Vinil və allil qrupu saxlayan monomerlər əsasında sürtkü yağlarının özlülük-temperatur xassələrini yaxşılaşdıran özlülük aşqarları və bir sıra digər xassələrini yaxşılaşdıran çoxfunksiyalı polimer aşqarlar sintez edilmiş və onlardan istifadə edilərək bütün mövsümlərdə işləyən motor yağları yaradılmışdır.

Tərkibində müxtəlif funksional qruplar olan üzvi birləşmələr əsasında sürtkü yağlarına yeni mühafizəedici aşqarlar, yağlayıcı-soyuducu mayelərin (YSM) istismar xassələrini yaxşılaşdıran, bakterisid və funqisid xassələrinə malik üzvi birləşmələrin sintezi aparılmışdır.

Canlı orqanizmlərdə bəzi patoloji proseslərin inhibitorlarının yaradılması istiqamətində sintez olunan 350-yə yaxın yeni fizioloji fəal maddənin antioksidant aktivliyi, fərqli enzim və onların izoformaları üzərində yüksək təsirə malik inhibitor olmaları müəyyən edilmişdir. Tədqiq olunan maddələr bədxassəli şiş, şəkərli diabet, qlaukoma, Alzheimer kimi qlobal xəstəliklərə səbəb olan pataloji proseslər üçün potensial dərman maddəsi ola bilər. Onların bəziləri standart dərman kimi tətbiq olunan preparatlara nisbətən 2-4 dəfə yüksək təsirə malikdir.

Kvant kimyəvi hesablamalar ilə bəzi üçkomponentli reaksiyaların mexanizmi tədqiq olunmuş, nəzəri hesablamalarla bu reaksiyalar nəticəsində məqsədyönlü maddələrin alınmasının optimal şəraiti tapılmış və təcrübi olaraq təsdiq edilmişdir.

Yüksək parafinli neftlərin donma temperaturu və dinamik özlülüyünü aşağı salmaqla onların boru kəmərləri ilə uzaq məsafələrə nəql edilməsini təmin edən və hər il 100 tonlarla istehsal olunan "Depressator-AKİ" aşqarı hazırda da Bakı–Ceyhan neft kəmərində müvəffəqiyyətlə istifadə edilir. Bu aşqar strateji əhəmiyyət daşıdığına görə ona "Məxfi" qriflə Azərbaycan patenti verilmişdir.

Ukraynanın Xarkov şəhərində yerləşən Malışev zavodunda istehsal olunan T-80 markalı tankda istifadə edilən xüsusi təyinatlı dizel mühərrikində işlənilən M-16ИХП-3 motor yağının istismar xassələrini yaxşılaşdırmaq üçün yeni xüsusi təyinatlı M-16ИХП-3у markalı motor yağı yaradılmış və müasir mühərriklərdə sınaqlardan uğurla keçmişdir. Digər xüsusi təyinatlı motor yağı T-90 markalı tanklarda istifadə üçün sınaqdan keçmişdir.

Yaradılmış xüsusi təyinatlı M-16ИХП-3у və M-53/16Д2 markalı motor yağlarının istehsalı Təcrübə-Sənaye Zavodu MMC-də təşkil edilmiş, istehsalı və istehlakını təmin edən normativ-texniki sənədlər işlənilmişdir. Həmin yağlarının istismar xassələrinə görə üstünlüklərə malik yeni analoqları yaradılmışdır. "Xüsusi təyinatlı sürtkü yağlarının yaradılması və istehsalının təşkili" adlı kompleks elmi-texniki iş 2024-cü ildə texnika sahəsində Azərbaycan Dövlət Mükafatına layiq görülmüşdür.

Bakı neft emalı zavodlarının uzun illər ərzində fəaliyyəti nəticəsində əmələ gəlmiş və min tonlarla Abşeronun Balaxanı qəsəbəsi ərazisinə tullanaraq ekoloji gərginlik yaradan "turş qudron"un emal prosesinin yaradılması ilə əlaqədar mazut əsasında alınan qalıq yanacaqların xassələrini yaxşılaşdıran əlavə işlənib hazırlanmış, istehsalı və tətbiqi təmin edilmişdir

Neftlə çirklənmiş torpaqların və su hövzələrinin mikrobiloji vasitələrlə təmizlənməsi istiqamətində Abşeron yarımadasının Suraxanı, Balaxanı, Binəqədi və Bibi-Heybət yataqları ətrafı müxtəlif karbohidrogen tərkibli torpaqların təmizlənməsi üçün torpağı yaxşılaşdıran əlavələr kompleksi ilə seçilmiş mikroorqanizm assosiasiyasını təmsil edən bioloji preparatların alınması üçün texnologiya yaradılmışdır. Tövsiyə olunan 4 müxtəlif biopreparatlarla yanaşı, bir ümumi biopreparat ("Universal") hazırlanmış və sınaqdan keçirilmişdir.

***Polimer Materiallari İnstitutunda 2015–2025-cü illərdə bir sıra prioritet istiqamətlər üzrə elmi tədqiqatlar aparılmış, yeni polimer materialların sintezi, onların xassələrinin öyrənilməsi və tətbiq sahələrinin müəyyən edilməsi istiqamətində mühüm elmi nəticələr əldə edilmişdir.***

Makromolekulunda tsiklopropan halqası, karbonil qrupu və ikiqat rabitə olan funksional polimerlər sintez edilmiş və onların əsasında məlum analoqdan (polivinilsinnamat) daha effektli, UB-şüalara qarşı yüksək fotohəssaslığa, aşağı mikrodefektliyə və yüksək adgeziya möhkəmliyinə malik neqativ tipli fotorezistlər yaradılmışdır.

Suyun səthindən neft və neft məhsullarını 98-99 faiz yığa bilən, yüksək sorbsiya tutumlu (10-15 kq/kq), hidrofob xassəli, ekoloji cəhətdən təmiz, çoxqat regenerasiya qabiliyyətli penoplast sorbentlərin alınması üçün mexaniki-kimyəvi üsul işlənib hazırlanmışdır.

Salisil turşusunun oliqoalkil efirləri sintez olunmuş onların və aşağı sıxlıqlı polietilenin əsasında antibakterial kompozisiya materialları alınmış və göstərilmişdir ki, yüksək fiziki-mexaniki göstəricilərə və funqisid xassələrə malik olan bu kompozisiyalar yeyinti sənayesində və kənd təsərrüfatında qablaşdırma materialı kimi istifadə oluna bilər.

Saxarin-6-karbon turşusu əsasında xətti və şaxəli quruluşa malik sulfoimid fraqmentli epoksid qatranları sintez edilmiş, onların əsasında termiki davamlı epoksikompozisiyalar alınmışdır. Sintez edilmiş epoksiimid qatranları sənayedə istehsal olunan epoksidian qatranlarından daha yüksək termiki göstəricilərə malikdir və sənayedə termiki davamlı epoksibirləşmələr kimi istifadə edilə bilər.

Müxtəlif polimerlər və nanohissəciklər əsasında alınan yeni tip çoxfunksiyalı termoelastoplastik nanokompozitlərin xüsusi elektrikkeçiriciliyi geniş intervalda dəyişdirilə bildiyindən elektronikada fotoelektrik generatorların, batareyaların, işıq diodlarının, elastik və şəffaf displeylərin yaradılması üçün perspektivlidir

Butadien-nitril kauçuku, polietilen və polipropilen əsasında dinamiki vulkanlaşmış elastoplastlar işlənib hazırlanmış, "METAK" MMC müəssisəsində sınaqdan keçirilmiş və yüksək istismar göstəricilərinə malik olması təsdiqlənmişdir.

Aşağı və yuxarı sıxlıqlı polietilen qarışığı və mineral doldurucu əsasında aşağı yanma qabiliyyətli kompozit materialların hazırlanması üçün laboratoriya texnoloji reqlamenti hazırlanmışdır. Alınan kompozitlər inşaat sahəsində yüksək keyfiyyətli konstruksiya materiallarıdır və yüksək emal olunma qabiliyyətinə malikdirlər.

Sumqayıt Dövlət Universiteti və Polimer Materialları İnstitutu ilə Elm və Tədris Mərkəzi yaradılmışdır. Mərkəzin fəaliyyəti tədris prosesinin elmi tədqiqatlarla əlaqələndirilməsi, tələbə və magistrantların elmi işə cəlb olunması, təcrübi vərdişlərin formalaşması məqsədini güdür.

Kimyaçı alimlərimiz müasir dövrün çağırışlarına uyğun olaraq və Azərbaycan Respublikasının 2030-cu ilə qədər sosial-iqtisadi inkişaf strategiyasının qarşıya qoyduğu tələbləri əsas götürərək yeni uğurlar qazanmaq üçün bütün imkanlarından istifadə edəcəkdir.

***Dilqəm TAĞIYEV,***
***AMEA-nın vitse-prezidenti,***
***Kimya elmləri bölməsinin sədri,***
***akademik***

# Cəbrayıl – azadlığına qovuşmuş ilk Qarabağ şəhərimiz

*Düşmənin müqavimətini qırmış şanlı qələbə*

**Prezident İlham Əliyev 2020-ci il oktyabrın 4-də Cəbrayıl şəhəri və rayonun 9 kəndinin işğaldan azad edilməsi münasibətilə xalqa müraciətində bu əlamətdar tarixi hadisədən dörd il əvvəl uğurlu əməliyyatla azad edilən yüksəkliklərin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin yenidən qurulmasına şərait yaratdığını, qısa dövr ərzində burada müasir qəsəbə salındığını və məskunlaşma aparıldığını bildirdi.**




Dövlətimizin başçısı vurğuladı ki, Cocuq Mərcanlının düşməndən alınması və burada hər cür şəraiti olan müasir yaşayış sahəsi yaradılması xalqımızın yenilməz iradəsinin rəmzi idi. Eyni zamanda, bu, həm də Azərbaycan xalqının heç vaxt işğalla barışmayacağını göstərdi və keçmiş məcburi köçkünlərimizdə işğal edilmiş digər torpaqlara qayıdış əminliyini daha da möhkəmlətdi.

Ölkə rəhbəri xalqa müraciətində bildirdi ki, Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır. Artıq bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, işğalçını yerinə oturdur, onları canı-qanı bahasına torpaqlarımızdan qovur.

Prezident İlham Əliyev Vətən müharibəsinin gedişinə də toxunaraq bu gün xalqımızın və dövlətimizin yeni şanlı tarixinin yazıldığını, tarixi ədalətin bərpa edildiyini diqqətə çatdırdı: "Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində – 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar".

Dövlətimizin başçısı sözügedən müraciətində sabaha böyük ümidlə baxdığını, Vətən savaşının qalibiyyətlə başa çatacağını, işğalçının yerlə bir etdiyi bütün şəhərlərin, kəndlərin bərpa olunacağını da əminliklə vurğuladı. Bu fikrin səsləndirilməsindən ötən müddətdə Qarabağ və Şərqi Zəngəzurda geniş miqyaslı bərpa – quruculuq layihələri gerçəkləşdirilib, xalqımızın dağıdılan, sıradan çıxarılan tarixi-mədəni irsinin böyük hissəsi dirçəldilib. İşğaldan azad edilən bölgələr canlandırılıb, düşmənin saxtalaşdırdığı tarixi adlarımız bərpa olunub.

Prezident İlham Əliyev xalqa müraciətində daha sonra dedi: "Bu gün Azərbaycan xalqı, eləcə də cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər. Dünən bizim qədim yaşayış yerimiz – Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını töküb. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi...".

Dövlətimizin başçısı sözügedən müraciətində digər qaçqın və məcburi köçkün soydaşlarımıza üz tutaraq onların da tezliklə həsrətinə son qoyulacağını, dədə-baba torpaqlarına güc yolu ilə qaytarılacağını bildirdi. Ali Baş Komandan fikrinin davamında bu məsələnin uzun illər danışıqlar yolu ilə həll olunmasını istədiyini, bu məsələdə səbir, təmkin göstərildiyini xatırlatdı.




Ölkə rəhbəri danışıqlarda Azərbaycanın həmişə ədalətli mövqedə dayandığını, haqqımızın tələb olunduğunu, başqasının torpağına heç vaxt göz dikmədiyimizi də vurğuladı: " Demişik ki, bu, bizimdir, xalqımızındır, millətimizindir, bizə qayıtmalıdır, danışıqlar yolu ilə qayıtmalıdır. Amma bu danışıqlar faktiki olaraq münaqişənin dondurulmasına gətirib çıxarmışdır. Yəni, buna hesablanmışdır. Otuz il ərzində danışıqlar gedə bilərmi?! Otuz il ərzində Azərbaycan xalqını belə vəziyyətdə saxlamaq olarmı?! Otuz il ərzində biz ümidlə yaşayırdıq ki, beynəlxalq birlik bu məsələni həll edəcək. Bu məsələnin həlli ilə məşğul olan ölkələr, beynəlxalq təşkilatlar öz sözünü deyəcək. Dünyanın ən ali beynəlxalq orqanı – BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərəcək. Bu qətnamələr 27 ildir kağız üzərindədir".

Bəli, Azərbaycan 27 il ərzində – danışıqların bütün dövrlərində konstruktiv mövqe tutub, ədalətli mövqe nümayiş etdirib. Bunun müqabilində isə ədalətsizliklə üzləşib, təcavüzkar daha da azğınlaşıb. İşğalçının tamahı isə daha da böyüyüb, dədə-baba torpağımıza göz dikib. Nəticədə işğal etdiyi bütün yaşayış məntəqələrini qondarma "Dağlıq Qarabağ respublikası"na aid edib, hazırladığı yeni xəritələrdə tapdaq altına saldığı bütün torpaqları keçmiş Dağlıq Qarabağın ərazisi kimi göstərib. Daha sonra isə bir qarış torpağı Azərbaycana qaytarmayacağını həyasızcasına bəyan edib.

Əlbəttə, bütün bu qeyd olunanlar danışıqlar mövzusuna zidd idi. Başqa sözlə, aparılan danışıqlarda Azərbaycanın əsas ümidverici məqamı açıq – aydın diqqətə çatdırılırdı. Yəni işğal edilmiş torpaqların sülh yolu ilə mərhələli şəkildə sahibinə – Azərbaycana qaytarılması əsas şərt idi. Belə ki, ilk mərhələdə 5, daha sonra isə 2 rayonun qaytarılması, məcburi köçkünlərin bu əraziyə – keçmiş Dağlıq Qarabağa, eləcə də Şuşaya köçürülməsi qarşıya mühüm vəzifə kimi qoyulurdu. Bu, beynəlxalq hüququn bütün normalarına uyğun olan ədalətli bir mövqe idi. Amma son nəticədə danışıqlarda irəli sürülən belə bir dinc, eyni zamanda, ədalətli yolun, necə deyərlər, qulaqardına vurulduğu göründü.

Prezident İlham Əliyevin xalqa müraciətində deyildiyi kimi, Ermənistan bu yolla xalqımızın iradəsini sındırmaq istəyirdi. Eyni zamanda, Azərbaycana qarşı yeni müharibəyə başlamaq istəyi də açıq aşkar nəzərə çarpırdı. Bunu Vətən müharibəsindən əvvəl yaranmış vəziyyət də aydın göstərirdi. Belə ki, 2020-ci ilin iyul ayında heç bir səbəb olmadan Azərbaycanın Tovuz şəhəri və digər yaşayış məntəqələri atəşə tutuldu, hərbçilərimiz, mülki vətəndaşlarımız həlak oldu. Bundan başqa, avqustda ərazimizə diversiya qrupu göndərildi və o qrupun başçısı zərərsizləşdirildi. Saxlanılan zaman isə terror aktları törətmək üçün göndərildiyini bildirdi.

Həmin günlərdə Ermənistanın baş naziri çıxışlarında cəfəng fikirlər də ortaya atır, tarixi saxtalaşdırır, öz xalqını, beynəlxalq ictimaiyyəti aldatmağa çalışırdı. Bir il əvvəl isə o, "Qarabağ Ermənistandır və nöqtə" deməklə bütün danışıqlara zərbə vurmuş, bu prosesin mənasızlığını bir daha təsdiqləmişdi. Danışıqların formatını dəyişdirmək cəhdləri – "Qondarma, oyuncaq xunta rejimi ilə Azərbaycan danışıqlar aparmalıdır" sözləri isə işğalçının Azərbaycana qarşı məram –məqsədini aydın ifadə edirdi. Dövlətimizin başçısı bu hərəkətlərlə bağlı Minsk qrupunun həmsədr ölkələrinə, həmsədr olan səfirlərə, digər beynəlxalq təşkilatlara, Avropa İttifaqının nümayəndələrinə dəfələrlə məlumat verdi, Ermənistana təsir göstərməyin, sanksiyalar tətbiq etməyin zəruriliyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı qeyd edilən yuxarıdakı fikirlə bağlı müraciətində dedi: "Əgər güclü təsir olmasa, Ermənistan daha da azğınlaşacaq, daha da quduracaq, yeni iddialar ortaya atacaq. Eşitmədilər məni. Mən istəyirdim bu məsələ sülh yolu ilə həll olunsun. Eşitmədilər. Hesab edirdilər ki, Azərbaycan xalqı və mən – Azərbaycan Prezidenti bu vəziyyətlə barışacağam?! Hesab edirdilər ki, bizim müqəddəs şəhərimiz olan Şuşa erməni tapdağında qalacaq, mən bununla barışacağam?! Azərbaycan xalqının tarixinə zərbə vuran erməni cəlladları ilə biz danışıqlarmı aparmalıyıq? Azərbaycan xalqı təhqir edildi, Şuşada qondarma rejimin başçısı özünə "andiçmə mərasimi" keçirmişdir. Baxım görüm, indi andiçmə mərasimi harada keçiriləcək, yas mərasimini keçirəcək! İndi qaçıb siçan kimi gizlənib. Çıxsın ortalığa! Ermənistanın baş naziri gedib Şuşada, Cıdır düzündə rəqs edir, hesab edir ki, biz bununla barışacağıq?! Səhv edir! Heç vaxt biz bununla barışmayacağıq".

Ermənistanın həyasızlığı bütün bunlarla kifayətlənmirdi. Azərbaycan lideri yuxarıda adı çəkilən müraciətində o dövrdə qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentinin Şuşaya köçürülməsini haqlı olaraq xalqımızı təhqir etmək cəhdi kimi bildirir, Cəbrayıla Ermənistandan yeni yolun çəkilməsi və orada qanunsuz məskunlaşma aparılacağı vədini bağışlanmaz hal kimi vurğulayaraq deyirdi: "Livandan, başqa yerlərdən erməniləri gətirirlər, köçürürlər bizim qədim şəhərimizə, Şuşada yerləşdirirlər, televiziyada göstərirlər, beynəlxalq konvensiyaları pozurlar, Cenevrə Konvensiyasını tapdalayırlar. Bunlara söz deyən var?! Tapşırıq vermişəm bütün bizim xarici diplomatik orqanlara – məsələ qaldırın, BMT-də, ATƏT-də, Avropa İttifaqında, başqa təşkilatlara, deyin ki, bu, qanunsuzdur! Qanunsuz məskunlaşma cinayətdir! Buna reaksiya oldu?! Minsk qrupu bir açıqlama verdimi?! Vermədi! Avropa İttifaqı verdimi?! Vermədi! Dedi ki, bu, bizi maraqlandırmır. Maraqlandırmırsa, indi də maraqlandırmasın. İndi nə əl-ayağa düşmüsünüz? İndi nə hoqqalardan çıxırsınız? Azərbaycana qarşı iftiralar irəli sürülür, bəzi ölkələr, Avropa ölkələri bizi ittiham edirlər. Getsinlər güzgüyə baxsınlar. Bu ittihamların heç bir əsası yoxdur ki, kimsə imkan verməz Azərbaycan Dağlıq Qarabağı fəth etsin. Dağlıq Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!"

* * *

Cəbrayıl işğaldan azad ediləndən sonra bu əzəli-əbədi torpağımızda tikinti-quruculuq, abadlıq layihələrinin icrasına başlandı. Prezident İlham Əliyev tərəfindən 2023-cü il mayın 4-də Horovlu kəndinin təməli qoyuldu . Dövlətimizin başçısı ötən il oktyabrın 3-də isə həmin kənddə fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış oldu. O vaxt Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 60 şagird yerlik tam orta məktəb binası istifadəyə verildi. "Hicaz quşçuluq" müəssisəsinin damazlıq yumurta istehsalı fabrikinin tikintisinə başlanıldı. Azərbaycan liderinin iştirakı ilə "Azərsun Holdinq" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin təməli qoyuldu. Tam istehsal gücü ilə fəaliyyətə başladıqdan sonra bu kompleksdə dövlətimiz tərəfindən imzalanan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" çərçivəsində Cəbrayıl şəhərinə qayıdacaq 300-ə yaxın sakinin işlə təmin ediəcəyi bildirildi.

Zəngin iqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları investorların Cəbrayıla marağını artırıb. Rayonun Qarabağ regionundakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovuşuğunda yerləşməsi və infrastruktura çıxış imkanları ilə bu yerin gələcəkdə bölgənin sənaye mərkəzinə çevrilməsi imkanları genişlənib. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edib.

Xatırladaq ki, dövlətimizin başçısının 2021-ci il 4 oktyabr tarixli fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Sənaye parkının əsas fəaliyyət istiqaməti kimi burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılıb.

***Vaqif BAYRAMOV***
***XQ***

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası: 4 oktyabr

### Zəfər marafonunun 8-ci günü

– "Bu gün Azərbaycan ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!" Prezident, Ali Baş Komandan İlham Əliyev bu barədə özünün rəsmi "Twitter" səhifəsində paylaşım edib.

– Prezident İlham Əliyev xalqa müraciət edib: "Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm. Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!"



– Azərbaycan Prezidenti İlham Əliyev "Əl-Ərəbiyə" televiziya kanalına müsahibə verib. Dövlətimizin başçısı deyib: "Hadisələrin nəzarətdən çıxdığını düşünmürəm, vəziyyət Azərbaycan Ordusunun nəzarəti altındadır. Biz hazırda hücum əməliyyatını həyata keçiririk, bizim məqsədimiz ərazilərimizi azad etməkdir. Mən vasitəçilərə təklif etdim və Ermənistan xalqına da müraciət etdim ki, işğala görə öz hökumətini məsuliyyətə cəlb etsinlər və işğalı dayandırsınlar. Ermənistan buna razı olarsa, demək olar ki, 30 il ərzində qanunsuz olaraq öz nəzarətində saxladığı işğal edilmiş əraziləri boşaltmağa başlasa, müharibə dayanacaq. Bizə müharibə lazım deyil.

Biz 1992-ci ildən bəri danışıqlar prosesində iştirak edirdik. Demək olar ki, bu 30 il ərzində danışıqlar masasında sıfır irəliləyiş olmuşdur. Ermənistan ərazilərimizdən qoşunların tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən Birləşmiş Millətlər Təşkilatının qətnamələrini icra etmək istəmirdi. Əksinə, onların hərbi-siyasi rəhbərliyi yeni torpaqları işğal etməyə cəhd edirdi. Onlar Azərbaycana qarşı hücuma keçməyə cəhd edirdilər və iyul ayında onlar faktiki olaraq yeni hərbi hücuma keçdilər. Beləliklə, biz özümüzü, insanlarımızı müdafiə etməli idik və dünyanın bütün ölkələri tərəfindən tanınan, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyümüzü bərpa etməli idik".



– Prezident İlham Əliyev rəsmi "Twitter" səhifəsində paylaşım edib. Paylaşımda qeyd edilib:"Bu gün Cəbrayıl rayonunun Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Decal kəndləri işğaldan azad edilmişdir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!"

– Ali Baş Komandan, Prezident İlham Əliyev oktyabrın 4-də Birlik komandirlərini – general-mayor Mayis Bərxudarovu, general-mayor Hikmət Mirzəyevi və onların rəhbərlik etdikləri şəxsi heyəti Cəbrayıl şəhərinin və rayonunun 9 kəndinin işğaldan azad olunması münasibətilə təbrik edib. Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb. Dövlətimizin başçısı onlara tapşırıq verib ki, Ali Baş Komandanın təbriklərini korpusların bütün şəxsi heyətinə çatdırsınlar. Mayis Bərxudarov və Hikmət Mirzəyev Ali Baş Komandana öz təşəkkürlərini bildirib, Prezidenti əmin ediblər ki, qarşıya qoyulmuş bütün vəzifələri bundan sonra da şərəflə yerinə yetirəcəklər.

– Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində ordumuzun cəbhədə qazandığı qələbələrlə bağlı paylaşım edib. Paylaşımda deyilir: "Bütün Azərbaycan xalqını və bizim qələbələrimizə sevinən hər kəsi səmimi qəlbdən təbrik edirəm. Vətən yolunda canından keçmiş qəhrəman şəhidlərimizə Allah rəhmət eləsin! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

– Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağı sancılıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, artıq həmin postda Azərbaycan Bayrağı dalğalanır.

– Müdafiə Nazirliyinin məlumatına görə, əks-hücum əməliyyatları çərçivəsində gedən şiddətli döyüşlər zamanı qoşunlarımızın şəxsi heyətinin şücaəti nəticəsində Tərtər rayonunun Suqovuşan və Talış yaşayış məntəqələri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndləri işğaldan azad olunub. Suqovuşan-Ağdərə istiqamətində gedən döyüşlər zamanı düşmənin 77-ci tank taborunun 4 tankı məhv edilib, 3 tankı isə qənimət götürülüb. Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağ atıcı alayının müdafiə sahəsinə ordumuz tərəfindən artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilib. Düşmənin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. Həmin alayın bir neçə bölməsinin şəxsi heyəti döyüş mövqeyini tərk edərək qaçıb.

***Mustafa KAMAL***
***XQ***

*Vətən müharibəsi qəhrəmanları*

# “Zəfər yürüşü”nün igid tabor komandiri

**Həmlə taboruna komandirlik edən kapitan Cavid Mahmudov öz əsgərləri ilə şanlı “Zəfər yürüşü”nə Füzuli rayonunun Əhmədbəyli kəndi istiqamətində əks-hücum əməliyyatlarına qoşulub. Oradakı erməni silahlı qüvvələri Azərbaycan taborunun qırımından qorxaraq itki verə-verə xeyli geri çəkiliblər. Sonra kapitan və əsgərləri daha ağır döyüşlərdə iştirak edib, yağıları torpaqlarımızdan qovublar. Hünərvər zabit döyüş meydanında şəhadətə ucalandan sonra ona Vətən Müharibəsi Qəhrəmanı adı verilib.**



Biləsuvar yetirməsi olan əfsanəvi qəhrəman Mübariz İbrahimovun 2010-cu ildə dünyaya səs salan cəsurluğu Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini yenicə bitirmiş 21 yaşlı Cavidi də əməlli-başlı duyğulandırmışdı. Leytenant kimi Daşkəsəndə, sonra Tovuz, Göygöl və Abşeron rayonlarındakı hərbi hissələrdə qulluğu zamanı eloğlusu Mübarizin layiqli davamçısı olmağa çalışıb. Vətən qarşısında 10 illik qüsursuz xidmətləri ona bu illər ərzində bir çox təltiflər, mükafatlar, medallar gətirib. Ali Hərbi Məktəbin magistr pilləsini də bitirib. Hər dəfə doğma rayona gələndə Mübarizin möhtəşəm qranit heykəlini ziyarət edib, “Darıxma, qardaş, Qarabağı düşməndən təmizləyəcəyik” – deyib.

Nəhayət, o məqam yetişib. Cavid Mahmudov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən ərazilərimizin işğaldan azad edilməsi üçün başlanan Vətən müharibəsinə qəlbən sevinənlərdən olub. Başçılıq etdiyi həmlə taborunun əsgərlərinə “Yalnız irəli!” əmrini verən kapitan, komandanlığın qarşıya qoyduğu tapşırığın icrasını canından üstün tutub. Füzuli rayonu istiqamətində 4 yüksəkliyi alıb və ermənilərin orada qurduğu istehkamları yararaq keçib. Cavid əks-hücum əməliyyatlarında alınan bütün yüksəkliklərə bayrağımızı özü sancıb. Oktyabrın 5-də həyata keçirilən həmlə zamanı çoxsaylı əsgərləri mühasirədən xilas edə bilib. Növbəti – 5-ci yüksəklikdə bayrağımızı ucaldarkən isə qəfil düşmən gülləsinə tuş gəlib və əbədiyyətə qovuşub.

**Cavidin qardaşı Nəbi Mahmudovun dedikləri:** “O, şəhid olandan sonra Füzuliyə getmişdim. Yarıb keçdiyi sədlər, istehkamlar mənə göstəriləndə hədsiz qürur hissi keçirdim. Özümdən asılı olmayaraq, qardaşıma və əsgərlərinə “afərin” söylədim. Çünki sədlərin hər biri elə möhkəm, elə keçilməz olubmuş ki, dəf eləmək hər adamın işi deyilmiş. Bir daha əmin oldum ki, mümkünsüzü qanları, canları bahasına mümkün edən oğulları olan Vətən basılmaz”.

İgid kapitanın döyüşlərdə göstərdiyi misilsiz rəşadət “Vətən Müharibəsi Qəhrəmanı”, həmçinin, “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə rəğbətləndirilib. Bir qədər sonra isə Biləsuvar rayonu Uşaq-Gənclər İdman-Şahmat məktəbinə qəhrəmanın adı verilib.

Cavidin həm anası, həm də sinif müəllimi olan Nəsibə xanım onun toy karvanını görmək istəyirdi, ancaq qapılarına gələn şəhid karvanı oldu... Bir ildən bəri nişanlısının gözünü yolda qoyan tabor komandiri, kapitan Cavid Mahmudov noyabrda özünə toy edib, onunla ailə həyatı quracaqdı. Amma Vətən sevgisini hər şeydən uca tutdu. Nəsibə müəllim deyir ki, övlad itkisinə dözmək nə qədər ağır olsa da, Vətən borcunu şərəflə yerinə yetirdiyi üçün haqqımı ona halal etmişəm”.

Bəli, Cavidin uğrunda “uf” demədən canını qurban verib şəhid olduğu torpaqlarımız bu gün tam azaddır. Azərbaycan xalqı və dövləti düşmən üzərində parlaq, inamlı qələbə qazanmaqla öz gücünü dünyaya nümayiş etdirdi. Cavidin ailəsi, dostları, tanışları təskinliyi onda tapırlar ki, bu tarixi zəfərdə onun da layiqli payı var.

***Ə.DOSTƏLİ***
***XQ***

# Cəsur xüsusitəyinatlı

**Türkay Nizami oğlu Hüseynli müddətli həqiqi hərbi xidmətini 2009-2010-cu illərdə Daxili Qoşunların Naxçıvanda yerləşən “N” saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində keçib. Hərbi xidmətini başa vurduqdan sonra isə elə həmin hərbi hissənin xüsusi təyinatlı dəstəsində qalaraq, 2012-ci ilin iyulunadək Vətənə borcunu yerinə yetirib.**



O, zabit kimi xidmətini davam etdirmək arzusu ilə 2012-ci ildə Daxili Qoşunların zabit hazırlayan Orta İxtisas Hərbi Məktəbinə daxil olub. 2014-cü ildə bu hərbi təhsil ocağını bitirərək leytenant hərbi rütbəsi alan Türkay Hüseynli zabit kimi qoşunların Quba rayonunda yerləşən “N” saylı hərbi hissəsində fəaliyyətə başlayıb. 2019-cu ilin fevralınadək burada müxtəlif bölmələrin tərkibində taqım və qrup komandiri vəzifələrində çalışıb. Yüksək döyüş hazırlığı, nümunəvi və fərqlənən hərbi qulluqçu kimi “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli medalla təltif edilib.

Türkay Hüseynli xidmət etdiyi dövrdə iki dəfə Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Jandarm Komando Məktəblərində və Təlim Mərkəzi Komandanlığında gizir və zabit komandir kurslarında təhsil alıb. 2019-cu ilin iyulundan etibarən Daxili Qoşunların Sumqayıt şəhərindəki “N” saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun komandiri vəzifəsində xidmət edib.

**Daxili Qoşunların “N” saylı hərbi hissəsində “Əqrəb” şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri mayor Ələsgər Muxtarov vaxtilə birgə xidmət etdiyi qrup komandirinin mərdliyi və qorxmazlığı haqqında bu gün də ağızdolusu danışır:**

– 44 gün davam edən Vətən müharibəsində dəstəmizin 6 nəfər hərbi qulluqçusu qəhrəmancasına vuruşaraq şəhid olub. Onlardan biri də qrup komandiri kapitan Türkay Hüseynlidir. O, istər nəzəri, istərsə də keçirilən bütün praktiki məşğələlərdə ən fəal qrup komandirlərindən biri idi. Qarşıya qoyulan bütün tapşırıqları vicdanla yerinə yetirir, şəxsi heyət üçün hər zaman nümunə göstərirdi. Gözündə heç zaman qorxu olmazdı. Elə döyüşə də gözünü qırpmadan atıldı. Onun qrupu döyüş tapşırıqlarının yerinə yetirilməsində rəşadət göstərdi.

... 2020-ci il oktyabrın 3-də Cəbrayıl istiqamətində gedən döyüş Türkayın son döyüşü oldu. Komandiri olduğu qrupun şəxsi heyəti ilə birgə rayonun Böyük Mərcanlı kəndi ətrafındakı yüksəklikdə düşmənin 30 il ərzində möhkəmləndirilmiş birinci müdafiə xəttini darmadağın etdi. Ermənilərin xeyli sayda canlı qüvvəsi, eləcə də 8 tankı və 1 topu sıradan çıxarıldı. Lakin düşmənin bu istiqamətdəki ikinci müdafiə səddinin yarılması uğrunda gedən şiddətli döyüş zamanı erməni snayperinin açdığı atəş nəticəsində ağır yaralanan Türkay Hüseynli qəhrəmancasına şəhid oldu. Kapitan 2020-ci il oktyabrın 3-də Bakıdakı İkinci Fəxri xiyabanda dəfn edildi.

Azərbaycan Prezidentinin sərəncamları ilə ölkəmizin ərazi bütövlüyünün bərpası zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, eləcə də vəzifə borcunu ləyaqət və vicdanla yerinə yetirdiyinə görə 3-cü dərəcəli “Rəşadət” ordeni ilə təltif olunub. O, həmçinin “Azərbaycan Bayrağı” ordeni, “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə” medallarına da layiq görülüb.

***M.CƏFƏROV***
***XQ***

# Qarakilsə şəhidləri



**Ata-babaları, ana-nənələri ötən əsrin 90-cı illərində erməni zülmündən baş götürüb əzəli yurd-yuvalarından didərgin düşdülər. Qışın qar-çovğununda Salavartı dağından, Laçın dolaylarından aşıb Azərbaycana pənah gətirdilər. Bir əsrdə neçənci dəfə qaçqınlıq həyatı yaşadılar. Haqdan, ədalətdən əllərini üzmədilər, sabaha ümidlə boylandılar, qundaqda gətirdikləri körpələri isə müqəddəs duyğularla – Vətənə, millətə sonsuz sevgilərlə böyütdülər, Qarabağ – torpaq, yurd uğrunda can fəda etməyin müqəddəsliyini anlatdılar: “Həqiqət yolunda, xalq yolunda, əqidə, əməl, məslək yolunda, Vətən uğurunda qurban gedənlər – şəhid olanlar nura-işığa, küləyə-fırtınaya, qara-yağışa dönüb ölməzliyə qovuşurlar!”**

…Birinci və İkinci Qarabağ savaşlarında Qərbi Azərbaycanın Qarakilsə (Sisian) rayonundan 65 gənc döyüşə atılanda qorxmadı, ölümün gözünə dik baxdı, bununla da nə qədər mərd, qeyrətli olduğunu sübut etdi. Onların bu cəsarəti, bu fədakarlığı erməni qəsbkarlarının savaş meydanından qaçmalarına, fərariyə çevrilmələrinə səbəb oldu.

İndi belə oğulların uyuduğu məzarların önündən ötən ziyarətçilər qeybdən gələn kəlmələri eşidirlər: “Şəhid qəbirlərinin yanından gözüyaşlı keçməyin, qəhərinizi boğun, onlara böyük ehtiramla salam verin, az sonra ürəyinizin döyüntüsündə onların səslərini açıq-aydın eşidəcək, sözlərindən səksənəcəksiniz – biz ölməmişik, biz “qisas qiyamətə qalmaz” andına tapınıb əzəli-əbədi torpağımızı yağı tapdağından xilas etmişik, gözümüzün nurunu, işığını Yerə-Göyə verib, Günəşə tapşırıb, əbədiyyət yolçusuna çevrilmişik, əbədiyyət orbitində qeybə çəkilmişik”.

*

…Sumqayıtın Şəhidlər xiyabanında uyuyan gənclərin – Qarabağın işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə şəhidlik zirvəsinə yüksələn həmvətənlərimizin ziyarətinə gələn qarakilsəlilər – şəhid valideynləri, onların doğmaları, ictimaiyyət nümayəndələri əvvəlcə Şəhidlər xiyabanında ucaldılmış Qalib Əsgər abidəsini, burada dəfn olunmuş şəhidlərin məzarını ziyarət edir, abidə və şəhid məzarları önünə gül dəstələri qoyur, qəhrəman Vətən oğullarının xatirəsini ehtiramla anırlar.

Şair Əvəz Mahmud Lələdağ 27 Sentyabr Anım Günündə Sumqayıtın Şəhidlər xiyabanında bizimlə söhbətində tarix boyu xalqımızın başına gətirilən müsibətlərdən, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, 44 gün ərzində təcavüzkar Ermənistanı təslim olmağa məcbur etməsinin xalqımızın şanlı tarixində xüsusi yer tutduğunu dedi. El ağsaqqalı daha sonra bu gün işğaldan azad edilən ərazilərdə dövlətimizin başçısının rəhbərliyi ilə genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını, doğma yurd yerlərimizə Böyük Qayıdışın uğurla həyata keçirildiyini bildirdi.

***XQ***

**O, yeniyetmə ikən idmanın cəsarət, dözüm tələb edən boks növü ilə məşğul olmuş, yarışlarda dəfələrlə çempionluq qazanmışdı. Bəlkə hərbçi sənətini seçməyində bu amil də mühüm rol oynayıb. Cəmi bir neçə kvadratmetrlik rinqi Vətənin işğal altında olan 17 min kvadratkilometr ərazisinə dəyişməyi qərara alıb və zabit kimi həlledici döyüşlərin başlayacağı vaxtı illərcə həsrətlə gözləyib. Nəhayət, arzusu çin olub və qəhrəmanımız son damla qanına qədər vuruşaraq müqəddəs “fəxri kürsü”yə - şəhadətə yüksəlib.**

# Qələbə soraqlı “gözəgörünməz” zabit



Orxan Nadir oğlu Əkbərovu deyirik. Saatlı şəhərində anadan olub, Biləsuvarda orta məktəbi, Bakıda Ali Hərbi Məktəbi bitirmiş polkovnik-leytenant Orxan Əkbərovu. Düz 15 illik zabitlik həyatında qüsursuz xidmət göstərib. Ağdam və Beyləqan rayonlarında hərbi hissələrdə kəşfiyyat rəisi olub, vətənpərvərliyi, çətin tapşırıqları uğurla icra etmək bacarığı ilə nümunə göstərib. Məlum Aprel döyüşlərində yaxından iştirak edib. 2019-cu ildə “N” saylı kəşfiyyat hərbi hissəsinə komandirlik etdiyi vaxt düşmənin bir neçə silahlı təxribatının qarşısını qətiyyətlə alıb.

2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli cəbhəsində mərdliklə savaşıb. Hər hücum əmri gələndə əvvəlcə özü silaha sarılır, əsgərlərinin önünə düşür, düşmən postlarını, istehkamlarını yerlə-yeksan edirdi. Cəsur komandir əsgərləri ilə birlikdə 100-lərlə yağını “nokaut”a salıb, beyin silkələnməsinə məruz qoyub, torpaqlarımızı zəbt edənlərin dəstə-dəstə meyitini qurd-quşa yem edib. Ələ keçirdiyi hərbi qənimətlər də az olmayıb.

...Kənd Horadiz istiqamətində meşədə çoxsaylı hay xüsusi təyinatlı dəstəsi ilə qəfil üz-üzə gələndə özünü itirməyən komandir dərhal “Silahlara sarılın!” deyərək,10-larla düşmən əsgərinin məhvinə nail olur. Düşmənə kömək üçün tələsən bölüyün silahla dolu 5 avtomobili, 60 nəfərlik canlı qüvvəsi də eyni aqibəti yaşayır. Qeyri-bərabər döyüşdə o, yaralanmış əsgərinin və şəhidinin döyüş meydanında qalması ilə barışmır, həyatını aşkar təhlükəyə ataraq onları oradan çıxarır. Özü kimi, əsgərləri də ölümdən zərrəcə qorxmur, düşmənin cəbhəsini yararkən, “həyatın ən böyük xoşbəxtliyi bu gündür” deyən komandirin ardınca ürəklə gedirlər.

Orxan Əkbərov oktyabrın 2-də Füzuli döyüşləri zamanı düşmənin snayper silahından qəfil açdığı atəşlə şəhid olub. Göstərdiyi qəhrəmanlıq nümunələrinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli sərəncamına əsasən, ona “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib. Az sonra isə “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə” medallarına layiq görülüb.

Bu gün şəhid kəşfiyyat komandiri Orxan Əkbərovun adı gələndə bütün silahdaşları onu qorxmaz vətən oğlu, təəssübkeş qardaş kimi xarakterizə edirlər. Onunla bağlı elə epizodlar danışırlar ki, ölümünə heyfsilənsən də, qəhrəmanlığı ilə qürur duyursan. Deyirlər ki, ən ağır döyüşlərə belə yüksək əhval-ruhiyyədə girir, “İgiddən güllə də qorxar” deyərək, əsgərlərinə daim qələbə əzmi aşılayırdı.

İnişil şəhid polkovnik-leytenantın şəxsi əşyaları və “Əfsanəvi kəşfiyyatçı Orxan Nadir oğlu Əkbərov” kitabı Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fonduna təqdim olunub. Orada şəhidin əmisi Yusif Əkbərov, döyüş yoldaşı polkovnik-leytenant Azər Baxşəliyev, ömür-gün dostu Nuranə Əkbərova onun həyat və döyüş yolundan fəxrlə söhbət açıblar. Biləsuvar şəhəri Uşaq İncəsənət Məktəbinə Orxan Əkbərovun adı verilib. Əbəs yerə deyilməyib ki, igid ölər – adı qalar.

Qeyd edək ki, 2 övladı yadigar qalan şəhidimizin ailəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 3 otaqlı mənzillə təmin olunub. Həyat yoldaşı özünüməşğulluq proqramına cəlb edilib və kiçik ailə təsərrüfatı yaradılıb.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Şəhid hərbi həkim



**Adil Qədir oğlu Əfəndiyev 1995-ci il avqustun 12-də Qazax rayonunda anadan olub. 2012-ci ildə şəhərdəki Mehdi Hüseyn adına humanitar və təbiət fənləri üzrə məktəb-liseyi bitirib. 2018-ci ildə isə Azərbaycan Tibb Universitetinin məzunu olaraq təyinatla Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda hərbi həkim kimi xidmətə başlayıb.**

“N” saylı hərbi hissədə tibb məntəqəsinin rəisi, tibb xidməti leytenantı Adil Əfəndiyev 2020-ci il oktyabrın 22-də Füzuli–Cəbrayıl–Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 25 yaşında əbədiyyət zirvəsinə yüksələn tibb xidməti leytenantının döyüş meydanında göstərdiyi igidlik yüksək qiymətləndirilib. O, ölümündən sonra ölkə Prezidentin sərəncamlarına əsasən, III dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Vətən uğrunda” , “Şuşanın azad olunmasına görə” , “Xocavəndin azad olunmasına görə” , “Füzulinin azad olunmasına görə” və “Hərbi xidmətlərə görə” medalları ilə təltif edilib.

Şəhidin anası Afət xanım deyir ki, oğlunun gələcəklə bağlı çoxlu arzuları var idi: “Rezidenturaya hazırlaşırdı. Deyirdi, evlənmək hələ tezdir, təhsili davam etdirmək zəruridir... Sonuncu dəfə 2019-cu ilin dekabr ayında məzuniyyətə gəlmişdi. 2020-ci ilin avqustunda isə məzuniyyət götürsə də, pandemiya səbəbindən gələ bilmədi. Görüş üçün gün sayırdıq, yenidən gəlməli idi, 25 günü qalmışdı...”.

Ana oğlunun müharibəyə getdiyindən xəbərsiz olub. Afət xanım nigaran qalmasın deyə, Adil cəbhəyə aparıldığını təkcə atasına bildirib və bu barədə anasına heç nə deməməsini dönə-dönə tapşırıb.

Afət xanım söyləyir ki, oktyabr ayının 18-nə kimi telefonla danışırdıq, sonra əlaqə kəsildi. Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etdiyi üçün tez-tez dağa qalxırdılar. Sonuncu dəfə mənə dedi ki, ana, dağa çıxırıq yenə, zəng çatmasa, narahat olma. Mən də ağladım. Dedi ki, niyə ağlayırsan, hər zaman getdiyim yerlərdir, narahat olma, gələcəyəm. Sonra öyrəndim ki, atası onun müharibədə olduğunu bilirmiş.

***Müşfiq CƏFƏROV***
***XQ***



*Zamanın redaktəsi*

# Hardasan, ay poçtalyon?!

*...Sayları azalsa da, çantaları dolmasa da, gərəkliklərini saxlayırlar*

**Texnologiyanın inkişafı həyatımızın bütün sahələrini dəyişdiyi kimi, ünsiyyət vasitələrinə də yeniliklər gətirib. Əvvəllər insanlar bir-birinə yalnız poçtalyonlarla məktub yollayırdılar. Məktubun ünvanına çatması isə bəzən günlər, həftələr, aylar çəkirdi.**

Məktubun qatlanma forması belə göndərənin hisslərini ifadə edirdi. Məsələn, bu-rulmuş məktub "xoşuma gəlirsən" demək idi, üçbucaq formasında qatlanan məktub isə yazanın qarşı tərəfə xüsusi dəyər verdiyini bildirirdi. Kvadrat formada məktub dostluq təklifindən xəbər verirdi. Daha fərqli burulmuş məktub isə görüş təyin etmək niyyəti daşıyırdı. Düzbucaqlı məktub isə ayrılığı simvolizə edirdi. Bir sözlə, yazılanlardan əvvəl məktubun forması artıq cavabı deyirdi. Hər qatlanmış küncdə bir sirr, hər formada bir mesaj gizlənirdi.

İnternet və mesajlaşma proqramları dövründə bu ənənələr unudulmaq üzrədir, "məktub gözləmək" anlayışı demək olar ki, tarixə qovuşub. Elektron poçt, mesajlaşma proqramları və sosial şəbəkələr vasitəsilə yazdığımız hər söz ünvana dərhal çatır. Hətta cavab da çox zaman saniyələr içində gəlir. Ənənəvi məktublar çox vaxt rəsmi və geniş ifadələrlə zəngin olurdu. İndi isə mesajlarda daha qısa, yığcam və emojilərlə müşayiət olunan yazılar üstünlük təşkil edir. İnsanlar hisslərini artıq sözlərlə deyil, simvollar, şəkillər, qısa videolar vasitəsilə də ifadə edirlər.





Bütün bu rahatlıqlara baxmayaraq, bir çox insan üçün məktubun öz yeri var. Əllə yazılmış məktubun xatirəsi, kağızın qoxusu və göndərənin emosiyasını əks etdirən yazı telefon mesajlarının təqdim edə bilmədiyi xüsusi bir duyğu yaradır. Bu səbəbdən, məktub yazmaq daha çox nostalji, xüsusi və rəsmi münasibətlərdə istifadə olunan vasitəyə çevrilib.

Məktublar həm də mətbuatın ən güclü silahlarından biri olub. Xüsusən də, Azərbaycan mətbuat tarixində məktublar oxucu ilə redaksiya arasında körpü rolunu oynayıb. XX əsrin əvvəllərində "Molla Nəsrəddin" jurnalına oxuculardan saysız-hesabsız məktublar gəlirdi. Camaat öz dərdini, rastlaşdığı çətinlikləri "Molla əmi"yə danışır, çıxış yolu axtarırdılar. Jurnalın əməkdaşları isə məktubların izi ilə gedərək problemləri işıqlandırır, çox vaxt da həllinə nail olurdular. Sonrakı dövrlərdə də qəzetlərdə məktublar şöbəsi xüsusi önəm daşıyırdı. Ötən əsrin 80-ci illərində qəzetimizin poçtuna hər gün 3 minədək oxucu məktubu gəlirdi. Redaksiyalara daxil olan şikayətlər müxbirlər tərəfindən araşdırılır, aidiyyəti qurumlara müraciət edilirdi. Çox vaxt müsbət nəticə əldə olunur, idarələr və təşkilatlar qəzetlərin tənqidindən çəkinərək dərhal tədbir görməyə məcbur qalırdılar.

İnsanlar problemlərinin həllini hər gün üz tutduqları sosial şəbəkədən çox, peşəkar jurnalist araşdırmasından gözləyirlər. Lakin, nədənsə, ələ qələmi götürüb məktub yazmağa, sanki, tənbəllik edirlər.

Bir zamanlar kənd və şəhərlərdə insanlar hər gün poçtalyonun yolunu gözləyərdi. Onun gətirdiyi məktub bir sevgi etirafı, bəzən uzaq diyarlardan gələn salam, bəzən də acı xəbər olardı.

Yeri gəlmişkən poçt tariximizə nəzər salsaq. 1818-ci il iyun ayının 1-də Azərbaycan ərazisində ilk poçt rabitəsi yaradılıb. 1826-cı ildə Bakıda, 1828-ci il martın 12-də isə Naxçıvanda poçt ekspedisiyası təşkil edilib. Rusiya ilə Zaqafqaziyanın ticarət əlaqələrini inkişaf etdirmək üçün Azərbaycan ərazisində – Şuşa, Şamaxı, Bakı və Naxçıvanda 1-ci dərəcəli, Gəncə və Qubada isə 2-ci dərəcəli poçt kontorları fəaliyyətə başlayıb. 1861-ci ildə isə ilk dəfə olaraq Xəzər dənizi ilə Qafqazın və İranın Rəşt, eləcə də Astarabad limanları arasında dəniz poçt mübadiləsi olub.

1945-ci ildə Bakıda təşkil olunan Beynəlxalq Poçt Ekspedisiyası beynəlxalq poçt göndərişlərinin çatdırılmasına daha yaxşı nəzarət edilməsinə imkan verib. 1970-ci ildə respublikada poçt rabitəsi müəssisələrinin sayı 3 dəfə artaraq 1590-a, kənd yerlərində isə 1171-ə çatıb. Bundan başqa, məktub korrespondensiyasının sayı 3, bağlamalar 2, qəzet və jurnallar 6,5, poçt marşrutlarının məsafəsi 3 dəfə artaraq 20 min 23 km, avtomobil marşrutlarının sayı 9 dəfə artaraq 1705 min km təşkil edib.

**Poçtalyonlarla bağlı "Azərpoçt"a ünvanladığımız sorğuya isə belə cavab gəldi:** "Azərpoçt" MMC-də hazırda 900-dən çox poçtalyon fəaliyyət göstərir. Poçtalyonların iş rejimi həftə içi 5 gün olmaqla saat 09:00-dan 17:00-a, şənbə günləri isə 09:00-dan 15:00-a qədərdir.

Poçtalyonluq zamanla unudulan peşələr siyahısına daxil edilsə də, reallıq budur ki, hələ bu peşəyə tələbat var. Bu, birbaşa klassik poçt göndərişi olan məktubların mövcudluğu ilə bağlıdır. Belə ki, məktub yeganə poçt göndərişidir ki, ünvana çatdırılması tələb olunur. Əgər məktubun üzərində çatdırılma ünvanı qeyd olunubsa, bu məqam məktubu həmin ünvana çatdırmalı olan əməkdaşa tələbat yaradır. Bu əməkdaş isə yalnız poçtalyon ola bilər".

***Həmsöhbətimiz Minəxanım Mirzəyeva illərdir ki, AZ1073 indeksli poçt şöbəsində poçtalyon kimi xidmət göstərir. O, küçələri, prospektləri çox yaxşı tanıyır. Ağarmış saçları bir ömrün, zəhmətin izidir. Hər çatdırdığı məktubda bir xəbərə, bir müjdəyə şahidlik edib. Yaşlanmasına baxmayaraq, Minəxanım Mirzəyeva bu gün də eyni sevgi ilə işinə davam edir. O, söhbətimiz zamanı dedi:***

– 25 ildən çoxdur ki, poçtalyon işləyirəm. İşə başlayanda yadımdadır, ovaxtkı rəhbərim bildirdi ki, insanların həyatında yaxşı və pis məqamlar həm də bizim məsuliyyətimizdən asılıdır. Çünki çatdıracağın hər məktub, teleqram bir ailənin çoxdan gözlədiyi vacib xəbər ola bilər. Həmin dövrdə ölkəmizin müharibə şəraitində olması məsuliyyətimizi daha da artırırdı. Döydüyüm hər qapıda insanlar məni həyəcanla, tələslə qarşılayırdılar. Xoş xəbər alanda məni qucaqlayıb sevinirdilər. Amma bəzən çox üzücü teleqramlar da çatdırırdım. Hər iki halda insanların hisslərini bölüşürdüm, artıq o insanlarla doğmalaşmışdım. Bəzən ünvanı tapılmayan məktublar da olurdu. Dünyasını dəyişən və ya ünvandan köçən insanlara gələn məktubları geri qaytarırdıq və ya yeni ünvanı bəlli olan vətəndaşlara xidmət göstərən poçt şöbəsinə yönləndirirdik.

Poçtalyon olmaq üçün fiziki aktivliyin, insanlarla ünsiyyət qurma qabiliyyətin əsas şərtlərdəndir. Bu xüsusiyyətlər olmasa, bu işi görmək olmaz. Qəsəbə, kənd və şəhərdə xidmət göstərən poçtalyon eyni məsuliyyəti daşıyır. Lakin şəhər həyatı, yeni binaların tikilməsi, yeni küçələrin adlandırılması bəzən çətinlik yaradır. Kənd və qəsəbələrdə isə iş daha asan olur, çünki insanlar bir-birini tanıyır, o səbəbdən poçt göndərişlərini daha asan və sürətli çatdırmaq olur.

Paytaxtdakı binalarda isə girişlərdə kodlar var, binaya daxil olmaq çətindir, həmçinin vətəndaşların "poçt qutusu" adlandırdıqları "ünvan qutuları" da yoxdur artıq. Amma kənd yeri belədir ki, orada birbaşa qapını döyürsən, evdə mütləq kimsə olur və qapını açaraq təhvil alır.

Poçtalyonlar illərlə insanların sevinclərinə də, kədərlərinə də şahidlik ediblər. Bir məktubla bir ailənin ümidini artırıb, bir teleqramla onlara sevinc gətiriblər. Hər kəsin həyatında "poçtalyon məktub gətirdi" deyə bir xatirə var.

Bir vaxtlar məktublar, bağlamalar, teleqramlar insanlar arasında bir-birinə bağlayır, ünsiyyətlərini təmin edirdi. Göndərilən sovqatlar, hədiyyələr dostlara, qohumlara sevinc bəxş edirdi.

***Ləman TƏHMƏZ***
***XQ***

*Unutsaq – unudularıq*

# Xeyirxah əməllərində yaşayan insan

**Uşaqlıq və yeniyetməlik yaşlarımda qonşu kənddə ədəbiyyat müəllimi işləyən atamın evimizə qonaq gələn yaşlı kişilərlə söhbətlərinə qulaq asmağı xoşlayırdım. Yaxşı xatırlayıram ki, bir dəfə belə söhbətlərin birində Quba rayon partiya komitəsinin birinci katibi vəzifəsindən yenicə Abşeron rayonuna eyni vəzifəyə seçilmiş Şıxseyid Kərimovdan söz düşmüşdü. Böyüklər onun barəsində xoş sözlər deyir, yaxşı işindən, əməllərindən ürək dolusu söz açırdılar.**

O da yadımdadır ki, atamdan yaşca kiçik olan əmim dedi ki, Şıxseyid müəllimi Quba camaatı həm bacarıqlı rəhbər işçi, həm də abırlı, milli əxlaqlı insan kimi tanıyır. Bu sözlərin oradakılar üçün nə qədər dəyərli olduğunu dərhal hiss etdim. Gördüm ki, hamı başını razılıq əlaməti olaraq tərpədir. Sonra kimsə dedi ki, hər rəhbər işçiyə bu qədər el-oba sevgisini qazanmaq nəsib olmur.



O söhbətdən düz 54 il vaxt keçib. Qeyd etmək lazımdır ki, hələ 1950-ci illərin əvvəllərindən uzun illər komsomol, partiya, sovet, təsərrüfat işlərində rəhbər vəzifələrdə çalışan Ş.Kərimov sadəliyi, xeyirxahlığı, təşəbbüskarlığı ilə insanların dərin rəğbətini qazanmışdır. O, artıq dünyada olmasa da, təmiz adı və yaxşı əməlləri ilə yaddaşlarda yaşayır. Bu gün, oktyabrın 4-də Şıxseyid müəllimin anadan olmasının 100-cü ildönümü tamam olur.

O, 1925-ci ildə Quba rayonunun İsnov kəndində Bakıda neft buruqlarında fəhlə işləyən Kərim kişinin ailəsində dünyaya göz açmışdı. İsnovda yalnız ibtidai məktəb olduğundan orta təhsilini 5 kilometr aralıda yerləşən Zərqəva kənd orta məktəbində bitirmişdi. 2-ci sinifdə oxuyanda atası vəfat etmiş, ailə ağır maddi məhrumiyyətlərlə üzləşmişdi. Bir il kənddəki kolxozda briqadir işləmizdi. 1943-cü ildə könüllü orduya getmiş, 7 il şərəflə qoşunlarında xidmət etmişdi.

1947-ci ildə hələ orduda partiya sıralarına daxil olmuş, savadı, biliyi, insanlarla ünsiyyət qurmaq bacarığı nəzərə alınaraq hərbi hissənin komsomol təşkilatının katibi seçilmişdi. 1950-ci ildə əsgəri xidmətdən tərxis olunanda gənc, perspektivi kadr kimi birbaşa Astaraxanbazar (indiki Cəlilabad) Rayon Komsomol Komitəsinin birinci katibi vəzifəsinə seçilməyə göndərilmişdi. Sonra isə Xankəndidə Vilayət Komsomol Komitəsinin katibi vəzifəsində çalışmışdı.

O, çox enerjili və məsuliyyətli insan idi. Hər bir sahədə etimadı doğruldurdu. 1952-ci ildən 1953-cü ilə qədər Azərbaycan KP Mərkəzi Komitəsində komsomol orqanları bölməsinin müdiri, MK-nın məsul təşkilatçısı vəzifəsində işləmişdi. Kiçik fasilələrlə əvvəlcə Sov.İKP MK yanında Ali Partiya Məktəbini (Moskva), sonra isə S.Ağamalıoğlu adına Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunu (Gəncə) bitirmiş, alim-aqronom ixtisasına yiyələnmişdi.

Şıxseyid Kərimov 1953-cü ildən 1957-ci ilin yanvarına qədər Azərbaycan KP MK-nın Dəstəfur (Daşkəsən) rayon partiya komitəsinin birinci katibi olmuşdu. Sonrakı 3 il ərzində Azərbaycan KP MK aparatında məsul təlimatçı, şöbə müdiri vəzifələrində çalışmışdı. 1960-cı ildə Cəlilabad rayon partiya komitəsinin birinci katibi, 1962-ci ildən Salyan Kolxoz-Sovxoz Məhəlli İstehsalat İdarəsində partiya təşkilatçısı olmuşdur. 1962-1966-cı illərdə Azərbaycan KP MK-nın Kənd təsərrüfatına rəhbərlik Bürosunun sədr müavini – Azərbaycan KP MK-nın kənd təsərrüfatı şöbəsinin müdiri vəzifələrində çalışmışdı.

Rəhbər kadr kimi Şıxseyid müəllim özünəməxsus cəsarət və qızğın təşəbbüslə öhdəsinə düşən bütün məsul vəzifələrin yerinə yetirilməsinə nail olmuşdu. Heç vaxt şəxsi mənafeyini düşünməmiş, hərəkət və davranışlarında adi, sıravi vətəndaşlardan fərqlənməmişdi. 1961-ci ildə Cəlilabad rayonunun birinci katibi vəzifəsinə seçiləndə, paytaxtın "Azneft" meydanı yaxınlığındakı 2 otaqlı mənzilini "mən ailəmlə bölgədə yaşayacağam, mənzilim niyə boş qalsın" düşüncəsi ilə hökumətə təhvil vermişdi. 2 ildən sonra o, Bakıya Mərkəzi Komitədə yeni yüksək vəzifəyə təyinat alanda, 6 nəfərlik ailəsi ilə birlikdə bir neçə ay kirayədə qalmağa məcbur olmuşdu.

Şıxseyid Kərimovun qaynar və səmərəli əmək fəaliyyətinin ən parlaq dönəmini 1966-1971-ci illərdə Ş.Kərimov Quba Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində işlədiyi illəri hesab etmək olar. Bu dövrdə rayonda bağçılığın inkişafına böyük önəm verilmişdi. Quba rayonunda meyvə bağlarında dədə-baba alma-armud sortlarını saxlamaqla, palmet üsulu ilə intensiv bağçılığa start verilmişdi. Bu istiqamətdə atılan addımlar öz müsbət nəticəsini vermişdi. 1970-ci ildə Qubada rekord miqdarda - 40 min tondan çox meyvə toplanmışdı.

O dövrdə Qubada vüsətlə abadlıq-quruculuq işləri də aparılmışdı. Qəçreş, Xoşnı və Afurca bulaqlarının yanında istirahət zonaları yaradılmışdı. II Dünya müharibəsində həlak olan əsgərlərin xatirəsinə memorial abidələr ucaldılmışdı. "Qızbənövşə" meşə parkı salınmış, şəhərdə stadion yaradılmışdı. 50 kilometrdən çox uzunluğu olan Quba–Alpan–Susay–Xınalıq avtomobil yolu çəkilmişdi. Birinci və İkinci Nügədi, Pirvahid, İsnov, Zərqəva, Küpçal kəndlərinə gedən yollar təmir edilərək genişləndirilmişdi. 1967-ci ildə dəniz səviyyəsindən 2 min 300 metr yüksəklikdə yerləşən Xınalıq kəndinə işıq çəkilmiş, sakinlərin evlərində ilk dəfə elektrik lampaları yandırılmışdı.

Quba şəhərinin özündə də böyük abadlıq işləri görülmüşdü. A.Bakıxanov adına kinoteatr binası istifadəyə verilmişdi. Rayon mərkəzində Mədəniyyət sarayı, Univermal mağaza inşa edilmiş, 2 beşmərtəbəli bina tikilmişdi. Şəhərin mərkəzində istirahət parkı, geniş meydan düzəldilmişdi. Qubadan Xaçmaza gedən magistral yolda 3 kilometrlik ikitərəfli prospekt salınmışdı. Bununla da ərazidə çox sayda avtomobil qəzalarının qarşısı alınmışdı.

Bu yerdə qeyd etmək lazımdır ki, Ş.Kərimov təkcə doğulub boya-başa çatdığı Quba rayonunda deyil, əvvəllər birinci katib vəzifəsində işlədiyi Daşkəsən və Cəlilabad rayonlarında da eyni şövq və əzmlə geniş tikinti-quruculuq, abadlıq işlərinin aparılmasının təşəbbüskarı olmuşdur. Qubadan sonra 1971-ci ildən 1973-cü ilədək Abşeron rayon partiya komitəsinin birinci katibi vəzifəsində çalışdığı dönəmdə bu rayonun da sosial-iqtisadi, mədəni həyatında canlanma, ruh yüksəkliyi müşahidə olunmuşdur.

Sonrakı illərdə Ş.Kərimov Azərbaycan Təbiəti Mühafizə Komitəsində, Respublika Könüllü Balıqçılar və Ovçular Cəmiyyətində məsul vəzifələrdə çalışmışdı. O, VI, VII və VIII çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, Sov.İKP-nin XXII və XXIV qurultaylarının nümayəndəsi seçilmişdi. Səmərəli əmək fəaliyyətinə görə "Qırmızı Əmək Bayrağı" ordeni və çox sayda medallarla təltif olunmuşdu.

Şıxseyid müəllim xalqımızın 1991-ci ilin oktyabrında öz müstəqilliyinə qovuşmasına çox sevinmişdi. Lakin bir müddət sonra ölkəmizi idarə edənlərin səriştəsizliyi səbəbindən respublikamızda xaos və özbaşınalığın baş alıb getməsindən, düşmənin namərdcəsinə bundan istifadə edərək Qarabağımızı öz caynağına keçirməsindən çox narahat olmuşdu. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışını ürəkdən o da alqışlamış, bu dahi siyasətçinin böyük xilaskarlıq missiyasını fəal surətdə dəstəkləmişdir.

Şıxseyid Kərimov 1995-ci ilin oktyabrın 6-da 70 yaşında dünyasını dəyişmişdir. Quba rayonunda nəşr olunan "Şəfəq" qəzetində dərc olunan nekrologda qeyd olunurdu ki, Şıxseyid müəllim onu yaxından tanıyanların qəlbində sadə və vicdanlı insan kimi qalmışdır. O, həyatın mənasını nə yüksək vəzifədə, nə də şan-şöhrətdə axtarmışdı. Sədaqətli həyat yoldaşı Ərmənisə xanımla 42 il birgə xoşbəxt ömür sürmüşdürlər. Ailənin bütün 6 övladı ali təhsil almış, bilik və savadları, nümunəvi davranışları ilə cəmiyyətdə hörmət qazanmışlar.

Tanınmış yazıçı-publisist Nurəddin Faxralı redaktoru olduğu "Yurd sevgisi" jurnalının 2018-ci il aprel nömrəsini Ş.Kərimovun parlaq ömür yoluna həsr etmişdir. "Şıxseyid dünyasi" adlanan həmin nəfis buraxılışda Ş.Kərimovun özünün qələmə aldığı xatirələri ilk dəfə işıq üzü görmüşdür. Bu, çox səmimi və kövrək qeydlərin "Çox sevərdim, xoşlardım..." bölümündə müəllif həyatda 16 ən çox sevdiyi məqamı sadalayır. Onlardan biri "Meşələrdə bir bulağa rast gələrkən onu xəzandan təmizləmək" adlanır.

Mənə elə gəlir ki, bu, ilk baxışda adi görünən bu xoş duyğunun Şıxseyid Kərimovun mənalı həyat yolu ilə səsləşən dərin rəmzi mənası var. Axı o, erkən yeniyetməlik illərində doğma kəndi İsnovun dağ və meşələrinin yamaclarında payızın saralmış yarpaqları altında gizlənən çeşmələri taparaq üzə çıxaranda necə sevinibsə, bir o qədər də əlində imkan və səlahiyyətlər olanda insanlara yaxşılıq etməkdən zövq almışdır. Sadə, xeyirxah və vicdanlı insan olmaq amalı ona həyatını dolğun və mənalı yaşamağa imkan yaratmışdır.

Şıxseyid Kərimov yüksək mənəviyyat adamı idi. Bu günün özündə də bir vaxtlar rəhbər vəzifələrdə çalışdığı bölgələrdə, əmək kollektivlərində, geniş ictimaiyyət arasında onun əziz xatirəsi dərin hörmətlə anılır, haqqında səmimi, xoş sözlər deyilir. Ömrü boyu etdiyi təmənnasız yaxşılıqlar, qurub-yaratdıqları yada düşür. Ruhu şad olsun!

***Məsaim ABDULLAYEV***
***XQ***

*Sağlamlıq*

# Əncir ömrü necə uzadır?

**Əncir qədim Yunanıstanda və Romada sağlamlıq və uzunömürlülüklə əlaqələndirilir. Meyvənin əla lif, A, B, xüsusilə B6 və C vitaminləri, eləcə də bir çox həyati minerallar – kalsium, kalium, maqnezium, manqan, sink, mis, fosfor və dəmir mənbəyi olduğu sübut olunub.**

Təzə əncirin kalorisi nisbətən az olsa da, qurudulmuşu daha şirin və yüksək kalorili, eyni zamanda, yüksək kaliuma malik olur. Bundan əlavə, təzə meyvədə antioksidantlar, hüceyrələri sərbəst radikalların zədələnməsindən qoruyan maddələr var.

Əncir bədənə fayda verən bir çox xüsusiyyətə malikdir.



**1.** Meyvə qədim zamanlardan ənənəvi tibbdə qəbizliklə mübarizə və ümumiyyətlə, həzm funksiyasını yaxşılaşdırmaq üçün istifadə edilib. Bu, əncirin lif və digər prebiyotiklərlə zəngin olması ilə əlaqədardır.

**2.** Hipertoniya və ya xroniki yüksək qan təzyiqi insult və infarkta birbaşa yol-dur. Hipertoniyaya səbəb olan amillərdən biri də qida rasionunda natrium və ya duz çoxluğu ilə birlikdə kalium çatışmazlığıdır. Əncir kaliumla zəngin olduğundan bu balanssızlığı düzəldir, lif bədəndən artıq natriumun çıxarılmasına kömək edir.

**3.** Əncir təkcə kalium deyil, həm də kalsium mənbəyidir. Bu minerallar birləşdirildikdə, sümük sıxlığını artırmaq üçün çox faydalıdır, bu da osteoporozun (kövrək sümüklərin) qarşısını almağa kömək edir və buna görə də sınıq riskini azaldır.

**4.** Meyvə saçları qorumaq üçün vacib olan dəmirlə zəngindir. Eyni səbəbdən, əncir dəmir çatışmazlığı anemiyası olan xəstələrə də tövsiyə olunur.

5. Əncirin tərkibində iltihab əleyhinə xüsusiyyətlərə malik birləşmələr var. Onlar iltihab yaradan sitokinlərin – immun molekulların fəaliyyətini bloklayır. Buna görə də ənənəvi tibbdə əncir öskürək, boğaz ağrıları (meyvəsi isti südlə dəmlənir) və qızdırmasalıcı kimi istifadə olunur.

Əncirin sağlamlıq faydaları elmi cəhətdən tam araşdırılmasa da, sübut olunub ki, bu meyvədə olan bioaktiv birləşmələr çəki idarə etməyə, diabet xəstələrində qan şəkərinin səviyyəsini aşağı salmağa, qaraciyər və mədəaltı vəzi funksiyalarını yaxşılaşdırmağa qadirdir.

***Z.HÜSEYNLİ***
***XQ***

*XI Bakı Beynəlxalq Kitab Sərgisi*

# Kitablar ölkələrə mənəvi körpü salır

**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində start götürən XI Bakı Beynəlxalq Kitab Sərgisinin 3-cü günündə rəsmi qonaq olan Qətər Dövləti stendinin təqdimatı keçirilib. Mərasimdə Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və Qətərin mədəniyyət naziri Əbdülrəhman bin Həməd Al Tani iştirak ediblər.**



Nazirlər sərgidə nümayiş olunan stendlərlə tanış olaraq, ekspozisiyanı gəziblər. Onlara müxtəlif ölkələrin ədəbiyyat və mədəniyyət nümunələri haqqında ətraflı məlumat verilib.

* * *

Sərgi çərçivəsində akademik Əhəd Canəhmədovun "Mühəndislik təfəkkürünün təkamülü" kitabının təqdimatı olub. Akademik kitabın ərsəyə gəlməsindən danışıb, bildirib ki, kitabda mühəndislik təfəkkürünün qədim dövrlərdən bu günə qədər keçdiyi inkişaf mərhələləri sadə və maraqlı formada izah edilir.

O vurğulayıb ki, orta əsrlərdə Şərqdə və Avropada biliklərin formalaşması dövründə mühəndislik düşüncəsinin az öyrənilmiş mərhələləri də oxucuya təqdim olunur. Müəllif göstərir ki, bu təfəkkürün inkişafı ümumilikdə dünya mədəniyyətinin yüksəlişi üçün mühüm əhəmiyyət daşıyır.

Təqdimatda Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin baş direktoru akademik Natiq Cavadov, Milli Aviasiya Akademiyasının Nəqliyyat texnologiyaları fakültəsinin dekanı, dosent Nazim Nağıyev, professorlar Mehman Həsənov və Elçin İsgəndərzadə kitabın əhəmiyyətindən söhbət açıblar. Qeyd olunub ki, kitab mexanika və fizika sahəsində biliklərini artırmaq istəyənlər, mühəndisliyə maraq göstərənlər, eləcə də elm və texnika tarixini öyrənmək arzusunda olan hər kəs üçün faydalı ola bilər.



* * *

Sərgidə Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə görkəmli bəstəkar, musiqişünas, Şərqdə ilk operanın müəllifi Üzeyir Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" kitabının Özbəkistan nəşrinin təqdimatı olub.

Mərkəzin direktoru Akif Marifli kitabın özbək dilində nəşrinin təkcə musiqişünaslıq baxımından deyil, bütövlükdə Azərbaycan və Özbəkistanın mədəni həyatı üçün əlamətdar hadisə olduğunu qeyd edib.

Filologiya üzrə fəlsəfə doktoru Jalə Cəfərova və sənətşünaslıq üzrə fəlsəfə doktoru Könül Əhmədova çıxışlarında əsərin Özbəkistanda konservatoriya və musiqi institutlarında tədris vəsaiti kimi istifadə oluna biləcəyini qeyd ediblər. Bildirilib ki, bu nəşr Şərq musiqi məktəbinin dünya mədəniyyətinə təsirinin öyrənilməsinə yeni imkanlar açır. Özbəkistan–Azərbaycan Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinov kitabın özbək dilində nəşrinin həm də rəmzi məna daşıdığını vurğulayıb.



* * *

Sərgidə mədəni əməkdaşlığın davamı olaraq, tanınmış özbək yazıçısı Javlon Jovliyevin özbək dilində yazdığı "Qorxma" romanının təqdimatı keçirilib. Mərasim ölkəmizin Özbəkistandakı səfirliyinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə təşkil olunub.

"Qorxma" romanı çağdaş özbək ədəbiyyatında mühüm mərhələ hesab olunur və 2021-ci ildə Özbəkistanda "İlin kitabı" seçilib. 2024-cü ildə isə romanın motivləri əsasında eyniadlı sənədli film çəkilib.

Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli təqdimatın Bakıda keçirilməsinin oxucular üçün təkcə yeni kitabla



tanışlıq imkanı deyil, həm də regional ədəbiyyatda müasir mövzuların tədqiqi baxımından mühüm mədəni platforma olduğunu vurğulayıb. O qeyd edib ki, roman tarixi yaddaşla müasir reallıqları bir-biri ilə mükəmməl şəkildə bağlayır: Bir tərəfdən XX əsrin mürəkkəb dövrləri ilə bağlı kollektiv yaddaşa müraciət edir, digər tərəfdən isə gənclərin şəxsiyyət, daxili azadlıq və sosial məsuliyyət axtarışlarını araşdırır.

Romanın müəllifi Javlon Jovliev isə çıxışında "Qorxma" romanının insanın özünü kəşf etmək, keçmişi dərk etmək və gələcəyə baxmaq kontekstində keçdiyi yol haqqında olduğunu qeyd edib. O, Bakıda oxucu auditoriyası ilə görüşü ədəbiyyatın birləşdirici gücünün, sərhədləri aşmaq qabiliyyətinin təsdiqi kimi qiymətləndirib.

***Arzu ƏLİYEVA***
***XQ***

# "Gələcək çox tez gələcək"



**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında Azərbaycanın daimi təmsilçisi, texnika üzrə fəlsəfə doktoru İbrahim Nəbioğlunun "Gələcək çox tez gələcək" kitabının təqdimat mərasimi keçirilib.**

Milli Məclisin sədr müavini, Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov mərasimi açaraq İbrahim Nəbioğlunun şəxsiyyəti, dərin və çoxistiqamətli yaradıcılığı, özünəməxsus üslubu və müraciət etdiyi mövzular barədə danışıb.

O, İbrahim Nəbioğlunu çağdaş Azərbaycan maarifçiliyinin görkəmli simalarından biri kimi qiymətləndirərək, onun ziyalı ailəsində dünyaya gəldiyini, cəmiyyətdə daim yazıb-yaratmaq həvəsi, zəngin yaradıcılıq enerjisi və maarifçilik eşqi ilə seçildiyini xüsusi vurğulayıb. Bildirib ki, İbrahim Nəbioğlu uzun illər Azərbaycan Dövlət Televiziyasının ilk Türkiyə təmsilçisi kimi səmərəli fəaliyyət göstərib, həmçinin BBC-nin Orta Asiya və Qafqaz müxbiri, Rus xidmətlərinin Türkiyə üzrə müxbiri olub. O, yerli və xarici mətbuatda yüzlərlə məqalənin müəllifi, 20-dən çox sənədli filmin ssenari müəllifi və redaktoru, müxtəlif qəzetlərin köşə yazarıdır.

Akademik Rafael Hüseynov İbrahim Nəbioğlunun siyasi-ictimai fəaliyyətinə də toxunaraq, onun Azərbaycanın İstanbuldakı Baş Konsulu kimi dövlətçiliyə sədaqətlə xidmət etdiyini vurğulayıb.

Muzeyin direktoru İbrahim Nəbioğlunun 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin televiziya verilişlərində tarixi Zəfərlə bağlı çıxışlar edərək Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırdığını bildirib. Qeyd olunub ki, İbrahim Nəbioğlu dövrünün, yaşadığı zamanın nəbzini tuta bilən, cazibəsi ilə heyran etməyi, düşündürməyi bacaran istedadlı qələm sahibidir. Natiq dərin biliklərin, dəqiq elmi məlumatların toplandığı "Gələcək çox tez gələcək" kitabını gələcək nəsillər üçün dəyərli informasiya mənbəyi kimi dəyərləndirib, müəllifə yeni yaradıcılıq uğurları arzulayıb.

Milli Məclisin deputatı Fazil Mustafa, Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, professor Solmaz Rüstəmova-Tohidi, filosof, təhsil eksperti, professor Şahlar Əsgərov, Əməkdar incəsənət xadimi, Azərbaycanın Xalq artisti, tanınmış teatr, kino və televiziya rejissoru Ramiz Həsənoğlu, Alman–Azərbaycan Cəmiyyətinin sədri, professor Çingiz Abdullayev, bəstəkar, şair və naşir Rasim Müzəffərli və digərləri çıxış edərək nəşrlə bağlı fikirlərini bölüşüblər.

Çıxışlarda kitabın təqdimatının elmi ictimaiyyət üçün mühüm mədəniyyət hadisəsi olduğu bildirilib. Qeyd olunub ki, akademik Rafael Hüseynovun "Ön söz" yazdığı yeni nəşr akademik Azad Mirzəcanzadənin xatirəsinə ithaf olunub. Azərbaycan intellektual mühitində mühüm yer tutacaq bu kitab gələcəyə çağırış, dəyərlər toplusu olmaqla yanaşı, maarifçilik ənənələrinin bərpası və intellektual mədəniyyətin inkişafı baxımından əhəmiyyətlidir.

***Qabil ƏLİYEV***
***XQ***

*Sənət fədailəri*

**Nədənsə, hər zaman Gəncə Dövlət Milli Dram Teatrının binasına daxil olarkən burada olan ab-hava mənə bir çox sənətkarları xatırladır. Bəlkə də əksəriyyətini həyatda və səhnədə gördüyüm üçün onları tez-tez yad etməli oluram. Onlardan biri olan Rza Nadirov tipik xarakterlər ustası kimi yaddaşlarda yaşayır. Obrazlarından asılı olmayaraq və hansı rolda oynamasına baxmayaraq, öz ifaçılıq məharətilə daim diqqət mərkəzində olmağı bacarırdı. O, hər zaman səhnədə xarakterik surətləri böyük ustalıqla ifa edirdi. Deyim ki, həm də təbiətcə çox ciddi insan idi. Heç zaman artıq bir kəlmə belə danışmaz, zarafatları xoşlamazdı. Xarakterində olan qürur yaratdığı obrazlara da sirayət edirdi.**

# Gəncənin unudulmaz aktyoru

Gəncə Dövlət Milli Dram Teatrının qocaman səhnə ustalarından biri, respublikanın əməkdar artisti, mərhum Rza Nadirovu tanıyan hər kəs təsdiq edər ki, o öz sənətkar qürurunu ömrünün sonuna kimi qoruyub, saxlaya bildi. Onunla səhnədə işləyən rejissorlar yaxşı bilirdilər ki, obrazın mahiyyət etibarı ilə xarakterik formada yaradılmasında Rza Nadirovun istedadı kifayət qədərdir. Bununla da məhz Rza Nadirov səhnədə milli aktyor sənətimizin klassik ənənələrinə söykənərək yeni üslubda sənət məktəbi yaratmağa müvəffəq olmuşdur. Sözsüz ki, aktyor üçün istedad ilkin şərtdir, ancaq, səmimiyyət, məlahət, cazibədarlıq, şirinlik olmayanda istedad lazımı yaradıcılıq bəhrəsini tam dolğunluqla göstərə bilmir. Bu baxımdan Rza Nadirov səhnədə də xoşbəxt taleli aktyorlardan idi.



Rza Abbas oğlu Nadirov 10 oktyabr 1912-ci ildə Bakıda anadan olub. Orta məktəbin səkkizinci sinfinə kimi təhsil alıb. Sonradan gəmi



tərsanəsində (tanker və müxtəlif təyinatlı gəmilər istehsal edəcək zavod) çalışıb, eyni zamanda tərsanənin dram dərnəyinə üzv olub. Bir müddət Bakı dəmiryolçular evinin dram kollektivində fəaliyyət göstərib. 1932–1935-ci illərdə Mirzə Fətəli Axundzadə adına Bakı Teatr Məktəbində təhsil aldığı müddətdə müxtəlif mədəniyyət evlərində, Akademik Milli Dram Teatrının yardımçı heyətində çalışıb. 1939-cu ildən isə taleyini Gəncə Dövlət Milli Dram Teatrına bağlayıb. 1941–1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak edib. 1951-ci ildən yenidən Gəncə Dövlət Milli Dram Teatrında fəaliyyətini aktyor olaraq davam etdirib.

İnsana xas olan hissin, iradənin və zəkanın məcmusunu xarakter adlandırırıq. Başqa sözlə ifadə etsək, xarakter insana xas olan hissin, iradənin və zəkanın toplusudur. Əslində, nəticə etibarı ilə xarakter psixoloji anlayışdır. Hər bir obraz isə özlüyündə xarakterdir. Elə bu kimi xüsusiyyətləri də estetik planda götürdükdə, obraz estetik anlayışlı olur. Rza Nadirovun ifasında hər bir xarakterik obraz dramatik əsərlərdə daha çox qarşılıqlı təsirdə, mübarizədə tamaşaçını həyəcanlandıran hadisələrin axınında böyük şövqlə təqdim edilirdi.

Aktyor səhnədə məharətli ifa tərzi ilə xarakterik obrazları hər zaman fabula ilə, dramatik hadisə və situasiyalarla ayrılmaz surətdə bağlaya bilirdi. Onun M.F.Axundzadənin "Hacı Qara"sında Kərəməli və Xəlil yüzbaşı, "Lənkəran xanının vəziri"ndə Səməd bəy, C.Məmmədquluzadənin "Ölülər"ində Hacı Kazım, Ə.B.Haqverdiyevin "Bəxtsiz cavan"ında Üçüncü kəndli, "Pəri cadu"da İblis, S.S.Axundovun "Tamahkar"ında Məhərrəm bəy, H.Cavidin "Səyavuş"unda Yalçın, "Şeyx Sənan"da Şeyx Hadi, C.Cabbarlının "Yaşar"ında Nüsrət, "Aydın"da Pirqulu, "Almaz"da Baloğlan, "Nəsrəddin şah"da Məmiş, "1905-ci ildə"də Polismeyster, "Solğun çiçəklər"də Molla Möhsün, S.Vurğunun "Vaqif"ində Təlxək, "Fərhad və Şirin"də Topal kimi böyük ustalıqla ifa etdiyi obrazlar cərəyan edən hadisələrə uyğun olaraq xarakterlərin baxışında, konfliktlərdə, toqquşmalarda və başqa sınaqlarda inkişaf edə bilirdi. Aktyorun məharətli ifasında ayrı-ayrı xarakterlər ümumi quruluşdan asılı olaraq digər xarakterik obrazlarla əlaqəsi olmasa belə, dramatik fabula bədii gerçəkliklə təqdim edilirdi.

Çağdaş Azərbaycan dramatuqlarının – İ.Əfəndiyevin "Üçatılan"ında hakim, "Atayevlər ailəsi"ndə Cahangir, İ.Səfərlinin "Göz həkimi"ndə Fərəc əmi, M.Təhmasibin "Çiçəkli dağ"ında Simnar xan, Q.Rəsulovun "Əlvida, Hindistan!"ında Böyük Ramo, Ə.Məmmədxanlının "Şərqin səhəri"ndə mayor Ed-Braun, B.Vahabzadənin "Vicdan"ında Əşrəf, Y.Əzimzadənin "Nəsrəddin"ində Əhməd kişi, "Anacan"ında İmran, N.Gəncəlinin "Düşmənlər içində"də Zənci Ceyms, "Məhəbbət körpüsündə"də Kozlov, A.Zeynallının "Nəriman ata"sında Əli Bayramov, K.Ağayevanın "Məhsəti Gəncəvi"sində Gəncə hökmdarı, İ.Qasımovun və H.Seyidbəylinin "Uzaq sahillərdə"sində Tinti, "Böyük ürək"də Muradov, İ.Şıxlının "Dəli Kür"ündə Həsən əmi, "Odlu çarpazlar"da Polkovnik Ulçenko, N.Həsənzadənin "Atabəylər"ində Əcəmi surətləri aktyorun həyat müşahidələrinin böyük ustalıqla yaradılan səhnə bəhrəsi idi.

Evripidin "Medeya"sında Egey, Sofoklun "Antiqona"sında Tiresi, U.Şekspirin "III Riçard"ında Londonun Lord-meri, "Otello"da Lodoviqo, A.Ostrovskinin "Quduz pullar"ında Yeqor Dmitriç Qlumov, M.Qorkinin "Qoca"sında Stepaniç, G.Fiqeyeredonun "Tülkü və üzüm"ündə (Ezop) Aqnostos, B.Brextin "Üç qəpiklik opera"sında Matiteas, N.Hikmətin "Kəllə"sində Pedro, K.Buaçidzenin "Həyətdə qapan it var"ında Leo Landiya, İ.Mosaşvilinin "Qərq edilmiş daşlar"ında Osman, A.Salınskinin



"Təbilçi qız"ında Kulnyev, R.Həmzətovun "Dağlı qız"ında Salman, M.Şatrovun "İnqilabi etüd"ündə Nümayəndə, M.Kərimin "Odu atma, Prometey!"ində Gefest, E.Radzinskinin "Sokratla söhbətlər"ində Korifey surətləri respublikanın Əməkdar artisti Rza Nadirovun Gəncə Dövlət Milli Dram Teatrının səhnəsində dünya klassiklərinin, eləcə də, əcnəbi müəlliflərin müxtəlif janrlı pyeslərində yaratdığı bitkin obrazlar silsiləsinin bir qismi olaraq diqqəti cəlb edir.

Aktyorun səhnə fəaliyyəti hər zaman diqqət mərkəzində saxlanılıb. Belə ki, o, 24 dekabr 1981-ci ildə respublikanın Əməkdar artisti fəxri adına layiq görülüb. Rza Nadirov 15 dekabr 1995-ci ildə Gəncədə vəfat edib.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
***teatrşünas-tənqidçi***

# Beynəlxalq Xəzər konfransı



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə oktyabrın 2-3-də Bakı Konqres Mərkəzində "Xəzər dənizi üçün dönüş nöqtəsi: COP29 və UNOC 2025 nəticələrindən COP30 üzrə fəaliyyətə keçid" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Oktyabrın 3-də açılış sessiyasında çıxış edən Azərbaycan Prezidentinin İqlim məsələləri üzrə nümayəndəsi, COP29-un Prezidenti Muxtar Babayev, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev, "Great Whale Conservancy" təşkilatının təsisçisi və direktoru Maykl Fişbax, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Balıqçılıq və Akvakultura Mərkəzinin direktoru Ceyhun Əliyev, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının baş əməliyyat direktoru Yucin Six və tədbirə onlayn qoşulan BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Cenevrə Qlobal Resurs Məlumat Bazasının direktoru Paskal Peduzzi dünyanın ən böyük və analoqu olmayan su hövzəsi olan Xəzər dənizinin problemlərindən bəhs edib, dəniz səviyyəsinin azalması, bioresursların tükənməsi, sahilyanı ekosistemlərin deqradasiyası və çirklənmə kimi çağırışların hər bir dövlətin təkbaşına həll edəcəyi problemlər olmadığını diqqətə çatdırıblar.

Qeyd olunub ki, Xəzərin səviyyəsində son onilliklərdə müşahidə olunan enmə prosesləri həm sahilyanı infrastruktur, həm də ekosistemlər üçün ciddi fəsadlar yaradır. Son 30 ildə 2,5 metr enmə yaranıb ki, bu da balıqçılıq təsərrüfatı, yaşayış məntəqələri və ekosistemlərin dayanıqlılığına mənfi təsir göstərir. Suyun çəkilməsi də yeni ekoloji risklər yaradır. Belə ki, torpaq duzlaşması, bioloji müxtəlifliyin zəifləməsi kimi problemlər ortaya çıxır. Bildirilib ki, qlobal əhəmiyyətə malik olan Xəzər dənizində iqlim dəyişikliyi səbəbindən gedən proseslərin təsir və nəticələri regional xarakter daşıyır və yalnız koordinasiyalı tədbirlər, ortaq tədqiqatlar və qarşılıqlı etimad şəraitində aradan qaldırıla bilər. Həmçinin Azərbaycanın COP29 sədrliyi dövründə əldə olunan nəticələrin praktiki addımlara transformasiyasının vacib olduğu da vurğulanıb.



Tədbir müzakirələrlə davam edib. Müzakirələrdə çıxış edən COP29 Prezidentliyi, Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP), BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat), eləcə də müxtəlif ölkələrin ixtisaslaşmış elmi-tədqiqat müəssisələrinin nümayəndələri Xəzər dənizinin mühafizəsi üzrə regional əməkdaşlıq imkanları, su ehtiyatlarının idarəolunması və beynəlxalq səviyyədə koordinasiyanın gücləndirilməsi məsələlərinə toxunublar. İştirakçılar Xəzər dənizinin ekoloji vəziyyətinə dair mövcud çağırışları qeyd edərək, beynəlxalq elmi əməkdaşlığın möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Qeyd edək ki, IDEA və Caspisnet elmi şəbəkəsinin birgə təşkilatçılığı ilə həyata keçirilən tədbirin məqsədi 10-dan çox ölkəni təmsil edən dəniz ekologiyası, dayanıqlı akvakultura, hidrologiya, coğrafi informasiya sistemləri və bir sıra digər müvafiq sahələr üzrə ixtisaslaşmış alim və ekspertləri bir araya gətirərək Xəzər dənizinin səviyyəsinin dəyişmə dinamikası, dəniz biomüxtəlifliyi və ekoloji balansın qorunması yollarına dair fikir mübadiləsi aparmaq, eləcə də birgə həll yollarını müzakirə etməkdən ibarətdir.

Tədbir çərçivəsində, həmçinin iştirakçıların Xəzərin zəngin biomüxtəlifliyi ilə birbaşa tanış olmaları üçün Abşeron Milli Parkına səfəri təşkil ediləcək.

*XQ*

# 4 nəfərə dövlətə xəyanət ittihamı

**Dövlət Təhlükəsizliyi Xidmətində ibtidai istintaqı başa çatdırılmış cinayət işi üzrə toplanmış materiallar Bakı Hərbi Məhkəməsinə daxil olub.**

Həmin şəxslər bir müddət əvvəl həbs ediliblər.

Xarici xüsusi xidmət orqanının nümayəndələrinə kömək etməklə casusluq formasında dövlətə xəyanət etməkdə ittiham olunan İlkin Qənbərov və Vüsal Ağayev DTX tərəfindən görülmüş tədbirlər nəticəsində saxlanılaraq istintaqa cəlb olunublar. Onlardan Vüsal Ağayev hərbçidir.

DTX tərəfindən davam etdirilən tədbirlər zamanı Tural Alıyev İordaniya Haşimilər Krallığı ərazisində, Məmməd Şərifov isə Türkiyə Respublikası ərazisində ələ keçirilərək Azərbaycan Respublikasına gətiriliblər.

Təqsirləndirilən şəxslərə qarşı Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham irəli sürülüb.

Bu maddənin sanksiyasında 12 ildən 20 ilədək və ya işin hallarından asılı olaraq ömürlük azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

**Su həyatın əsas təməlini təşkil edən ən qiymətli resurslardan biridir. Onun səmərəli idarə olunması yalnız ekoloji deyil, həm də iqtisadi, sosial və təhlükəsizlik baxımından strateji əhəmiyyət kəsb edir. Son illərdə qlobal iqlim dəyişikliyi, əhali artımı və sənayeləşmə prosesləri su ehtiyatlarına olan təzyiqi artırıb və suyun idarə edilməsini dövlət siyasətinin mərkəzində duran strateji məsələ halına gətirib.**

# İstanbul və Tehran kəskin su qıtlığı ilə üz-üzə



Türkiyə KİV-i məlumat verir ki, İstanbulda su anbarlarındakı ehtiyatlar 28 faizə düşüb. İstanbul Su və Kanalizasiya İdarəsinin (İSKİ) açıqlamasına görə, şəhərin su anbarlarında suyun səviyyəsi 27,8 faizdir ki, bu da 868 milyon kubmetr suyun 241,3 milyon kubmetrini təşkil edir. Bu göstərici son on ildəki ən aşağı səviyyələrdən biridir və yalnız 2023-cü ilin eyni dövrü ilə müqayisə edilə bilər, həmin vaxt anbarlar cəmi 16 faiz su ilə dolu idi.

Apreldən etibarən anbarlardakı ehtiyatlar davamlı olaraq azalaraq 80 faizdən bu səviyyəyə düşüb. Şəhəri təmin edən on anbardan yalnız biri 25 faizdən çox su ilə doludur, dördü isə yalnız 2 faizdən az su saxlayır. İstanbulda 16 milyondan çox insan yaşayır və şəhərin gündəlik su istehlakı təxminən 3,18 milyon kubmetrdir. Bu səbəbdən şəhər hakimiyyəti və İSKİ sakinlərə suyu qənaətlə istifadə etməyi tövsiyə edir.

İstanbulun su böhranı yalnız yerli bir məsələ deyil; bu, qlobal su idarəçiliyinin strateji əhəmiyyətini vurğulayan bir nümunədir. Dünyanın müxtəlif bölgələrində su ehtiyatlarının azalması, quraqlıq və iqlim dəyişikliyi nəticəsində yaranan su böhranları ciddi narahatlığa səbəb olur. Məsələn, Pakistanda günəş enerjisi ilə işləyən su nasoslarının artması yeraltı su ehtiyatlarının sürətlə tükənməsinə gətirib çıxarır. "Reuters" agentliyi yazır ki, 2025-ci ildə bu ölkədə təxminən 650 min belə nasos fəaliyyət göstərir. Texnologiya suvarma xərclərini azaltsa da, yeraltı su ehtiyatlarının sürətlə azalmasına səbəb olur.

Avropada da su ehtiyatları ciddi təzyiq altındadır. Avropa Ətraf Mühit Agentliyinin hesabatına görə, iqlim dəyişikliyi və çirklənmə nəticəsində Avropanın təbii resursları, xüsusən də su ehtiyatları təhlükə həddinə yaxınlaşır ki, bu da iqtisadi təhlükəsizlik üçün ciddi risklər yaradır. Bundan əlavə, "Guardian" qəzeti yazır ki, İran hökuməti su çatışmazlığına görə Tehran şəhərini köçürməyi nəzərdən keçirir. Bu qərar əhalinin çoxalması, yeraltı su ehtiyatlarının azalması və infrastrukturun qeyri-kafi olması ilə bağlıdır.

Ümumiyyətlə, dünyada su ilə bağlı risklər təkcə çatışmazlıq və qıtlıqla məhdudlaşmır. Su resurslarının idarə edilməsində qeyri-bərabər paylanma ölkələr arasında gərginliklərə və hətta geosiyasi qarşıdurmalara səbəb ola bilər. Misal üçün, Dəclə və Fərat kimi beynəlxalq çay hövzələrində su ehtiyatlarının istifadəsi regional siyasətin ayrılmaz hissəsinə çevrilib. Bu vəziyyət göstərir ki, su diplomatiyası yalnız texniki və ekoloji məsələlərdən ibarət deyil, o strateji düşüncə və uzunmüddətli planlaşdırma tələb edir.

Bir sözlə, su idarəçiliyi yalnız ekoloji və iqtisadi məsələ deyil, həm də milli təhlükəsizlik və geosiyasi strategiyanın ayrılmaz hissəsidir. Su resursları üzərində effektiv nəzarət və davamlı idarəetmə ölkələrin su diplomatiyasını qurmasına imkan yaradır. Qlobal çağırışlar və iqlim dəyişiklikləri fonunda su idarəçiliyinə sərmayənin yatırılması və strateji planlaşdırmanın hazırlanması ölkələrin gələcək uğurunun əsas şərtidir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***


"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının balansındakı bəzi əmlakların müsabiqə yolu ilə satışının keçirilməsi barədə

ELAN

**Müsabiqəyə çıxarılan əmlaklar barədə məlumat**

**1.** Bakı şəhəri, Binəqədi rayonu, M.Ə.Rəsulzadə qəsəbəsi, Baksol ərazisi, 1-ci döngə, 3-cü dalan, 12 nömrəli ünvanda, 0,01319 hektar torpaq sahəsində yerləşən 431,8 kv.m sahədən ibarət fərdi yaşayış evi. Əmlak yüklü deyil.

**Start qiyməti - 370.000,0 (üç yüz yetmiş min manat) manat.**

**2.** Bakı şəhəri, Xətai rayonu, 2944a nömrəli məhəllə, Xudu Məmmədov küçəsi A-1A nömrəli ünvanda 0,06206 hektar torpaq sahəsində yerləşən 1 790 kv.m qeyri-yaşayış binası (yarımçıq tikili). Əmlak yüklü deyil.

**Start qiyməti - 1.580.000,0 (bir milyon beş yüz səksən min manat) manat.**

**Ərizələrin qəbulunun başlanma və bitmə tarixi:** 6 oktyabr 2025-ci il, saat 10.00 – 4 noyabr 2025-ci il, saat 16.00.

**Müsabiqə qalibinin müəyyən edilməsi tarixi və saatı:** 7 noyabr 2025-ci il, saat 16.00.

**Müsabiqənin keçirildiyi ünvan:** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, AZ-1022. Bakı şəhəri, Nəsimi rayonu, S.Vurğun küçəsi 135.

**Əmlakla, onun növü və parametrləri ilə bağlı sənədlərlə tanış olmaq qaydası və müddəti:** 2025-ci il oktyabrın 6-dan 2025-ci il noyabrın 4-dək, həftənin 3 və 5-ci günləri, "Aqrarkredit" QSC-nin baş ofisində, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 nömrəli ünvanda baxılmalıdır.

**Əlaqəli şəxs:** Şahin Seyidov. Tel:050-235-99-90.

**İddiaçılar qarşısında irəli sürülən şərtlər**

**1.** İddiaçı tərəfindən əmlakın elan olunan ilkin satış dəyərinin 0,5% faizi həcmində beh məbləği ödənilməlidir. Müsabiqənin qalibi hər hansı səbəbdən əmlakı almaqdan imtina etdiyi halda onun tərəfindən ödənilmiş beh məbləği geri qaytarılmır.

**2.** İddiaçılar tərəfindən təqdim edilmiş təklifdə əmlak üçün təklif olunan məbləğ aydın şəkildə rəqəmlə Azərbaycan dilində sözlə yazılmalı, iddiaçılar və ya onların etibarnamə ilə nümayəndələri tərəfindən imzalanmalıdır. Sözlə rəqəm arasında fərq aşkar edildikdə, sözlə ifadə olunmuş yazı əsas götürülür. Təklif müsabiqənin keçirilməsi haqqında məlumatda göstərilən müddət ərzində imzalanmış (əgər hüquqi şəxsdirsə möhürlənmiş) qapalı zərfdə "Aqrarkredit" QSC-yə təqdim edilməlidir.

**3.** Bir iddiaçı müsabiqədə iştirak etmək üçün yalnız bir ərizə verə bilər. İddiaçı Müsabiqə Komissiyasına yazılı bildiriş verməklə ərizələrin qəbulu müddəti bitənədək ərizəsini geri götürə bilər.

**4.** Müsabiqə günü iddiaçı və ya onun nümayəndəsi etibarnamə ilə müsabiqədə iştirak etməlidir. Təqdim edilmiş zərflər iddiaçılar və ya onların nümayəndəsinin iştirakıyla etibarnamə ilə açılır.

**5.** Müsabiqə zamanı əmlakın start qiymətindən ən yüksək qiymət təklif etmiş iddiaçı müsabiqənin qalibi elan olunur. İddiaçılar tərəfindən təqdim edilmiş təkliflər eyni məbləğ olduqda həmin iddiaçılar əmlak üçün təklif olunan məbləği göstərməklə yenidən təklif təqdim edirlər. Bu zaman da təklif məbləğləri eyni olduqda proses fərqli təklif olanadək davam etdirilir. Yenidən təklif verməkdən imtina edən iddiaçı müsabiqədə iştirak etmir.

**6.** Müsabiqənin qalibi əmlakın dəyərinin 30 (otuz) bank günü ərzində tam ödənilməsini təmin etmək barədə yazılı zəmanət verməlidir.

**Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər**

**1.** İddiaçının ərizəsi (ərizə forması "Aqrarkredit" QSC tərəfindən veriləcək).

**2.** İddiaçının şəxsiyyətini təsdiq edən sənəd.

**3.** Təklif (qiymət bağlı zərfdə rəqəm və sözlə göstərilməklə).

**4.** İddiaçı tərəfindən ödənilmiş beh məbləğini təsdiq edən qəbz.

**5.** Etibarnamə (nümayəndə iştirak etdikdə).

**Qeyd: iddiaçı hüquqi şəxs olduqda** – (Dövlət qeydiyyatı haqqında şəhadətnamə, nizamnamə, qanuni təmsilçinin və ya nümayəndənin şəxsiyyətini təsdiq edən sənəd (surəti).

**Beh ödənilməsi üçün bank rekvizitləri**
Kodu: 501587
VÖEN: 1300025711
SWIFT BIC: ACJTAZ22
Ünvan: Bakı şəhəri, AZ 1006. Qədirli küçəsi 125.
M/h Mərkəzi Bankda: AZ45NABZ 01350 1000 000 000 35944
H/h: AZ67ACJT45019192794010094401


*Yeni nəşrlər*

# Qarabağ zəfərinin etnoloji salnaməsi

**Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix və Etnoqrafiya İnstitutu Elmi Şurasının qərarı ilə tarix elmləri doktoru, professor Nərgiz Quliyevanın "Birinci və İkinci Qarabağ müharibələri: Azərbaycanın erməni işğalçıları üzərində qələbəsinə etnoloji baxış" adlı monoqrafiyası oxuculara təqdim olunub.**




"Parlaq imzalar" nəşriyyatında işıq üzü görmüş kitab XX əsrin sonu–XXI əsrin əvvəllərində nankor qonşularımız olan erməni təcavüzkarlarının başlatdıqları Qarabağ münaqişəsinin bu torpağın əzəli sahiblərinə – Azərbaycan ailələrinə faciəvi təsiri mövzusuna həsr edilib. Həyasız hay işğalı və nankorcasına separatçılığın xalqımızın həyatına gətirdiyi müsibətlər bədii ədəbiyyat və dövri mətbuat materialları, informatorların məlumatları əsasında ətraflı tədqiq olunub. Monoqrafiyada həmçinin müharibə iştirakçılarının, Qarabağ şəhidlərinin valideynlərinin, şahidlərin verdiyi bilgilər əksini tapıb.

Giriş, 2 fəsil və nəticədən ibarət monoqrafiya Birinci Qarabağ müharibəsi və onun nəticələrinə dair ümumi və fərdi yanaşmaları, Vətən müharibəsi dövründə Azərbaycan ailələrinin maddi-mənəvi həyatında erməni təcavüzünün izlərini cəmləşdirib.

İlk fəsildə şəhidlik zirvəsinə ucalmış Vətən oğulları – həyatlarını itirsələr də, əbədiyyət qazanmış Milli Qəhrəmanlar Vəzir Orucov, Rafael Əsədov, Sərxan Ocaqverdiyev, Yunis Əliyev,.. misilsiz igidlik nümunələri göstərmiş şəhidlər Niyazi Aslanov, Raqif Həsənov, Əlimərdan Əliyev, döyüşlərdən salamat çıxmış Salman Quliyev, Nizami Mehdiyev,.. Qarabağdan xronika çəkən və reportajlar yazan jurnalistlər Çingiz Mustafayev, Kazımağa Kərimov, Sələhəddin Quliyev və başqalarının ömür yollarına nəzər salınıb, fədakar xidmətləri qeyd edilib. Təqdirəlayiqdir ki, kitabda Birinci Qarabağ müharibəsindən sonrakı atəşkəs dövründə canını Vətənə fəda etmiş igid Mübariz İbrahimov kimi şəhidlər də unudulmayıb.

İkinci fəsil məlum Aprel (2016) və Tovuz (iyul, 2020) döyüşlərinin icmalı ilə başlayır. Burada Milli Qəhrəmanlar Polad Həşimov, İlqar Mirzəyev və digər hərbi qulluqçular ətraflı xatırlanır. Ardınca isə İkinci Qarabağ – 44 günlük Vətən müharibəsinin başlanması, müxtəlif dövlətlərin Ermənistan–Azərbaycan müharibəsinə münasibəti, döyüşlərin gedişatı, eləcə də bir qrup qəhrəman – şəhid və qazilər haqqında məlumatlar toplanıb. Kitabda həmçinin Qarabağ müharibələrində erməni təcavüzünə qarşı mübarizəyə qoşulan qadınlar, momolit iqtidar–xalq–ordu birliyi xatırlanır, işğalçılıq savaşının vurduğu maddi-mənəvi ziyanlara hərtərəfli işıq tutulur.

*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 213 (30907) 4 oktyabr 2025-ci il, şənbə

# İDMAN

## Maltada Olimpiya həmrəyliyi forumu



**Maltada Avropa Olimpiya Komitəsinin (AOK) 45-ci Seminarı və Olimpiya Həmrəyliyi formun öz işinə başlayıb. Milli Olimpiya Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, forumda ölkəmizi Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, Baş katib Azər Əliyev və MOK-un xarici əlaqələr idarəsinin müdiri Anar Bağırov təmsil edirlər.**

Forumun ilk günü 45-ci Avropa Olimpiya Komitələrinin (AOK) seminarı və Olimpiya Həmrəyliyi formunun rəsmi açılışı olub.

Forumda AOK İcraiyyə Komitəsinin iclasları, komissiya sədrləri ilə görüşlər, birgə işçi sessiyaları, 10-cu Qış Piotr Nurowski Avropanın Ən Yaxşı Gənc İdmançısı mükafatının təqdimat mərasimi və AOK və Olimpiya Həmrəyliyi üzrə seminarlar keçirilib.

AOK-un forumu Avropanın gənc idmançılarına dəstək vermək, Olimpiya dəyərlərinin təbliği və beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün əhəmiyyətli rol oynayır.

## Günün ən yaxşı qolu



**Ağdamın "Qarabağ" komandasının futbolçusu Emmanuel Addainin qolu UEFA Çempionlar Liqasında günün ən yaxşısı adına layiq görülüb. Bu, azarkeşlərin səsverməsinə əsasən mümkün olub.**

24 yaşlı hücumçu Bakıda Danimarka təmsilçisi "Kopenhagen"ə qalib gəldikləri II turun matçında "köhlən atlar"ın ikinci qoluna imza atıb.

Addaidən başqa, İngiltərənin "Mançester Siti" klubundan Erlinq Holann, "Monako"dan Cordan Teze, Niderland təmsilçisi PSV-dən İsmael Saibari də namizəd idi.

Xatırladaq ki, "Qarabağ" Tofiq Bəhramov adına Respublika stadionunda keçirilən qarşılaşmada "Kopenhagen"in qapısından 2 cavabsız keçirib.

## VII turun 2 oyunu



**Misli Premyer Liqasında VII tura start verilib. Dünən ilk oyun günündə iki matç keçirilib. Açılış qarşılaşmasında "Araz-Naxçıvan" "İmişli"ni qəbul edib. "Liv Bona Dea Arena"da baş tutan qarşılaşmada 2:0 hesabı qeydə alınıb.**

Günün ikinci oyununda "Zirə" "Neftçi"ni qəbul edib. Zirə İdman Kompleksinin stadionu keçirilən görüş 2:2 hesabı ilə başa çatıb.

*Q.YUSİFOĞLU*
*XQ*

# III MDB Oyunlarının gündəliyi

## Batut gimnastikasında 6 medal

**Azərbaycan gimnastı Maqsud Mahsudov III MDB Oyunlarında qızıl medal qazanıb. Şəkidə keçirilən yarışlarda 60.190 xal toplayan millimizin üzvü oğlanların fərdi yarışında bütün rəqiblərini üstələyib.**



Belaruslu İvan Litvinoviç (57.060 xal) ikinci, qazaxıstanlı Nikita Tumakov (47.240 xal) üçüncü olub.

Gimnastlarımız Selcan Mahsudova batut gimnastikası üzrə qızların fərdi yarışında bürünc medal qazanıb. O yarışda 56.040 xal toplayaraq 3-cü nəticə göstərib.

Belaruslu Lana Lebedeva (57.710 xal) qızıl, rusiyalı Anjela Bladçeva (57.660 xal) isə ikinci olub.

Oğlan gimnastlarımız Maqsud Mahsudov və Hüseyn Abbasov sinxron proqramda 50.840 xalla üçüncü yeri tutublar.

Selcan Mahsudova və Şəfiqə Hümbətova da sinxron yarışda 45.900 xalla bürünc medal qazanıblar.

Gimnastlarımız Selcan Mahsudova və Maqsud Mahsudov qarışıq komanda yarışında 49.930 xal toplayaraq ikinci nəticə göstəriblər.

Bununla da batut gimnastikası yarışlarına yekun vurulub. Azərbaycan gimnastları mübarizəni 1 qızıl, 2 gümüş, 3 bürünc medalla başa vurub.

## Futbolçularımız finalda Rusiya ilə qarşılaşacaq

**Dünən III MDB Oyunları çərçivəsində daha bir futbol matçı keçirilib. 5-ci yer uğunda qarşılaşmada Özbəkistan və Qırğızıstan milliləri üz-üzə gəlib.**

Qəbələ şəhər stadionunda baş tutan görüş Özbəkistanın 2:0 hesablı qələbəsi ilə nəticələnib.

Dünən 3-4-cü yerlər uğunda matçda Belarus və Tacikistan milliləri üz-üzə gəlib. Belarus komandası taciklərin qapısından 2 cavabsız top keçirərək 3-cü pilləyə yüksəlib.

Qeyd edək ki, futbol yarışına bu gün Azərbaycan və Rusiya milliləri arasındakı final qarşılaşması ilə yekun vurulacaq.

## Mirnuray Abasova 3-cü pillədə

**Azərbaycan qılıncoynadanı Mirnuray Abasova III MDB Oyunlarında bürünc medal qazanıb. Gəncə İdman Sarayında qılıncoynatmanın şpaqa növündə mübarizə aparan idmançımız yarımfinalda Rusiya təmsilçisi Anastasiya Zabelinaya (14:15) məğlub olub. Bununla da idmançımız yarışı üçüncü pillədə başa vurub.**

Rusiyalı Taisia Larkina finalda həmyerlisi Anastasiya Zabelina 15:13 hesabı ilə qalib gələrək qızıl medal qazanıb. Zabelina gümüş medalla kifayətlənib.

## Badmintonçularımız 4 kateqoriya üzrə 1/4 finalda

**Azərbaycanın ev sahibliyi etdiyi III MDB Oyunlarında badminton yarışlarında təmsilçilərimiz 4 kateqoriyada 1/4 finala yüksəliblər. Kişilərin fərdi yarışında Əmirxan İmanov tacikistanlı Oqil Qoşimidən üstün olub – 2:0.**

Qadınların fərdi mübarizəsində isə Viktoriya Kumanyayeva Tacikistandan olan həmkarı Mohira Karimovaya 2:0 hesabı ilə qalib gəlib.

Qadınların qoşa yarışında da Azərbaycan Tacikistandan üstün olub. Nəzrin Mehrəlizadə və Viktoriya Kumanyayevadan ibarət komanda Sumaiyakhon Hasanova və Mohira Karimova cütünü məğlub edib – 2:0.

Qarışıq qoşa komandaların mübarizəsində Fərəc Kərimli və Aysel Kazımova cütü Qazaxıstandan olan Yerassil Akhmet və Amaliya Ormanovanı 2:0 hesabı ilə üstələyib.

Qeyd edək ki, badminton yarışlarına oktyabrın 5-də yekun vurulacaq.

## Karateçilərimiz 3 qızıl, 2 gümüş, 4 bürünc qazanıblar

**Azərbaycan karateçiləri Mədinə Sadiqova (55 kq), Nuran Rzazadə (67 kq) və Roman Heydərov (kata) qızıl mükafata sahib çıxıblar. Fərid Savadov (60 kq) ilə Nəzrin Piriyeva (55 kq) finalda uduzaraq gümüş medal əldə ediblər.**



İnci Əzizova (50 kq), Aslan Dostuyev (67 kq), Ramilə Heydərova, Rövşən Əliyev (hər ikisi kata) yarımfinalda uduzduqları üçün bürünc mükafatla kifayətləniblər.

## Güləşçilərimizin ilk gündə 7 medalı

**III MDB Oyunlarında güləş yarışlarına start verilib. Gəncə Olimpiya İdman Kompleksində təşkil olunan yarışların birinci günündə Azərbaycanın sərbəst güləşçisi 71 kq çəki dərəcəsində mübarizə aparan Nihad Abasov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, finalda Rusiya təmsilçisi Zubair Baqilova qalib gəlib.**

Nəzrin Əhmədli (46 kiloqram) və Hacıhüseyn Əhmədzadə (51 kiloqram) finalda uduzaraq gümüş medal qazanıblar. Hüseyn Rzazadə (45 kiloqram) isə 3-cü yeri tutub.

Bundan başqa, Rəşid Nəzərov (60 kq) gümüş, Xədicəxanım Talıbova (53 kq) və Amin Nəsibov (92 kq) isə bürünc medal qazanıblar.

## 5 boksçumuz finala çıxıb, 9-u bürünc qazanıb

**III MDB Oyunları çərçivəsində Yevlax Olimpiya İdman Kompleksində keçirilən boks yarışında Azərbaycan millisinin 5 üzvü finala yüksəlib.**



Qardaş Rəhimov (46 kq) tacikistanlı Damir Nazarova qalib gələrək (3:2) finala çıxıb.

60 kq çəki dərəcəsində yarımfinalda mübarizə aparan Şahin Aslanov rusiyalı Dmitri Klyuşnikovdan üstün olub – 4:1. Səfdər Məmmədzadə (+80 kq) qazaxıstanlı Yerketanq Jarkınbeka qalib gələrək (5:0) finala vəsiqəni təmin edib.

Əli Əliyev (48 kq) isə digər Qazaxıstan təmsilçisi Baltin Korqanbekdən üstün olub – 3:2. Digər yarımfinal görüşündə azərbaycanlı idmançı Əli Abaslı (52 kq) türkmənistanlı Xangeldi Lukmanova qalib gəlib – 5:0.

Beləliklə, Azərbaycanın 5 boksçusu finala vəsiqə qazanıb.

Əli Ruşanov (46 kiloqram), Ayxan Həsənov (50 kiloqram), Toğrul Quliyev (60 kiloqram), Şikar Əliyev (75 kiloqram), Əflatun İsmiyev (57 kiloqram), Raul Heydərli (57 kiloqram), Haqverdi Həsənov (63 kiloqram), Adil Zalov (70 kiloqram) və İsmayıl Vəliyev isə (80 kiloqram) yarımfinal döyüşlərində məğlub olaraq bürünc medalla kifayətləniblər.

Qeyd edək ki, kişi boksçular arasında final qarşılaşmaları oktyabrın 5-də keçiriləcək.

*Q.ƏLİYEV*
*XQ*

## Borçalı idmançıları Rusiyada qalib oldular

**Qardabani bələdiyyəsinin Vaxtanqisi kəndində fəaliyyət göstərən "Lion Fighters" MMA klubunun 6 döyüşçüsü Rusiyanın Rostov-Don şəhərində keçirilən yarışlarda qalib gələrək, Asiya Kubokunda iştirak üçün vəsiqə qazanıb. Klub yarışlara Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin layihələri çərçivəsində Gürcüstan Ədliyyə Nazirliyində qeydiyyata alınmış "Caucasus Arena" Assosiasiyasının təşəbbüsü ilə qatılıb.**

Rostov-Don şəhərində keçirilmiş seçmə mərhələsində 10-a yaxın ölkədən idmançılar mübarizə aparıblar. Qalib idmançılarımız Onur Babayev, Ruhin Paşayev, Azad Həsənov, Nurlan Vəliyev, Ramin Musayev və Elgün Vəliyev xüsusi kəmər və medallarla mükafatlandırılıblar.

Qeyd edək ki, "Lion Fighters" MMA klubunun məşqçiləri peşəkar döyüşçü Nicat Əliyev və Samir Omarovdur.

"Caucasus Arena" Assosiasiyasının üzvü, klubun baş məşqçisi Nicat Əliyev bildirib ki, beynəlxaq idman oyunlarına qatilmaqda məqsəd Borçalının gənc idmançılarını dəstəkləmək, bununla yanaşı, müxtəlif idman növlərini inkişaf etdirmək və klubların maddi-texniki bazasını gücləndirməkdir. O, eyni zamanda, qarşıdakı dövrdə gənc idmançıların dünya səviyyəsinə çıxması üçün layihələr həyata keçiriləcəyini, maliyyə və infrastruktur problemlərinin həlli üçün biznes qurumları və dövlət təşkilatları ilə əməkdaşlıq ediləcəyini bildirib.



"Caucasus Arena" İdman Assosiasiyasının rəhbəri Yavər Məmmədov əsas məqsədlərinin güclü idmançıların potensial imkanlarını aşkarlayaraq onları daha mötəbər beynəlxalq turnirlərə cəlb etmək olduğunu bildirib.

*P.ƏMİRCANOV*
*XQ*

## HAVA

## Payız küləkləri duman gətirir

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, gecə və səhər bəzi yerlərdə duman olacağı gözlənilir. Şimal-şərq küləyi səhər cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 13-16, gündüz 19-24 dərəcə isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, bəzi yerlərdə arabir duman olacağı proqnozlaşdırılır. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 12-16, gündüz 19-24, dağlarda gecə 1-6, gündüz 10-15 dərəcə isti olacağı bildirilir.

*Ə.QABİL*
*XQ*

✓ *Xaçmaz rayonunun Sibiroba kənd sakini Məmmədyarov Ramin Əmrah oğlunun adına verilmiş "10 L 773" nömrəli traktorun 24 iyul 2007-ci il tarixli, 009221 nömrəli texniki pasportu itdiyi üçün etibarsız sayılır.*

✓ *2020-ci il iyunun 20-də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi tərəfindən Aydınlı Elmar Elbariz oğlunun adına verilmiş zabitin hərbi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid və əməkdar jurnalist Əminə Yusifqızı Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə anası

**TÜKƏZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universiteti Stomatoloji Klinikasının rəhbərliyi və kollektivi Azərbaycanın keçmiş səhiyyə naziri

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Pirallahı rayonundan Vasif İmanov Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə anası

**TÜKƏZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi rayonundan Rafil Hüseynov Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə anası

**TÜKƏZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Hümbət Musayev və Əlisəfa Həsənov Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə anası

**TÜKƏZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA-nın Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə anası

**TÜKƏZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3515
SİFARİŞ 1947
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00